# Milli Məclis

ANALİTİK İNFORMASİYA JURNALI

YANVAR-FEVRAL, 2025 | WWW.MECLIS.GOV.AZ





## Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası keçirildi

THE MILLI MAJLIS
OF THE REPUBLIC OF AZERBAIJAN

ASIAN PARLIAMENTARY ASSEMBLY
APA

**Milli Məclis**
*Analitik informasiya jurnalı*

**Təsisçi:**
Azərbaycan Respublikasının
Milli Məclisi

**Redaksiya Şurasının sədri:**
Sahibə Qafarova

**Redaksiya Şurasının üzvləri:**
Əli Əhmədov, Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, Fərid Hacıyev, Əli Hüseynli, Arzu Nağıyev, Zahid Oruc, Sadiq Qurbanov, Azər Əmiraslanov, Tahir Rzayev, Musa Quliyev, Əhliman Əmiraslanov, Hicran Hüseynova, Şahin İsmayılov, Fazil Mustafa, Siyavuş Novruzov, Anar İsgəndərov, Polad Bülbüloğlu, Səməd Seyidov, Eldar İbrahimov, Eldar Quliyev

**Baş redaktor:**
Ülviyyə Abdullayeva

**Redaktorlar:**
Aidə Əhmədova
Qərənfil Mansurova

**Dizayn:**
Vəfadar Əliyev

**Redaksiyanın ünvanı:**
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+99 412) 510 90 01
(+99 412) 510 67 01
(+99 412) 510 88 72

Milli Məclisin rəsmi web səhifəsi:
**www.meclis.gov.az**

"Milli Məclis" jurnalının
web səhifəsi:
**www.jurnal.meclis.gov.az**

**Jurnal 2007-ci ilin may ayından nəşr olunur**

# BU SAYDA

**BURAXILIŞ:** YANVAR-FEVRAL, 2025

*Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası Bakı Bəyannaməsinin qəbulu ilə yekunlaşdı* ........ 2

*Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak edən parlament rəhbərləri və nümayəndə heyətləri ilə görüşdü* ........ 8

*İtaliya Azərbaycanın ən yaxın tərəfdaşlarındandır* ........ 14

*Milli Məclis sədrinin görüşləri* ........ 18

*Xocalı faciəsi unudulmayacaq* ........ 21

*Milli Məclisin yaz sessiyası öz işinə uğurla başladı* ........ 22

*Milli Məclisdə ilkin səhiyyə xidmətinin təşkilinə dair dinləmə keçirildi* ........ 24

*Parlamentdə bələdiyyələrin fəaliyyətinə dair illik məruzə dinlənildi* ........ 26

*Azərbaycan və Türkiyənin parlament aparatları arasında əlaqələr qanunvericilik orqanlarının daha səmərəli əməkdaşlığına öz töhfəsini verir* ........ 29

*Azərbaycanın suveren və müstəqil xarici siyasət modeli* ........ 30

*Azərbaycan və Gürcüstan bütün sahələrdə əməkdaşlığı uğurla davam etdirir* ........ 36

*Böyük Britaniya və Azərbaycan arasında inkişaf edən strateji əməkdaşlıq* ........ 40

*Qərbi Azərbaycana mənəvi qayıdış* ........ 44

*Biz Xocalıya qalib Azərbaycan vətəndaşları kimi qayıtdıq* ........ 48

*Azərbaycan-Afrika münasibətləri: neokolonializmlə mübarizədə qitənin azadlıq səsinə dəstək* ........ 52

*ABŞ-ın yeni siyasi administrasiyası nələr vəd edir* ........ 56

*Zəngəzur dəhlizinin açılması Ermənistanın beynəlxalq hüquqa əsaslanan öhdəliyidir* ........ 60

*Yubileylər* ........ 66

*Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan dostluğu hər iki xalqın rifahına mühüm töhfədir* ........ 76

*Sözün zərgəri* ........ 80

*Azərbaycanı Kambocada böyük Zəfərimizdən sonra daha çox tanımağa başladılar* ........ 84




# Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası Bakı Bəyannaməsinin qəbulu ilə yekunlaşdı

Fevralın 18-20-də Bakıda Azərbaycanın sədrliyi ilə Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyası keçirildi. Əvvəlcə 26 ölkə parlamentinin və 7 beynəlxalq təşkilatın 250-dən artıq nümayəndəsinin, 10-a yaxın ölkənin parlament spikerinin iştirak etdiyi plenar sessiya çərçivəsində qurumun İcraedici Şurasının iclası oldu.

İclası giriş nitqi ilə APA-da parlament nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev açaraq bu sessiyanın Azərbaycanın sədrliyi ilə Bakıda keçirilməsinin əhəmiyyətini qeyd etdi. O, toplantı iştirakçılarını Milli Məclisin sədri Sahibə Qafarovanın adından salamladı və tədbirin təşkilinə yaradılan şəraitə görə spikerə təşəkkürünü bildirdi.

Rizvan Nəbiyev qonaqlara ötən il Azərbaycanın bütün suveren ərazilərində baş tutmuş növbədənkənar prezident və parlament seçkiləri haqqında məlumat verdi, həmçinin Bakıda keçirilmiş COP29 - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində qəbul edilmiş mühüm qərarların əhəmiyyəti barədə danışdı. Bu qərarların ətraf mühitin mühafizəsi, yaşıl enerji keçidi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması baxımından mühüm əhəmiyyət daşıdığı vurğulandı. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi layihələr və beynəl-

xalq əməkdaşlığa verdiyi töhfələr xüsusi qeyd edildi.

İclasda APA-nın Baş katibi Məhəmməd Rza Məcidi qurumun ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabat təqdim etdi, bu müddət ərzində görülən işlərdən söhbət açdı. Bəzi ölkələrə qurumda tamhüquqlu və müşahidəçi statusunun verilməsi məsələləri, eləcə də qurumun komitələrində müzakirə olunan qətnamə layihələri üzrə fikir və təkliflər barədə məlumat verən Baş katib ev sahibliyinə görə Azərbaycana təşəkkürünü bildirdi.

Fevralın 19-da Milli Məclisin inzibati binasında Asiya Parlament Assambleyasının "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının açılış mərasimi keçirildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova toplantıda iştirak etdikləri üçün bütün parlamentlərin və beynəlxalq təşkilatların nümayəndələrinə minnətdarlığını bildirdi. Sədr vurğuladı ki, bu, əməkdaşlığımızı daha da inkişaf etdirmək və platformanı möhkəmləndirmək istiqamətində qətiyyətli niyyətimizin və sadiqliyimizin göstəricisidir.

Spiker diqqətə çatdırdı ki, tam bir il əvvəl Azərbaycan Respublikasının Milli Məclisi Asiya Parlament Assambleyasına sədrliyi öz üzərinə götürüb. Bu müddətdə birgə fəaliyyətimizin daha da gücləndirilməsi üçün APA-nın institusional potensialının inkişaf etdirilməsi, üzvlük sıralarımızın genişləndirilməsi, mövcud qurumların fəaliyyətinin canlandırılması və səmərəliliyinin artırılması kimi bir sıra prioritetlər irəli sürdük.

Milli Məclisin sədri bildirdi ki, Oman Sultanlığının Şura Məclisinin Assambleyanın tamhüquqlu üzvlüyünə qəbul olunması, Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının qurumda müşahidəçi statusu alması üçün müraciətləri nəzərdən keçirilib və İcraiyyə Şurası bu məsələlər üzrə plenar sessiyaya müvafiq tövsiyələr verib. Sahibə Qafarova Asiya Parlament Assambleyasının sədri olaraq, hər iki parlamentin spikerinə - Xalid Hilal Nasir Al Maavaliyə və Natalya Koçanovaya Assambleyanın işinə töhfə verməyə göstərdikləri səmimi istək və təşəbbüslərinə görə təşəkkürünü bildirdi. O, plenar sessiyanın bu iki müraciətə müsbət cavab verəcəyinə, bu müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edəcəyinə və bununla da təşkilatın sıralarının genişlənəcəyinə inamını ifadə etdi.

Sahibə Qafarova söylədi ki, ötən ilin digər bir nailiyyəti APA Bürosunun iclaslarının aktivləşdirilməsi olmuşdur. Büronun fəaliyyətinin yenidən canlandırılması ilə bağlı təklifimiz layiqincə qarşılandı. Beləliklə, Daimi Komitələrin hər bir iclası çərçivəsində Büro iclasları da keçirilir və bu, təşkilatın ehtiyaclarına operativ şəkildə cavab verməyə yönəlir.






Milli Məclisin sədri çıxışında APA-nın Baş katibi Məhəmməd Rza Məcidiyə və Katibliyə təşkilatın inkişafı istiqamətində göstərdikləri daimi səylərə görə minnətdarlığını bildirdi.

Spiker bu gün keçirilən plenar iclasın mövzusu il əlaqədar fikirlərini bölüşərək qeyd etdi ki, dünyamızın qarşılaşdığı humanitar böhranlar, münaqişələr, yoxsulluğun, iqlim dəyişikliyinin, ayrı-seçkiliyin, irqçiliyin, ksenofobiyanın və islamofobiyanın artması kimi problemlər və bunlarla mübarizə qaçılmaz şəkildə müasir beynəlxalq münasibətlər sisteminin səmərəliliyi məsələsini ön plana çıxarır. Təəssüf ki, bu gün dünya daha da parçalanmış və qarışıq hala gəlib. Milli Məclisin sədri Azərbaycanın bu məsələyə dair baxışlarını qonaqlarla bölüşdü.

Sahibə Qafarova bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, dünyanın hazırda, həqiqətən, ehtiyac duyduğu şey beynəlxalq öhdəliklərə tam hörmət olunmasıdır. Təəssüf ki, beynəlxalq hüququn bütün norma və prinsiplərinə, beynəlxalq təşkilatların qətnamə və qərarlarına baxmayaraq, əraziləri 30 il ərzində qonşu Ermənistan tərəfindən işğal altında saxlanılmış Azərbaycan bugünkü sistemin səmərəsizliyinin əsas qurbanlarından biri olub. Xalqımız öz torpaqlarını azad edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə bütün bu norma, prinsip və qətnamələri təkbaşına həyata keçirib. Ona görə bu məsələnin nə qədər təcili və vacib olduğunu çox yaxşı anlayır.

Parlamentin sədri vurğuladı ki, beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməməsi, ikili standartlar və seçici yanaşmaların tətbiqi, dövlətlərin daxili işlərinə kənar müdaxilələr bugünkü ziddiyyətlərin və gərginliklərin əsas mənbəyidir. Aydın məsələdir ki, bu mənfi tendensiyanı aradan qaldırmağın, dünyada sülh, sabitlik və rifahı təmin etməyin ən etibarlı yolu çoxtərəfli sistemi gücləndirməkdir. Elə bir sistem ki, burada bütün ölkələr qaydalara hörmət edir, bir-birinə dəstək göstərir və bir dövlətin maraqlarını digərindən üstün tutan birtərəfli yanaşmaları rədd edir.

Sahibə Qafarova söylədi ki, Azərbaycan hər zaman bu prinsiplərə uyğun olaraq effektiv və inklüziv çoxtərəfli sistemin güclü tərəfdarı olub. Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə də bu yanaşmanı aydın şəkildə nümayiş etdirib və Hərəkatın institusional inkişafı üzərində fəal işləməklə yanaşı, üzv dövlətlər arasında dialoqu, əməkdaşlığı və həmrəyliyi təşviq edib.

Milli Məclisin sədri diqqətə çatdırdı ki, Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün qlobal ictimaiyyət tərəfindən yekdilliklə seçilməsi və COP29 çərçivəsində Azərbaycanın liderliyi ilə mühüm qərarların qəbul edilməsi, körpülər qurmaq, müxtəlif maraqlı tərəfləri bir araya gətirmək və Qlobal Şimal ilə Qlobal Cənubu bəşəriyyət üçün ortaq təhlükə olan iqlim dəyişikliyi ilə mübarizə məsələsi ətrafında birləşdirmək bacarığı ölkəmizin çoxtərəfliliyə olan sarsılmaz sadiqliyinin zirvəsi olub. Beynəlxalq Parlament İttifaqı ilə birlikdə COP29 çərçivəsində Parlament Toplantısının təşkil edilməsi də bu çoxtərəfli iqlim tədbirlərinə Azərbaycanın parlament töhfəsi idi.

Spiker həmin toplantıda fəal iştiraklarına görə APA-nın üzv parlamentlərinə təşəkkürünü bildirdi.

Sahibə Qafarova Milli Məclisin müxtəlif parlament təşkilatlarının fəaliyyətində iştirak etdiyini və bu gün APA ilə yanaşı, daha 4 parlamentlərarası təşkilata - İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasına, Türk Dövlətləri Təşkilatının Parlament Assambleyasına, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasına və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə rəhbərlik etdiyini söyləyərək bildirdi ki, bu fəaliyyət parlamentimizin çoxtərəfli parlament diplomatiyasına olan güclü inamını əks etdirir. Spiker xüsusilə vurğuladı ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılıb və bu, ölkəmizin çoxtərəfliliyə verdiyi daha bir mühüm töhfədir.

Milli Məclisin sədri çıxışının sonunda onu da nəzərə çatdırdı ki, parlamentlərarası əməkdaşlıq platformaları, daha yaxşı dünya naminə birgə işləmək əzmkarlığımızın və qətiyyətimizin bariz nümunəsidir. Bu baxımdan, parlamentlərarası təşkilatlar konstruktiv dialoq, əməkdaşlıq və həmrəyliyin canlı təzahürüdür. Bu mənada, Asiya Parlament Assambleyası bu məqsədlər üçün mühüm çoxtərəfli institut rolunu oynayır. Asiya regionu qlobal problemlərin həllində getdikcə daha mühüm mövqeyə sahib olur və bizi öz bayrağı altında birləşdirən Asiya Parlament Assambleyası səslərimizin eşidilməsinə şərait yaradır.

Sədr qurumun potensialının tam şəkildə açılacağına, onun effektivliyinin maksimum dərəcədə artacağına inamını ifadə etdi və bugünkü plenar iclasın bizim ümumi öhdəliyimizin aydın sübutu olduğunu diqqətə çatdırdı.




Sonra iclasda Asiya Parlament Assambleyasının Baş katibi Məhəmməd Rza Məcidi çıxış etdi. O, sessiyanın yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Milli Məclisinə və parlamentin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirdi. Baş katib ölkəmizin Asiya Parlament Assambleyasına sədrliyinin uğurla davam etdirildiyini və Azərbaycan tərəfinin bu təşkilata sədrliyi ilə qarşıda duran məqsədlərə birgə səmərəli əməkdaşlıq nəticəsində nail oluna biləcəyini söylədi. Məhəmməd Rza Məcidi Asiya Parlament Assambleyasının regionda sülhün, təhlükəsizliyin, etimadın gücləndirilməsinə böyük önəm verdiyini vurğuladı.

Baş katib Asiya Parlament Assambleyasına üzv dövlətlər arasında əlaqələrin daha da möhkəmləndirilməsi, qurum çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi, təşkilatın genişləndirilməsi istiqamətində səylərin davam etdirilməsi barədə danışdı, regional münaqişələrin törətdiyi faciələrdən söhbət açaraq onların nizamlanmasının önəmini qeyd etdi. APA-nın Asiya regionunda ölkələrarası münasibətlərin inkişafı baxımından əhəmiyyətli platforma olduğunu deyən Məhəmməd Rza Məcidi bu əlaqələrin gücləndirilməsində parlament diplomatiyasının xüsusi rolundan danışdı.

Sonra sessiyada Asiya Parlament Assambleyasına üzv ölkələrin parlament sədrləri, sədr müavinləri və üzvləri, o cümlədən Bəhreyn Şura Məclisinin sədri Əli



Saleh Abdulla Əlsaleh, Butan Milli Assambleyasının sədri Lunqten Dorci, İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharani, İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibaf, Pakistan Senatının sədri Syed Yusuf Raza Gilani, Tacikistan Ali Məclisinin Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzoda, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Oman Şura Məclisinin sədri Xalid Hilal Nasir Al Maavali, Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova, Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası sədrinin birinci müavini Tariq Humaid Mohd Altayer, Fələstin Milli Şurasının sədr müavini Ali Faysal, İordaniya Milli Assambleyasının Nümayəndələr Palatası sədrinin müavini Əhməd Hamisat, Tailand Nümayəndələr Palatası sədrinin müavini Paradorn Prissananantakul, Türkiyə Böyük Millət Məclisinin üzvü Abdulkadir Emin Önen çıxış edərək mövzu ilə bağlı fikirlə-






rini bölüşdülər. Çıxışlarda tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edildi, Asiya Parlament Assambleyasının Azərbaycanın sədrliyi dövründə böyük uğurlar qazanacağına inam ifadə olundu.

Sonra plenar sessiyanın gündəliyi qəbul edildi və APA-nın Bürosu seçildi. Sessiyada həmçinin Milli Məclisin APA-da nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyevin məruzəsi və Baş katib Məhəmməd Rza Məcidinin qurumun fəaliyyəti ilə bağlı hesabatı dinlənildi. Oman Sultanlığına tamhüquqlu üzv statusunun, Belarus Respublikasına müşahidəçi statusunun təqdim olunması ilə bağlı məsələlərə baxıldı.

Plenar sessiya çərçivəsində APA-nın Sosial və mədəni məsələlər, Büdcə və planlaşdırma daimi komitələrinin iclasları da keçirildi, bu komitələrin profilinə uyğun məsələlərə dair qərar layihələri müzakirə olundu.

Fevralın 20-də APA-nın "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının bağlanış mərasimi keçirildi. Qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev tədbiri açaraq Şurada baxılan məsələlər barədə məlumat verdi. O bildirdi ki, 2025-ci il üçün Rusiya Federasiyasının namizədliyi APA-nın vitse-prezidenti və Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin sədri, Qətər Dövlətinin namizədliyi APA-nın vitse-prezidenti, Büdcə və planlaşdırma üzrə daimi komitəsinin sədri, Bəhreyn Krallığının namizədliyi APA-nın vitse-prezidenti, İqtisadiyyat və davamlı inkişaf üzrə daimi komitəsinin sədri, İran İslam Respublikasının namizədliyi APA-nın vitse-prezidenti və Siyasi məsələlər üzrə daimi komitəsinin sədri kimi təqdim edilib. Tədbir iştirakçıları irəli sürülən namizədlikləri dəstəklədilər.

Rizvan Nəbiyev bildirdi ki, əldə edilmiş razılığa əsasən, Bəhreyn Krallığı 2026-cı il üçün, İran İslam Respublikası isə 2027-2028-ci illərdə qurum sədrliyini öz üzərinə götürür. Bu məsələlərlə bağlı qərar da təsdiq edildi.

Sonra Rizvan Nəbiyev APA-nın 15-ci plenar sessiyasında Bakı Bəyannaməsinin və müxtəlif mövzularda 29 qətnamənin qəbul edildiyini diqqətə çatdırdı. O, nümayəndə heyətlərinə APA-nın plenar sessiyasının və daimi komitələrinin işində aktiv fəaliyyətlərinə görə təşəkkür etdi. APA-nın bundan sonra da əməkdaşlığın gücləndirilməsi və birgə məqsədlər naminə mühüm platforma rolunu oynayacağı ilə bağlı əminlik ifadə olundu.

Sonra Asiya Parlament Assambleyasının Azərbaycanın ev sahibliyi ilə keçirilən 15-ci plenar sessiyası bağlı elan edildi.

# Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak edən parlament rəhbərləri və nümayəndə heyətləri ilə görüşdü



Fevralın 17-də sessiya çərçivəsində keçirilən ilk görüş Oman Sultanlığı Şura Məclisinin sədri Xalid Hilal Nasir Al Maavali ilə oldu. Milli Məclisin sədri Sahibə Qafarova plenar sessiyanın məhsuldar keçiriləcəyinə və vacib məsələlərin müzakirə olunacağına inamını ifadə etdi və APA-nın Asiya parlamentlərini birləşdirən mühüm parlament platforması olduğunu bildirdi.

Spiker Azərbaycan ilə Oman Sultanlığı arasında siyasi əlaqələrin və dialoqun yaxşı səviyyədə olmasından məmnunluğunu dilə gətirdi. O, diqqətə çatdırdı ki, ölkələrimiz arasında Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi mühüm beynəlxalq təşkilatlarda müsbət əməkdaşlıq və qarşılıqlı dəstək mövcuddur.

Oman Sultanlığı Şura Məclisinin sədri Xalid Hilal Nasir Al Maavali ölkəsinin digər təşkilatlarda olduğu kimi, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də Azərbaycana dəstəyini bir daha ifadə etdi.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlıq məsələləri nəzərdən keçirildi. Ölkəmizin sədrliyi ilə Parlament Şəbəkəsinin təsis konfransından bu günə qədər təşkilatın institusional əsaslarının yaradılması və möhkəmləndirilməsi istiqamətində görülən işlər yüksək qiymətləndirildi.

Görüşdə Azərbaycan və Oman arasında parlamentlər müstəvisində əlaqələrin xüsusilə son illərdə daha da inkişaf etdiyi qeyd olunaraq qarşılıqlı səfərlərin və təmasların bu münasibətlərə mühüm töhfə verdiyi diqqətə çatdırıldı.

Fevralın 18-də Milli Məclisin sədri İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharani ilə görüşdü. Söhbət zamanı qeyd olundu ki, bu cür tədbirlər ikitərəfli əlaqələrin müzakirəsi və genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi mühüm beynəlxalq təşkilatlarda müsbət əməkdaşlıq və qarşılıqlı dəstək mövcuddur.

Spiker Sahibə Qafarova İndoneziyanın Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində təmsil olunduğunu və Şəbəkənin tədbirlərində fəal iştirak etdiyini söylədi, belə görüşlərin və qarşılıqlı səfərlərin

münasibətlərimizin inkişafına töhfə verdiyini bildirdi.

Görüşdə parlamentlərarası qarşılıqlı fəaliyyətin dövlətlərimiz arasında əlaqələrin inkişafına mühüm və müsbət təsir göstərdiyi qeyd edildi. Qanunvericilik orqanlarımızın Parlamentlərarası İttifaq, İƏTPA, APA kimi beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyi bildirildi. O cümlədən hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsinin, həmçinin deputatların qarşılıqlı səfərlərinin və sıx təmaslarının münasibətlərimizin daha da genişlənməsinə xidmət etdiyi vurğulandı.

Spiker Sahibə Qafarova qonağa regionda mövcud olan vəziyyət, torpaqlarımızın işğaldan azad olunmasından sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng yenidənqurma və bərpa işləri barədə də məlumat verdi.

İndoneziya Nümayəndələr Palatasının sədri dünyada mövcud olan böhranlar fonunda sülh və təhlükəsizliyin təmin olunmasının çox mühüm əhəmiyyət kəsb etdiyini, Azərbaycan və İndoneziyanın sülhpərvər dəyərlərə malik olduqlarını bildirdi.



Elə həmin gün Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü. Təkbətək keçirilən görüş daha sonra geniş tərkibdə davam etdirildi. Spiker Azərbaycan və Belarus arasında münasibətlərin səmimiliyə, etimada və dostluğa əsaslandığını söylədi.

Bildirildi ki, əlaqələrin inkişafında hər iki ölkənin dövlət başçıları arasındakı yüksək səviyyəli münasibətlər mühüm rol oynayır, həyata keçirilən qarşılıqlı səfərlər və imzalanan 170-dən artıq sənəd əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.

Spiker Sahibə Qafarova ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verməsindən məmnunluğunu nəzərə çatdırdı. Belarus Respublikasına rəsmi səfərini xatırladan spiker qanunvericilik orqanlarımızın beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq etdiyini vurğuladı. Bildirildi ki, Belarus APA-da müşahidəçi statusu alarsa, bu, çoxtərəfli əməkdaşlığa öz müsbət təsirini göstərəcək.

Parlament sədri Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti və Azərbaycanda keçirilmiş COP29 ərəfəsində bəzi qüvvələrin ölkəmizə qarşı ədalətsiz münasibəti barədə də qonaqlara məlumat verdi.

Görüşdə Azərbaycanda və Belarusda keçirilən seçkilərində qarşılıqlı olaraq nümayəndə heyətlərinin geniş tərkibdə müşahidəçi qismində iştirak etməsindən razılıqla söhbət açıldı.

Öz növbəsində Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova ölkələrimizin iqtisadi, ticarət, mədəniyyət və digər sahələrdə əlaqələrinin yüksək səviyyədə olması ilə bərabər, parlamentlərarası münasibətlərin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi və bu münasibətləri daha da inkişaf etdirmək əzmində olduqlarını bildirdi.

Qonaq Belarusun Asiya Parlament Assambleyasında müşahidəçi statusu almağa namizədliyinə verdiyi dəstəyə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi və bu təşkilat çərçivəsində müzakirə olunan məsələlərin əhəmiyyətindən danışdı.



Fevralın 19-da Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşdü. Spiker Sahibə Qafarova Azərbaycan və Özbəkistan arasında mövcud olan möhkəm dostluq və qardaşlıq əlaqələrindən danışdı. Bildirildi ki, iki ölkə arasında münasibətlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan dövlətinin başçısı Şavkat Mirziyoyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir.

Söhbət zamanı Milli Məclisin sədri dəvəti qəbul edərək ölkəmizdə keçirilən APA-nın 15-ci plenar sessiyasında iştirakına görə qonağa təşəkkür etdi. Sahibə Qafarova Özbəkistanın Azərbaycanın işğaldan azad olunmuş Füzuli rayonunda məktəb tikintisi həyata keçirməsinin ölkəmizdə yüksək qiymətləndirildiyini və bunun qardaşlıq münasibətinin təzahürü olduğunu diqqətə çatdırdı.

Öz növbəsində Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva APA-nın sessiyasına dəvətə görə təşəkkürünü bildirdi. Qonaq qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlar heyrətamizdir. Ölkənizin təşəbbüsü ilə keçirilən tədbirlər qlobal xarakter daşıyır. Azərbaycanın Qoşulmama Hərəkatındakı təcrübəsi Özbəkistan üçün də böyük əhəmiyyət kəsb edir.

Tənzilə Narbayeva COP29 kimi mühüm qlobal tədbirin Azərbaycan tərəfindən yüksək səviyyədə təşkilini və keçirilməsini yüksək dəyərləndirdi. O, Özbəkistanda Parlamentlərarası İttifaqın 150-ci Baş Assambleyasının keçiriləcəyini diqqətə çatdırdı və iclasda Azərbaycan nümayəndə heyətinin də iştirak edəcəyinə inamını ifadə etdi.

Fevralın 20-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibaf ilə keçirilən görüşdə tədbirin Bakının ev sahibliyi ilə yüksək səviyyədə təşkil olunduğu vurğulandı. Söhbət zamanı bu səfərin Məhəmməd Baqir Qalibafın ölkəmizə ilk səfəri olduğu və onun münasibətlərimizin inkişafına töhfə verəcəyi ilə bağlı inam ifadə edildi.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın xarici siyasətinin prinsipləri ilə bağlı Prezident İlham Əliyevin fikirlərini xatırladaraq bildirdi ki, bu prinsiplər dostluq, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərə riayət etmək, qarşılıqlı hörmət nümayiş etdirməkdir.

Spiker söylədi ki, dövlət başçımız Azərbaycanla qonşuları arasında mehriban dostluq və qarşılıqlı anlaşma şəraitində birgə fəaliyyətə, qarşılıqlı faydalı əməkdaşlığa böyük əhəmiyyət verir. Vurğulandı ki, təxminən son bir ayda həyata keçirilmiş səfərlərə, görüşlərə, danışıqlara nəzər yetirsək, iki ölkə arasında əməkdaşlıq gündəliyinin çox zəngin olduğunu görərik.

İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibaf qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.

Söhbətdə dövlətlərarası münasibətlərin mühüm bir istiqaməti kimi parlamentlərimiz arasında əlaqələrin genişləndirilməsi, beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq məsələləri də nəzərdən keçirildi. Bu gün Cənubi Qafqaz regionunda mövcud olan yeni imkanlar və perspektivlər barədə danışıldı. Bu baxımdan Azərbaycanın təşəbbüsü ilə yaradılan “3+3” əməkdaşlıq formatının əhəmiyyəti vurğulandı. Bildirildi ki, regiondan kənar xarici qüvvələrin re-

giona cəlb edilməsi isə yaxşı heç nə vəd etmir.

Məhəmməd Baqir Qalibaf İranın "3+3" platformasını tam dəstəklədiyini, bu formatın regionda sülhə və sabitliyə, həmçinin siyasi-iqtisadi əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə həmçinin regiondakı nəqliyyat bağlantılarının, o cümlədən Şimal-Cənub Nəqliyyat Dəhlizinin və Şərqi Zəngəzuru Naxçıvanla birləşdirəcək yol bağlantısının əhəmiyyəti xüsusi vurğulandı.

Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Bəhreyn Krallığının Şura Məclisinin sədri Əli Saleh Abdulla Əlsaleh ilə görüşdü. Söhbət əsnasında Azərbaycan və Bəhreyn arasında münasibətlərin inkişafından razılıq ifadə edildi. Azərbaycan və Bəhreynin BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində müsbət əməkdaşlıq əlaqələrinə malik olduğu diqqətə çatdırıldı.

Tərəflər beynəlxalq parlament təşkilatları, o cümlədən Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də əməkdaşlıqla bağlı fikirlərini ifadə etdilər.

Milli Məclisin sədri Sahibə Qafarova özünün Bəhreyn Krallığına işgüzar səfərini, həmçinin qarşı tərəflə bundan öncə keçirdiyi görüşləri məmnunluqla xatırladaraq qeyd etdi ki, qanunvericilik orqanlarımız arasında əlaqələri daha da dərinləşdirmək üçün yaxşı imkanlar mövcuddur. Görüşdə qarşılıqlı səfərlərin və sıx təmasların bu istiqamətdə vacib rol oynaya biləcəyi vurğulandı, ölkələrimizin parlamentləri arasında münasibətlərə dair fikir mübadiləsi aparıldı.

Həmin gün Milli Məclis sədrinin növbəti görüşü APA-nın 15-ci plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Pakistan Senatının sədri Syed Yusuf Raza Gilani ilə oldu. Spiker Sahibə Qafarova bildirdi ki, Azərbaycan və Pakistan arasında strateji münasibətlər dostluq və qardaşlıq prinsipləri əsasında qurulub. Tərəflər ikitərəfli və beynəlxalq müstəvilərdə bir-birini daim dəstəkləyir və 1992-ci ildə diplomatik əlaqələrimiz qurulandan ötən dövrdə ölkələrimiz arasındakı münasibətlər bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edir.

İki ölkə arasında münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin xüsusi rolunu qeyd edən Milli Məclisin sədri Prezident İlham Əliyevin Pakistana səfərlərinin, Pakistanın Baş nazirlərinin Azərbaycana səfərlərinin və imzalanmış sənədlərin xüsusi rolundan danışdı. Bildirildi ki, Pakistanın Baş naziri Şahbaz Şərif ölkəmizdə keçirilmiş COP29 konfransında iştirak edib və onun Azərbaycana növbəti səfərinin yaxın günlərdə baş tutması planlaşdırılır.

Spiker Sahibə Qafarova bildirdi ki, qanunvericilik orqanlarımız arasında çox səmərəli münasibətlər qurulub. Parlamentlərimiz bir sıra beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq edirlər. Qeyd olundu ki, Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin üçtərəfli formatda əməkdaşlığı strateji müttəfiq ölkələrimizin əldə etdikləri nailiyyətlərdən biridir. Bildirildi ki, Pakistan İslam Respublikası həm ikitərəfli, həm də çoxtərəfli formatlarda Azərbaycan xalqını narahat edən məsələlərdə ölkəmizin ədalətli mövqeyini davamlı olaraq dəstəkləyir. Pakistanın qəti mövqeyi beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin 30 illik Ermənistan işğalına son qoymuş 44 günlük Vətən müharibəsi zamanı açıq şəkildə nüma-





yiş etdirildi. Milli Məclisin sədri Azərbaycanın haqq işinə göstərilən ədalətli mövqeyə görə bir daha minnətdarlığını bildirdi.

Söhbət zamanı spiker Sahibə Qafarova Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti, Azərbaycanın sədrliyi dövründə bu qurumun institusional inkişafı üçün görülən işlər, Ermənistanla sülh prosesinin gedişi, Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdikdən sonra bəzi Avropa təşkilatlarının və ölkələrinin Azərbaycana qarşı qərəzli münasibəti barədə qonaqlara məlumat verdi.

Pakistan Senatının sədri Syed Yusuf Raza Gilani söylədi ki, Pakistan ilə Azərbaycan həmişə bir-birini dəstəkləyən qardaş ölkələrdir və xalqlarımız ortaq dəyərləri bölüşürlər. Qonaq qeyd etdi ki, Pakistan Ermənistanla diplomatik münasibət qurmayan nadir ölkələrdəndir. Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin ikinci üçtərəfli görüşünün bu il Pakistanda keçirilməsi planlaşdırılır. Bununla yanaşı, ticarət, müdafiə, enerji, mədəniyyət, təhsil sahələrində əlaqələrimizi daha da inkişaf etdirmək üçün geniş imkanlar var.

Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası çərçivəsində keçirdiyi görüşlər sırasında fevralın 20-də Milli Məclisin sədri Sahibə Qafarova Butan Krallığı Milli Assambleyasının sədri Lunqten Dorci ilə də görüşdü. Söhbət zamanı xalqlarımızın sülhpərvər ideyaları dəstəklədikləri bildirildi, dünyada sülh və sabitliyin bərpa olunması ilə bağlı təşəbbüslərin vacibliyi qeyd edildi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün imkanlar olduğu vurğulandı. Beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində daha fəal əməkdaşlıq etmək niyyəti qeyd olundu və bu istiqamətdə müzakirələr aparıldı.

Butan Milli Assambleyasının sədri Lunqten Dorci bu səfərin onun üçün yaddaqalan səfər olduğunu bildirdi və paytaxt Bakı ilə bağlı xoş təəssüratlarını bölüşdü. O, 15-ci plenar sessiyanı ən uğurlu sessiya kimi qiymətləndirdi. Assambleyanın sədri ölkəsinə geri qayıtdıqdan sonra hökumətlə görüşəcəyini və Azərbaycanla əlaqələrin inkişaf etdirilməsi ilə bağlı təkliflərini hökumətə çatdıracağını bildirdi.

Fevralın 21-də Milli Məclisin sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Tariq Humaid Mohd Altayerin rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə görüşdü. Spiker diqqətə çatdırdı ki, ötən ildən etibarən Azərbaycan parlamenti APA-ya sədrlik edir və biz bu təşkilatı Asiya parlamentlərini birləşdirən, parlament diplomatiyası üçün mühüm platforma kimi daha da gücləndirməyə sadiqik.

Diqqətə çatdırıldı ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq münasibətləri yüksək səviyyədədir və strateji əhəmiyyət daşıyır. Sahibə Qafarova bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BƏƏ-yə səfərləri, həm-



çinin BƏƏ Prezidenti cənab Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycana rəsmi səfəri çərçivəsində bir sıra mühüm sənədlər imzalanıb. Bunlar arasında "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" xüsusi əhəmiyyətə malikdir. Həmçinin bir milyard dollarlıq maliyyə imkanına malik Birgə İnvestisiya Fondu təsis edilib. Qeyd olundu ki, 2024-cü ilin avqustunda Şuşada keçirilmiş Azərbaycan-BƏƏ İqtisadi, Ticarət və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyasının 9-cu iclası da mühüm önəm daşıyır.

Spiker Sahibə Qafarova qeyd etdi ki, parlamentlərimiz də ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Dost BƏƏ-nin Federal Milli Şurası ilə parlamentlərarası əlaqələrin inkişafına böyük önəm veririk. Bizim parlamentlərarası təşkilatlar çərçivəsində PAİ, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı, APA və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində də müsbət əməkdaşlığımız mövcuddur.

Milli Məclisin sədri BƏƏ parlamentinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində fəal iştirakını yüksək qiymətləndirdi.

Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Tariq Humaid Mohd Altayer qeyd etdi ki, Azərbaycan APA-ya sədrliyi dövründə çox işlər görüb və bu işlər təşkilatın əhatə etdiyi bölgə üçün çox vacibdir. Qonaq bu təşkilatı orada təmsil olunan ölkələrin parlamentləri ilə iş aparmaq, onları düşündürən məsələləri müzakirə etmək üçün əlverişli platforma adlandırdı. Bildirildi ki, dövlət başçılarımız arasındakı yaxşı münasibətlər parlamentlərimizə də öz müsbət təsirini göstərir. Deputatlarımızın qarşılıqlı səfərləri parlamentlərarası əlaqələrimizin dərinləşməsində mühüm rol oynaya bilər.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Tailand Krallığının Nümayəndələr Palatasının sədr müavini Paradorn Prissananantakul ilə görüşdü. Söhbət zamanı APA-nın plenar sessiyasının yüksək səviyyədə təşkil olunduğu, bu təşkilatın bir çox mühüm məsələlərin müzakirəsi baxımından əhəmiyyətli beynəlxalq platforma olduğu diqqətə çatdırıldı. Görüşdə Azərbaycanla Tailand Krallığı arasında yaxşı əlaqələrin olduğu, əməkdaşlığın inkişafı üçün müxtəlif imkanların mövcudluğu vurğulandı. Bu mənada parlamentlərimizin qarşılıqlı fəaliyyətinin dövlətlərimiz arasında əlaqələrin daha da inkişafına mühüm və müsbət təsir göstərə biləcəyi ifadə edildi.

Nümayəndələr Palatasının sədr müavini ölkəmizə səfəri ilə bağlı müsbət təəssüratlarını bölüşdü.

Görüşdə beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq məsələlərinə diqqət yetirildi. Spiker Sahibə Qafarova qonağa Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti və həyata keçirdiyi tədbirlər barədə məlumat verdi. Qeyd olundu ki, Azərbaycanın sədrliyi ilə Parlament Şəbəkəsinin yaradılması, onun mühüm beynəlxalq əməkdaşlıq platforması kimi institusional əsaslarının gücləndirilməsi istiqamətində vacib işlər görülüb. Eyni zamanda, Parlament Şəbəkəsinin digər beynəlxalq parlament təşkilatları ilə münasibətlərinin genişləndirilməsi ilə bağlı da addımlar atılır.



# İtaliya Azərbaycanın ən yaxın tərəfdaşlarındandır

Yanvarın 21-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İtaliya Respublikasında rəsmi səfərdə oldu.

Parlamentin spikeri Sahibə Qafarova səfər çərçivəsində İtaliya Senatının Avropa İttifaqı siyasəti komissiyasının və İtaliya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri ilə görüşdü. Görüşdə senator Culio Terzi bu səfərin ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirdi. O, 20 Yanvar faciəsinin 35-ci ildönümü və 2024-cü il dekabrın 25-də baş vermiş təyyarə qəzası ilə bağlı bir daha Milli Məclisin sədrinə başsağlığı verdi.

Öz növbəsində Milli Məclisin sədri Sahibə Qafarova da Azərbaycan-İtaliya münasibətlərinin yüksək səviyyədə olduğunu bildirdi. Belə qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına mühüm töhfələr verdiyi, bu baxımdan İtaliya və Azərbaycan dövlət başçılarının şəxsi dostluğunun ikitərəfli münasibətlərimizin daha da genişlənməsində mühüm rol oynadığı qeyd edildi.



Söhbət zamanı Azərbaycan və İtaliya arasında bir çox sahələrdə uğurlu əməkdaşlığın mövcud olduğu vurğulandı, iqtisadi sahədə



əlaqələrin dərinləşməsi, o cümlədən nəqliyyat, enerji məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Tərəflər arasında humanitar sahədə də əməkdaşlığın müsbət inkişafı, xüsusilə Heydər Əliyev Fondunun İtaliyada həyata keçirdiyi layihələrin önəmi, həmçinin Azərbaycan-İtaliya Universitetinin fəaliyyəti qeyd edildi. Komissiyanın üzvləri bu universitetin Azərbaycana səfər edən hər bir italiyalı üçün böyük qürur və fəxr mənbəyi olduğunu dilə gətirdilər.

Görüşdə İtaliya tərəfi ətraf mühitin mühafizəsi ilə əlaqədar Bakıda COP29-un yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Azərbaycana, xüsusilə Prezident İlham Əliyevə minnətdarlıq ifadə etdi.

Söhbət zamanı Milli Məclisin sədri Sahibə Qafarova iki ölkənin parlamentləri arasında münasibətlərin inkişafında dostluq qruplarının rolundan söz açdı. Spiker bildirdi ki, qarşılıqlı səfərlərin intensivliyinin artırılması Avropada Azərbaycan haqqında saxta xəbərlərin yayılması fonunda daha düzgün məlumatların ictimaiyyətə təqdim olunmasına kömək edər.

Görüşdə çıxış edən İtaliya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Marko Skuriya da ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşdü. O, AŞPA-da Azərbaycanla bağlı qərəzli mövqeyin nümayiş etdirilməsindən narahatlığını ifadə etdi.

Sonra görüş interaktiv formada davam etdirildi. Qarşı tərəfin Azərbaycan-İtaliya münasibətləri, ölkəmizin xarici siyasət prioritetləri, Cənubi Qafqaz regionunda mövcud vəziyyət, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi ilə bağlı sualları Milli Məclisin sədri tərəfindən cavablandırıldı.

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti İtaliyaya səfər çərçivəsində Romadakı Azərbaycan səfirliyinə baş çəkdi. Spiker binada yaradılan şəraitlə və səfirliyin tabeliyindəki Azərbaycan Mədəniyyət Mərkəzi ilə tanış oldu. Burada Heydər Əliyev Fondu tərəfindən Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, musiqisi, miniatür sənəti, zərgərlik məmulatları, milli xalçaları ilə bağlı dərc olunmuş kitablar nümayiş etdirilmiş, səfirliyin həyətində "Xarıbülbül" beynəlxalq musiqi festivalının qaliblərinin müəllifi olduqları əsərlər sərgilənmişdir.

Nümayəndə heyətimiz tərəfindən səfirliyin iş otaqlarında diplomatik korpusun əməkdaşları





üçün hər cür şəraitin yaradılması, görüş otaqlarında Azərbaycan-İtaliya münasibətlərinin ən vacib məqamlarını, Prezident İlham Əliyevin azad edilmiş ərazilərə səfərlərini əks etdirən fotosərgilərin və İtaliyada Azərbaycanla bağlı dərc olunmuş kitab və məqalələrin illüstrasiyalarının yerləşdirilməsi, Mərkəzin daxili tərtibatında Azərbaycanın dövlət rəmzlərindən, tariximizi əks etdirən eksponatlardan istifadə edilməsi məmnunluqla qarşılandı.

Səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarovanın İtaliya Deputatlar Palatasının sədri Lorenzo Fontana ilə görüşü keçirildi və ölkələrimiz, eləcə də parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparıldı. Bu səfərin parlamentlərimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edən Lorenzo Fontana Azərbaycan ilə münasibətlərin İtaliya üçün əhəmiyyət kəsb etdiyini vurğuladı. O, İtaliyanın Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafına hər cür dəstək verməyə hazır olduğunu söylədi, ölkəmizin güclü və sabit inkişaf etməsindən məmnunluğunu ifadə etdi.

Sahibə Qafarova İtaliyanın Azərbaycanın ən yaxın tərəfdaşlarından biri olduğunu, ölkələrimiz arasında münasibətlərin dostluq və əməkdaşlıq ruhunda inkişaf etdiyini dedi. Söhbət zamanı əlaqələrimizin inkişafında siyasi



təmasların, o cümlədən yüksək səviyyəli səfərlərin və görüşlərin müstəsna rolu qeyd edildi, xüsusilə prezidentlər səviyyəsində baş tutan qarşılıqlı səfərlərin münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsində vacib əhəmiyyət daşıdığı vurğulandı.

Söhbət zamanı ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri kimi parlamentlərin qarşılıqlı əməkdaşlığının vacib rolundan, dostluq qruplarının fəaliyyətindən geniş söhbət açıldı. Təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin böyük əhəmiyyət kəsb etdiyi, bu cür təmasların ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə töhfə verdiyi bildirildi. Bu baxımdan Azərbaycanın, xüsusilə Heydər Əliyev Fondunun İtaliyada həyata keçirdiyi bir sıra mədəniyyət layihələrinin əhəmiyyəti



vurğulandı. Həmçinin regionda və daha geniş coğrafiyada mövcud olan vəziyyət barədə fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclisin sədri Sahibə Qafarova Lorenzo Fontananı Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul edildi.

# Milli Məclis sədrinin görüşləri



Milli Məclisin sədri Sahibə Qafarova fevralın 28-də Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti xanım Aktotı Raimkulova ilə görüşdü. Spiker türk dünyasının güclənməsində fondun əhəmiyyətindən, qurumun fəaliyyətinin daha da genişləndirilməsi üçün böyük potensialın olduğundan, Azərbaycanın türk birliyi məsələsinə böyük önəm verdiyindən söhbət açdı. Parlament sədri Azərbaycan dövlət başçısının təşəbbüsü ilə yaradılmış bu fondun türk xalqlarının bir-birinin mədəniyyətini və irsini dərindən tanımasına, qardaş xalqlarımızın daha da yaxınlaşmasına imkan yaratdığını söylədi.

Söhbət zamanı bildirildi ki, fond türk dünyasının zəngin mədəni irsini qorumaq, yaymaq, gələcək nəsillərə ötürmək baxımından mühüm körpüdür və türk xalqlarının dəyərlərini qorumaqla, mədəniyyətlərarası dialoqu gücləndirməklə bu sahəyə önəmli töhfələr verir.

Səmimi görüş üçün təşəkkürünü bildirən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti xanım Aktotı Raimkulova bu fondun yaradılmasını düzgün və çox uzaqgörən qərar kimi qiymətləndirdi. Qonaq söylədi ki, mədəniyyət yumşaq gücdür və xalqların bir-birinə yaxınlaşmasında mühüm rola malikdir. O, fondun gördüyü işlər, həyata keçirilən layihələr və gələcək planları barədə məlumat verdi. Aktotı Raimkulova Azərbaycan Prezidenti İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" sözlərini özləri üçün deviz seçdiklərini və fəaliyyətlərini bu istiqamətdə qurduqlarını diqqətə çatdırdı.

Milli Məclisin sədri Sahibə Qafarova fevralın 20-də Türkiyə Cümhuriyyətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Birol Akgünlə görüşdü. Spiker yeni təyin olunmuş səfiri təbrik edərək ona gələcək fəaliyyətində uğurlar arzuladı.

Görüşdə qardaş ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə edilərək münasibətlərimizin Ulu Öndər Heydər Əliyevin söylədiyi kimi, "bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. İki ölkənin prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin ən yüksək səviyyəyə çatdığı və bu gün dünya miqyasında bu münasibətlərin bənzəri olmadığı vurğulandı. Şuşa Bəyannaməsi xalqlarımız arasında mövcud olan tarixi, ənənəvi qardaşlıq əlaqələrinin ifadəsi kimi qiymətləndirildi. Həmçinin bildirildi ki, Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu regionumuzda da sülh və sabitliyin, təhlükəsizliyin təmin olunmasında mühüm amildir.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığa toxunuldu. Qeyd olundu ki, iki qardaş dövlət hər zaman bir-birinin yanındadır və bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq bir-birini dəstəkləyir.

Görüşdə ölkələrimiz arasında yüksək səviyyəli münasibətlərin

iki ölkənin parlamentləri platformasında da uğurla davam etdirilməsi, qanunvericilik orqanlarımız arasında əlaqələrin dövlətlərarası əməkdaşlığın ruhuna uyğun olması və ildən-ilə möhkəmlənməsi məmnunluqla dilə gətirildi.

Yeni təyin olunmuş səfir Birol Akgün Türkiyənin Azərbaycanda səfiri qismində fəaliyyəti zamanı mövcud müttəfiqlik münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.



Milli Məclisin sədri Sahibə Qafarova yanvarın 24-də Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçını Azərbaycandakı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul etdi. Görüşdə spiker Boluda baş verən faciəvi yanğınla bağlı qardaş Türkiyə xalqına bir daha başsağlığı verdi. Sahibə Qafarova bu faciə ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşa da başsağlığı məktubu ünvanladığını, Azərbaycanın hər zaman qardaş Türkiyənin yanında olduğunu vurğuladı.

Söhbət zamanı Ümummilli Lider Heydər Əliyevin ifadə etdiyi kimi, “bir millət, iki dövlət” şüarına söykənən Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin iki ölkənin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə daha da inkişaf etdiyi, bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan başqa ölkələr olmadığı diqqətə çatdırıldı. Ölkələrimiz arasında müttəfiqliyin rəsmi ifadəsi olan Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğu bildirildi. Münasibətlərimizin daha da genişlənməsi və dərinləşməsi istiqamətində parlamentlərimizin rolu, qanunvericilik orqanlarımızın və deputatlarımızın bütün platformalarda bir-birini dəstəklədikləri, beynəlxalq təşkilatlarda ortaq mövqedən çıxış etdikləri qeyd olundu.

Görüşdə Cahit Bağçının Azərbaycanda diplomatik fəaliyyəti dövründə qardaş ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsi istiqamətində səmərəli fəaliyyət göstərdiyi vurğulandı.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Belarus Respublikasının ölkəmizdəki səfiri Andrey Ravkovu da Azərbaycandakı diplomatik fəaliyyətini başa vurması münasibətilə qəbul etdi. Görüşdə Andrey Ravkovun səfir kimi ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səmərəli fəaliyyəti vurğulandı.

Söhbət zamanı Azərbaycan və Belarus arasında münasibətlərin bütün sahələri əhatə etməklə dostluq prinsiplərinə söykəndiyi ifadə edildi və bu əlaqələrin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksək səviyyəli münasibətlərin mühüm rolu, o cümlədən ölkələrimizin beynəlxalq təşkilatlarda da səmərəli fəaliyyəti qeyd olundu.

Görüşdə parlamentlərarası münasibətlərin ölkələrimiz arasında əməkdaşlığın mühüm bir istiqamətini təşkil etdiyi, qanunvericilik orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq etdiyi vurğulandı.

Andrey Ravkov diqqətə və Azərbaycanda fəaliyyət göstərdiyi müddətdə dəstəyə görə təşəkkür edərək ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə inamını bildirdi.



**Fevralın 13-də Milli Məclisin sədri Sahibə Qafarova və ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud birgə işçi nahar etdilər. Söhbət zamanı Azərbaycan ilə Somali arasında münasibətlərin inkişaf perspektivləri, parlamentlərarası əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.**



Milli Məclisin sədri Sahibə Qafarova fevralın 17-də Belarusun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç ilə görüşdü. Söhbət zamanı xalqlarımız və ölkələrimiz arasında etimada əsaslanan dostluq əlaqələrinin mövcud olmasından məmnunluq ifadə edildi. Azərbaycan və Belarus arasında əlaqələrin inkişafında iki ölkənin prezidentləri İlham Əliyev və Aleksandr Lukaşenko arasında mövcud olan münasibətlərin vacib rolu, dövlət başçılarının siyasi iradəsi, həmçinin yüksək səviyyəli dialoq və qarşılıqlı sıx təmaslar sayəsində son dövrlərdə əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyi bildirildi. Görüşdə münasibətlərin inkişafında qanunvericilik orqanlarının da mühüm rolundan söhbət açıldı. Milli Məclisin sədri özünün Belarusa rəsmi səfərini xatırladaraq, həmçinin parlament rəhbərləri və deputatlarımız arasında sıx təmasların mövcud olduğunu vurğuladı. Sonra spiker Sahibə Qafarova səfirə ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzuladı.

Ölkəmizə səfir təyin olunmasından şərəf hissi duyduğunu deyən Dmitri Pineviç Azərbaycanda gördüyü yüksək səviyyəli qonaqpərvərlik və diqqəti qeyd edərək, ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini söylədi.

# Xocalı faciəsi unudulmayacaq




Fevralın 26-da XX əsrdə bəşər tarixinin ən qanlı cinayəti sayılan Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, respublikanın  Baş naziri Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər Bakının Xətai rayonunda Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət etdilər, abidə önünə gül dəstələri düzdülər və faciə qurbanlarının əziz xatirəsi ehtiramla anıldı. Həmin gün parlament rəhbərliyi - Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin əməkdaşları da Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar abidəni ziyarət edərək faciə qurbanlarının əziz xatirəsini dərin ehtiramla yad etdilər.

* * *

Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi xarici ölkələrin parlamentlərarası əlaqələr üzrə işçi qruplarına, parlamentlərin beynəlxalq komitələrinə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanladı. Müraciətlərdə deyilir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücum edərək onu bir gecədə yerlə-yeksan etdilər. Etnik mənsubiyyətlərinə görə 613 mülki şəxs, o cümlədən 106 qadın, 63 uşaq və 70 yaşlı insan qəddarcasına qətlə yetirildi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirdi. Qurbanlara misilsiz qəddarlıqla yanaşıldı. Xocalının 1275 sakini girov götürüldü. Onlardan 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi hələ də naməlumdur.

Bu soyqırımı aktının təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi olsa da, birbaşa icraçıları erməni silahlı qüvvələrinin üzvləri, terrorçu qruplaşmaları və Xankəndidə yerləşən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının hərbçiləri idi.

Müraciətlərdə o da qeyd olunur ki, Azərbaycan 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bu gün azad edilmiş bütün ərazilərdə, o cümlədən Xocalıda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparır. Digər bölgələrin sakinləri kimi doğma torpaqlarına qayıtmağa başlayan Xocalı əhalisi də öz evlərində sülh və təhlükəsizlik şəraitində yaşayacaqdır.

Lakin Xocalı soyqırımı qurbanları hələ də ədalətin bərpasını gözləyir. Təəssüf ki, Ermənistan bu qətliamın və digər çoxsaylı müharibə cinayətlərinin icraçılarını ədalət qarşısına çıxarmaqdan imtina edir.

Müraciətlərdə Xocalı soyqırımının təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş bir cinayət olması və sivil dünyanın bu soyqırımını qətiyyətlə pisləməsinin gələcəkdə belə cinayətlərin törədilməsinin qarşısını almağa kömək edəcəyi də vurğulanır.




# Milli Məclisin yaz sessiyası öz işinə uğurla başladı

Fevralın 3-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2025-ci ilin yaz sessiyasının ilk plenar iclası keçirildi. Spiker bildirdi ki, yeddinci çağırış Milli Məclis ötən sessiyanı uğurla başa vurub. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün lazımi tədbirlər görülüb. Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyalar arasındakı dövrdə də uğurla davam etdirilib. Deputatlarımız Asiya Parlament Assambleyasının komitə iclasında, ATƏT-in Parlament Assambleyasının büro iclasında, Şimali Kipr Türk Respublikasında keçirilən simpoziumda iştirak ediblər, Belarus Respublikasında prezident seçkilərini müşahidə ediblər.

Milli Məclisin sədri yanvarın 21-22-də başçılıq etdiyi nümayəndə heyətinin İtaliya Respublikasına rəsmi səfəri barədə də deputatlara ətraflı məlumat verdi. Daha sonra o, sessiyalar arasındakı dövrdə Milli Məclisdə keçirilən Türk Dövlətləri Parlament Assambleyasının üzvü olan ölkələrin parlamentlərinin Səhiyyə komitələri sədrlərinin ikinci iclası və bu ərəfədə baş tutan ictimai dinləmələrdən söz açdı. Bildirildi ki, yanvarın 30-da Səhiyyə komitəsində "İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları" mövzusuna həsr edilmiş dinləmədə və elə həmin gün Gənclər və idman komitəsinin təşkilatçılığı ilə keçirilən Azərbaycan Gənclər Fondunun 2024-cü ildə fəaliyyəti ilə bağlı tədbirdə maraqlı məsələlər müzakirə edilib.

Sonra Sahibə Qafarova yaz sessiyasının qanunvericilik işləri planı hazırlandığını qeyd etdi. Bildirildi ki, sessiya dövründə bir çox qanun layihələrinin müzakirəsi ilə yanaşı, Konstitusiyanın tələblərinə uyğun olaraq Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın), bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun və gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik hesabatları, məlumat və məruzələri də dinləniləcək, həmçinin 2024-cü ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim olunacaq.

Spiker Sahibə Qafarova Milli Məclisin yaz sessiyasının da yüksək səviyyədə keçəcəyinə əminliyini bildirdi və deputatlara uğurlar arzuladı.

Sonra iclasda cari məsələlər müzakirə edildi. Millət vəkilləri ölkə gün-

dəmində olan vacib məsələlər barədə öz fikirlərini bölüşdülər. Çıxışlarda cari ildə Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmanın daha da intensivləşməsi, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin davam etdirilməsi, ölkənin müdafiə qüdrətinin yüksəldilməsi, vətəndaşların rifahının təminatına yönəlmiş proqramların icrası ilə bağlı məsələlər vurğulandı. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni reallıqların yarandığı, dünyadakı mürəkkəb geosiyasi proseslər fonunda ölkəmizin irimiqyaslı enerji layihələrində iştirakı, siyasi, iqtisadi imkanlarımızın genişləndiyi, beynəlxalq nüfuzunun artdığı diqqətə çatdırıldı. Azərbaycanın regionda və dünyada artan mövqeyinin bəzi qüvvələri narahat etdiyi, bir sıra beynəlxalq qurumların ölkəmizə qarşı ədalətsiz mövqe tutduqları, böhtan və təhdidlərlə çıxış etdikləri vurğulandı.

Millət vəkilləri Azərbaycanda əldə edilən nailiyyətlərdə gənclərin rolundan da bəhs etdilər. Bildirildi ki, Ulu Öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə hər il fevralın 2-si Azərbaycanda Gənclər Günü kimi qeyd olunur. Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın gənclərə olan xüsusi qayğısından söhbət açıldı. Bu gün Azərbaycanda uğurlu gənclər siyasətinin həyata keçirildiyi, onların ölkənin ictimai-siyasi həyatında, təhsildə, idmanda, beynəlxalq platformalarda layiqincə təmsil olunduğu bildirildi. Ölkəmizdə gənclərin fiziki və mənəvi inkişafına, onların müasir, intellektual, vətənpərvər ruhda formalaşmasına daim diqqət yetirildiyi, bu istiqamətdə müvafiq dövlət proqramlarının həyata keçirildiyi qeyd edildi və bir sıra digər aktual məsələlərə toxunuldu.



Sonra Milli Məclisin sədri Sahibə Qafarova gündəlikdə olan 16 məsələnin müzakirə ediləcəyini söylədi. Spiker bildirdi ki, hər sessiyanın əvvəlində parlamentin qanunvericilik işləri planı qəbul olunur və parlament öz fəaliyyətini həmin plan əsasında qurur. Çıxış edən komitə sədrləri və millət vəkilləri müzakirəyə təqdim olunan qanunvericilik işləri planı barədə fikir və təkliflərini səsləndirdikdən sonra qərar layihəsi qəbul edildi.

İclasda Milli Məclisin Daxili Nizamnaməsinin 40-cı və 41-ci maddələrinə uyğun olaraq, Milli Məclisin Hesablayıcı komissiyasının və İntizam komissiyasının yaradılması haqqında qərar layihələri səsvermə yolu ilə təsdiq edildi.

Daha sonra gündəlikdəki "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Milli Məclisin Qərarında dəyişiklik edilməsi barədə məsələ ilə əlaqədar Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun çıxışı dinlənildi. O qeyd etdi ki, Azərbaycanın beynəlxalq əlaqələri getdikcə inkişaf edir və bu gün 103 parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Bugünkü iclasda isə Oman Sultanlığı ilə belə bir qrupun yaradılması, onun rəhbərinin seçilməsi ilə bağlı məsələyə baxılacaq. Komitə sədri Oman Sultanlığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasının vacibliyindən danışdı, bunun ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyini vurğuladı. O, işçi qrupunun rəhbəri qismində deputat Səbinə Salmanovanın namizədliyinin təklif edildiyini söylədi. Qərar layihəsi səsə qoyularaq qəbul olundu.

Sonra iclasda gündəliyə daxil edilən digər qanun layihələri müzakirə olunaraq qəbul edildi.



# Milli Məclisdə ilkin səhiyyə xidmətinin təşkilinə dair dinləmə keçirildi

Yanvarın 30-da Milli Məclisin Səhiyyə komitəsində "İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları" mövzusunda dinləmə keçirildi.

Tədbiri açan komitə sədri Əhliman Əmiraslanov bu dinləmənin keçirilməsi üçün göstərilən dəstəyə və yaradılan şəraitə görə Milli Məclisin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirdi. O vurğuladı ki, Prezident İlham Əliyevin dəstəyi və qayğısı sayəsində Azərbaycan səhiyyəsi inkişaf edir, onun maddi-texniki bazası, kadr potensialı genişlənir, səhiyyə sahəsinə vəsait qoyuluşu ilbəil dinamik olaraq artır. 2025-ci ildə bu rəqəm üç milyard manata çatdırılmışdır. Əhaliyə göstərilən tibbi xidmətlərin həm keyfiyyətində, həm də kəmiyyətində ciddi yüksəliş müşahidə olunur, bu sahədə çoxsaylı uğurlar əldə edilir.



Tədbirdə iştirak və çıxış edən səhiyyə naziri Teymur Musayev cənab Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının rifahının dayandığını, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın insanların sağlamlığına xüsusi həssaslıqla yanaşdığını, müxtəlif sosial layihələrin təşəbbüskarı və dəstəkçisi olduğunu söylədi. Nazir çıxışında qeyd etdi ki, son 20 ildə qan xəstəlikləri ilə mübarizə tədbirləri gücləndirilərək talassemiyadan ölüm sayının 5 dəfə azalmasına nail olunub. 2023-cü ildə Azərbaycan malyariyadan tam azad ölkə kimi qeydiyyatdan keçib. 2021-ci ilin aprel ayından etibarən ölkəmizin bütün ərazilərində icbari tibbi sığortanın tətbiqi əhalinin bir sıra tibb xidmətlərinə əlçatanlığını yüksək dərəcədə artırsa da, ilkin tibbi sanitariya yardımına yenidən baxılmasını, onun təkmilləşdirilməsini zəruri edir.

Teymur Musayev inamla bildirdi ki, qarşılıqlı fəaliyyət sayəsində ölkəmizdə müasir səhiyyə sisteminin tələblərinə cavab verən ilkin tibbi sanitariya xidmətini əhalimizin istifadəsinə verə biləcəyik.

Tədbirdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev çıxış edərək dedi ki, ilkin səhiyyə xidməti əhalinin tibbi xidmətlərə əlçatanlığının təşkilində çox böyük rol oynayır. Bizim üçün ən vacib məsələ yaşadığı regiondan asılı olmayaraq əhalimizin bərabər şəkildə tibbi xidmətlərə əlçatanlığının təmin olunmasıdır. Agentlik sədri bu sahədə çalışanların bilik və bacarıqlarının qiymətləndirilməsi, inkişaf etdirilməsi, peşəkarlığının artırılması ilə bağlı görülən işlərdən, ilkin səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsinin aktuallığı, regionlarda tibb məntəqələrinin yenidən qurulması, onların tibbi heyətlə təmin olunması ilə bağlı məsələlərdən söz açdı.

İclasda Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin İdarə Heyətinin sədri vəzifələrini müvəqqəti icra edən Şərafət İsmayılova və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri İsa Əliyev ilkin tibbi-sanitariya yardımının (İTSY) əsas prinsipləri barədə ətraflı məlumat verdilər. Əhalinin tibbi xidmətlərə əlçatanlığının təmin edilməsi, İTSY-ə bərabər çıxış imkanlarının yaradılması, həmçinin səhiyyə sisteminin iqtisadi səmərəliliyinin artırılması barədə danışdılar. Çıxışlarda bu sahədə kadr təminatı, o cümlədən "Ailə həkimi" rezidentura proqramının müddətinin və qəbul şərtlərinin yenilənməsi, baza tibb təhsili əsasında İTSY müəssisələrində çalışma imkanı, həmin müəssisələrdə işləyən tibb işçilərinə kəmiyyət və keyfiyyət göstəriciləri əsasında bonusların verilməsi, təhkim edilmiş əhalinin xüsusiyyətləri və coğrafi şərait nəzərə alınaraq əməkhaqlarına əlavələrin verilməsi ilə bağlı təkliflər irəli sürüldü.

Dinləmədə parlamentin komitə sədrləri və millət vəkilləri, Milli Məclis Aparatının məsul əməkdaşları çıxış edərək ilkin səhiyyə xidmətinə qəbul şərtlərinin yenilənməsi, burada çalışan tibb işçiləri üçün stimullaşdırıcı tədbirlərin nəzərdə tutulması, həmçinin mövcud qanunvericilik bazasının bugünkü tələblərə və beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə bağlı fikirlərini bölüşdülər, qeyd və təkliflərini səsləndirdilər.

Səhiyyə naziri Teymur Musayev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, Agentliyin İdarə Heyəti sədrinin müşaviri İsa Əliyev dinləmədə qaldırılan məsələlərə münasibətlərini bildirdilər, səsləndirilən sualları cavablandırdılar.






# Parlamentdə bələdiyyələrin fəaliyyətinə dair illik məruzə dinlənildi

Fevralın 14-də Milli Məclisin spikeri Sahibə Qafarovanın sədrliyi ilə keçirilən plenar iclasda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənildi. Sədr iclasda ədliyyə nazirinin müavini Toğrul Hüseynovun, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsinin rəisi Elmin Həsənovun və rəis müavini Mehdi Abdullayevin iştirak etdiklərini diqqətə çatdırdı.

Ədliyyə nazirinin müavini Toğrul Hüseynov "Bələdiyyələrin 2024-cü ildə fəaliyyəti haqqında" məruzəni təqdim etdi. Nazir müavini bildirdi ki, 2024-cü il Azərbaycan üçün mühüm və əlamətdar ictimai-siyasi hadisələrlə zəngin olub. Belə ki, Prezidentin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edilib. İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri sürətlə davam etdirilib, Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq əhalinin doğma torpaqlarına qayıdışı təmin olunub. Eyni zamanda, ötən il keçirilən növbədənkənar prezident seçkiləri və Milli Məclisə növbədənkənar parlament seçkiləri Azərbaycanın müstəqillik tarixində ilk dəfə ölkənin bütün suveren ərazisini, o cümlədən işğaldan azad olunmuş torpaqları əhatə edib.

Bununla yanaşı, "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuş 2024-cü ildə Azərbaycan dünyanın mötəbər beynəlxalq tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla ev sahibliyi etməklə qlobal əhəmiyyətli qərarların qəbuluna nail olub. Habelə ölkəmizdə özünüidarəetmə orqanlarının formalaşmasının 25 illiyi və 2025-ci il yanvarın 29-da keçirilən növbəti bələdiyyə seçkiləri də Azərbaycanın ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdəndir.

Qeyd olundu ki, ötən il ərzində yerli özünüidarəetmənin inkişafı məsələləri diqqətdə saxlanılıb. Bələdiyyələrin fəaliyyətində qanunçuluğa əməl edilməsi, qanunvericiliyin tələblərinin pozulması, onları yaradan səbəblərin aradan qaldırılması, bələdiyyələrə gös-

tərilən metodoloji köməkliyin gücləndirilməsi istiqamətində işlər davam etdirilib. Bundan başqa yerli özünüidarəetmə orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı tədbirlər həyata keçirilib və mövcud qanunvericiliyə bir sıra zəruri dəyişikliklər edilib.

Diqqətə çatdırıldı ki, hesabat ilində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 102831, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 2557 bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, nəticədə 99838 aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Normativ hüquqi aktların tələblərinə zidd olan 2594 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Qanuna əsasən aidiyyəti bələdiyyələrə təkliflər verilib. Ümumilikdə, həm aktlar, həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı 2600-dən çox aktın dəyişdirilməsi və ya ləğv edilməsi təklif olunub. Bələdiyyələrin fəaliyyəti ilə bağlı baxılmış 4337 müraciətdən 463-ü təmin edilib. Şəhid ailəsi üzvlərinin, müharibə əlili və iştirakçılarının müraciətləri xüsusilə nəzarətdə saxlanılıb və belə müraciətlərdən 108-i təmin olunub. Aparılmış araşdırmalar zamanı 51 halda ciddi qanun pozuntuları aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilib. Həmin materiallardan 21-i üzrə cinayət işi başlanılıb. Ötən il ərzində 103 inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib. Həmin protokollar əsasında 77 bələdiyyənin vəzifəli şəxsi məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb edilib, 16 inzibati xəta protokoluna xitam verilib, 11-i isə hazırda məhkəmələrin icraatındadır.

Bildirildi ki, inzibati nəzarət



tədbirləri çərçivəsində ümumilikdə 9720 hektar torpaq sahəsinin qanunsuz ayrılmasına dair bələdiyyə aktlarının ləğv edilməsi məqsədilə nazirlik tərəfindən bələdiyyələrə təklif və ya məhkəmələrə iddialar verilib. Artıq həmin torpaqların bələdiyyə mülkiyyətinə qaytarılması təmin edilib.

Nəzərə çatdırıldı ki, 2024-cü ildə bələdiyyələrin maliyyə imkanlarının yaxşılaşdırılması məqsədilə büdcə gəlirlərinin artırılması, o cümlədən vergitutma obyektlərinin uçotunun dəqiqləşdirilməsi və uçotdan kənarda qalan vergitutma obyektlərinin vergiyə cəlb edilməsi, vergilərin və digər debitor borcların qanunauyğun hesablanaraq yığılması, əvvəlki illərdə icarəyə verilmiş bələdiyyə torpaqlarının icarə haqlarının mövcud bazar qiymətlərinə uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilib.

"Elektron icra" informasiya sistemi vasitəsilə əldə olunmuş məlumata əsasən 2024-cü il ərzində debitor borcların ödənilməsi ilə bağlı bələdiyyələr tərəfindən qəbul edilmiş 11290 inzibati akt icra məmurları tərəfindən icraata qəbul olunub. İcraatda qalıqla birgə 16785 inzibati akt olub. Onların yarıdan çoxunun icrası təmin edilib.

Vurğulandı ki, ötən il ərzində yerli özünüidarəetmə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı tədbirlər davam etdirilib. Prezidentin müvafiq sərəncamı ilə təsdiq olunmuş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası məqsədilə bir sıra qanunvericilik aktlarına dəyişikliklər edilib.

İnzibati nəzarət zamanı müəyyən edilmiş hüquq pozuntuları və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınması məqsədilə ayrı-ayrı bələdiyyələrə vətəndaş məmnunluğunun yüksəldilməsi, bələdiyyə aktlarının qəbulu, vergi və ödənişlərin toplanılmasına nəzarətin gücləndirilməsi, büdcə vəsaitindən istifadə, bələdiyyə torpaqlarının

idarə olunması və bir sıra digər məsələləri əhatə edən tövsiyələr göndərilib. Bələdiyyələrlə onların fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan arasında elektron sənəd dövriyyəsi təşkil edildikdən sonra bələdiyyə aktlarının vaxtında təqdim edilməməsi hallarının, habelə bununla bağlı bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən törədilən inzibati xətaların sayı əhəmiyyətli dərəcədə azalıb.

Qeyd edildi ki, yerli özünüidarəetmə sahəsində aşkarlığın, şəffaflığın, ictimai iştirakçılığın artırılması ilə bağlı da ardıcıl tədbirlər həyata keçirilib. İl ərzində yerli özünüidarəetmə sahəsində maarifləndirmə və tədris tədbirləri təşkil olunub, metodiki tövsiyələr hazırlanıb, digər dövlət qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilib.

Nazir müavini çıxışında onu da vurğuladı ki, ölkəmizdə yerli özünüidarəetmənin səmərəliliyinin artırılması məqsədilə 2024-cü il ərzində Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanları, o cümlədən Prezident Administrasiyası, Milli Məclis və onun aidiyyəti komitələri ilə sıx əməkdaşlıq davam etdirilib. Həmçinin xarici dövlətlərin analoji orqanları, assosiasiya və bələdiyyələr üzrə ixtisaslaşdırılmış təşkilatları ilə bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə, onların fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsinə xidmət edir.

Ədliyyə nazirinin müavini Toğrul Hüseynovun məruzəsindən sonra çıxış edən Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini Nurlan Həsənov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi barədə komitənin rəyini diqqətə çatdırdı. O, məruzənin komitədə geniş müzakirə edildiyini, hesabatın yüksək səviyyədə hazırlandığını və müsbət rəy verildiyini söylədi.



görülən işlər barədə vətəndaşların məlumatlandırılması, aktual məsələlərlə əlaqədar bələdiyyələrin maarifləndirilməsi məqsədilə media subyektlərinin imkanlarından geniş istifadə edilib. Hazırlanmış müxtəlif tövsiyələr, bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsi üzrə keçirilmiş müxtəlif tədbirlər Ədliyyə Nazirliyinin rəsmi saytında, "Bələdiyyələrlə iş" informasiya sistemində və digər saytlarda işıqlandırılıb. Yerli əhalinin rifahı naminə görülən işlər barədə bukletlər, broşürlər, video-çarxlar hazırlanaraq təqdim edilib. Nazirlik tərəfindən müxtəlif Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları arasında səmərəli təcrübə mübadiləsi aparılıb.

2024-cü ildə ölkəmizdə bələdiyyələrin yaranmasının 25 ilinin tamam olması ilə əlaqədar Milli Məclisin Regional məsələlər komitəsi, Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları və digər aidiyyəti qurumların iştirakı ilə silsilə tədbirlər keçirilib. Habelə bələdiyyələrin birləşməsi və keçirilmiş növbəti bələdiyyə seçkiləri ilə əlaqədar müvafiq hüquqi maarifləndirmə işləri görülməkdədir. Vurğulandı ki, ümumilikdə 2024-cü il ərzində görülən işlər ölkəmizdə

Milli Məclisin sədri Sahibə Qafarova da öz çıxışında hesabatın yaxşı hazırlandığını, əvvəlki illərdən fərqli olaraq bir çox istiqamətlərdə görülən işlər və gələcək planlar haqqında ətraflı məlumat verildiyini bildirdi. Spiker Milli Məclisin hər zaman yerli özünüidarəetmə təşkilatları ilə əməkdaşlığa hazır olduğunu qeyd etdi.

Nazir müavini Toğrul Hüseynov müzakirələr zamanı səsləndirilən fikirlərin Ədliyyə Nazirliyi tərəfindən növbəti ildə hazırlanacaq məruzədə dəyərləndiriləcəyini və müvafiq işlərin görüləcəyini bildirdi.

# Azərbaycan və Türkiyənin parlament aparatları arasında əlaqələr qanunvericilik orqanlarının daha səmərəli əməkdaşlığına öz töhfəsini verir



Yanvarın 14-də Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyevin başçılığı ilə nümayəndə heyəti Türkiyəyə səfər etdi. Nümayəndə heyətinin üzvlərinin əvvəlcə Ankarada Türkiyə Böyük Millət Məclisinin Baş katibi Talip Uzunla görüşü keçirildi və iki qardaş ölkənin münasibətlərinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "bir millət, iki dövlət" prinsipi əsasında inkişafından söhbət açıldı.

Görüşdə Fərid Hacıyev Azərbaycan parlamentinin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Milli Məclisdə aparılmış islahatlar və Aparatın fəaliyyət istiqamətləri barədə fikirlərini bölüşdü. İki ölkənin parlamentləri arasında imzalanmış əməkdaşlıq haqqında sazişin əhəmiyyəti qeyd edildi və həmin sənəddə parlament aparatları arasında əlaqələrin inkişaf etdirilməsi məsələlərinin də yer aldığı diqqətə çatdırıldı. Parlament aparatları arasında olan intensiv münasibətlərin qanunvericilik orqanlarının daha səmərəli əməkdaşlığına mühüm töhfələr verəcəyinə inam ifadə edildi.

Nümayəndə heyətinin üzvləri TBMM Katibliyinin beş şöbəsinin əməkdaşları ilə də görüşdülər. Həmin şöbələrin müdirləri azərbaycanlı həmkarlarına iş prinsipləri haqqında ətraflı məlumat verdilər. Sonra onlar qardaş ölkə parlamentinin media mərkəzi, kitabxanası, televiziya mərkəzi, mətbəəsi ilə tanış oldular.

TBMM-in Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla keçirilən görüşdə də qanunvericilik orqanlarının qardaş ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə özünəməxsus töhfələr verdiyi bildirildi, həm ikitərəfli formatda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığın mövcud olduğu qeyd edildi. Belə qarşılıqlı səfərlərin qanunvericilik orqanlarımızın daha sıx əməkdaşlığında mühüm əhəmiyyəti vurğulandı.

Azərbaycan parlamenti Aparatının nümayəndə heyəti Türkiyə Respublikasına səfəri çərçivəsində Ankaradakı Heydər Əliyev parkında Ulu Öndərin abidəsi önünə əklil qoyaraq xatirəsini ehtiramla andı. Onlar Ankarada "Anıtkabir"i də ziyarət edərək Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi önünə gül-çiçək düzdülər.

# Azərbaycanın suveren və müstəqil xarici siyasət modeli

Müstəqil və suveren dövlətə sahib olmaq bir çox xalqların ümdə məqsədidir. Buna nail olan və tarix boyu bu ideala sadiq qalan Azərbaycanın dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasət bu gün bir çox ölkələr üçün model rolunu oynayır.



**Ceyhun Bayramov**
Azərbaycan Respublikasının xarici işlər naziri

Xalqımız müxtəlif zaman mərhələlərində bəzi kənar müdaxilələrə və məhrumiyyətlərə baxmayaraq, yaddaşımızda silinməz izlər qoyan böyük dövlətçilik tarixinin, zəngin müstəqillik ənənələrinin, müasir Azərbaycan dövlətçiliyinin, zəruri dövlət təsisatlarının və xarici siyasətin formalaşmasında əhəmiyyətli istinad mənbəyi olmuşdur.

Ölkəmizin şərəfli dövlətçilik yolunda bəzi vaxtlarda fasilələr yaransa da, xalqımız çətin sınaqlardan üzüağ çıxaraq tarixi ədaləti bərpa etmiş, qədim dövlətçilik ənənələrinə sədaqətini göstərmiş, təkcə müdafiə qabiliyyəti ilə deyil, diplomatiya vasitəsilə də öz müstəqilliyini qoruyub saxlaya bilmişdir.

Azərbaycan xalqının israrlı təkidi ilə xaotik bir dövrdə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli dövlətçiliyin qurulması prosesinin önündə gedən xarici siyasətimizin formalaşdırılması prioritet istiqamət kimi müəyyənləşdirilmişdir.

Ulu Öndər irsinin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən Azərbaycanın yaxın və uzaq tarixi keçmişi, geosiyasi reallıqları dərindən təhlil edilərək daha da inkişaf etdirilmişdir. Zənginləşdirilmiş xarici siyasət strategiyamız ilk növbədə ölkəmizin milli maraqları əsasında prinsipial və bərabərhüquqlu şəkildə formalaşdırılmışdır. Bu, daxili işlərə qarışmamaq, qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə uyğun olaraq qonşu dövlətlər və dünya birliyi ilə münasibətlərin qurulmasını, ölkəmizin davamlı inkişafının əldə edilməsini, xarici siyasətimizin manevr imkanlarının və strateji dərinliyinin artırılmasını, ən əsası da Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulmasını, ərazi bütövlüyümüzün və sərhədlərimizin toxunulmazlığının təmin olunmasını özündə ehtiva edir.

Son iki əsr ərzində Azərbaycan üçün əlverişli imkanlar vəd edən, amma eyni zamanda, ciddi təhlükə mənbəyi olan coğrafi mövqeyimiz, təbii sərvətlərimiz və geosiyasi mühit amilləri son 30 ildə böyük məharətlə əlaqələndirilərək, biri digərini tamamlayacaq formada vahid strategiya əsasında həyata keçirilmişdir. Bu da uzunmüddətli bir dövr və perspektivli gələcək üçün hazırlanmışdır ki, zaman keçdikcə onun bəhrələri daha aydın şəkildə Azərbaycanın beynəlxalq miqyasda əldə etdiyi uğurlarında və sürətli inkişafında özünü göstərmişdir.

44 günlük Vətən müharibəsi nəticəsində və 2023-cü ildəki birgünlük antiterror tədbirlərindən sonra ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi Azərbaycanın beynəlxalq arenada qətiyyətini daha da artırmış, xarici siyasətimizin müstəqilliyini gücləndirmişdir.




Ölkəmizin qarşısında dünyanın unikal və uğurlu inkişaf modellərinin tətbiqi kimi yeni vəzifə və tapşırıqlar durur. İlham Əliyevin ötən il prezident seçkilərində qazandığı qətiyyətli qələbədən sonra Milli Məclisdə andiçmə mərasimində çıxışı zamanı müəyyən etdiyi yeni prioritetlər sırasında Xarici İşlər Nazirliyinin önündə qoyulan mühüm vəzifələr də yer almışdır. Azərbaycan diplomatları qarşısında qoyulmuş ciddi tapşırıqlardan irəli gələn məsələlərin həlli bu gün xarici siyasətimizin ana xəttini müəyyən edir.

Dünyada hökm sürən böhran və münaqişələrin, soyuq müharibə dövrü üçün xarakterik geosiyasi çəkişmələrin gərginləşməsi, terrorizmin yeni forma və təzahürlərinin meydana çıxması, habelə asimmetrik hədə və təhdidlərin, yüksək texnologiyaların inkişafı fonunda dövlətimizin başçısı tərəfindən xarici siyasət sahəsində müəyyən olunan strateji hədəflər dövrün tələblərini özündə əks etdirir, uzunmüddətli perspektivdə ölkəmizin davamlı inkişaf və təhlükəsizliyinin təmin edilməsini məqsəd kimi müəyyənləşdirir.

Bu gün etibarlı tərəfdaş olan və xarici siyasi münasibətlərə beynəlxalq hüququn prinsipləri əsasında yanaşan Azərbaycan ikitərəfli əməkdaşlığın fəlsəfəsinə, siyasi və hüquqi normalara uyğun olaraq hər bir dövlət ilə əlaqələrini üçüncü tərəfə qarşı istifadə etməkdən tamamilə uzaq, xoşməramlı və tarazlı siyasətinə görə dünya dövlətlərinin etimad və rəğbətini qazanmışdır.

Azərbaycan həmçinin nizamnamə əsaslı beynəlxalq siyasi-iqtisadi təsisatların rolunun gücləndirilməsi və effektivliyinin artırılması, BMT TŞ və Baş Assambleyasının islahatı və mandatı əsasında sülhməramlı əməliyyatlarda iştirak edir. Ölkəmiz qlobal səviyyədə sivilizasiyalar və mədəniyyətlərarası dialoqun təşviq edilməsi, davamlı inkişaf məqsədlərinin icrasına töhfə verilməsi, qabaqcıl təcrübə mübadiləsi və humanitar yardımlar vasitəsilə beynəlxalq sistemin möhkəmlənməsinə öz dəstəyini verir.

Heç də təsadüfi deyildir ki, dövlətimizin başçısı tərəfindən Azərbaycanın dünya ölkələri ilə ikitərəfli əlaqələrinin inkişaf etdirilməsi xarici siyasətimiz qarşısında prioritet vəzifə kimi qoyulmuş-




dur. 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi, Qoşulmama Hərəkatında 2019-2022-ci illər üzrə sədrliyinin əlavə bir il də uzadılması, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəsinə (AQEM) 2024-2026-cı illər üzrə sədrliyi və bir sıra digər nailiyyətlər Azərbaycanın dünya ölkələri ilə uğurlu ikitərəfli əlaqələrə malik olmasının göstəricisidir.

İkitərəfli əlaqələrin inkişaf etdirilməsində qonşu dövlətlərlə qarşılıqlı maraqlar və hörmət əsasında qurulan əməkdaşlıq prinsipləri prioritet istiqamətlərdən biridir. Həmin dövlətlərlə ikitərəfli münasibətlərimiz regional əməkdaşlıq mexanizmi olaraq üçtərəfli formatlarda da davam etdirilir. Bu gün Azərbaycanın Mərkəzi Asiya regionunun əksər ölkələri ilə əlaqələri məzmunca daha da zənginləşərək strateji tərəfdaşlıq və ya müttəfiqlik səviyyəsinə yüksəlib. Bununla yanaşı, ölkəmizin Mərkəzi Asiyanın digər regionlarla (Körfəz Əməkdaşlıq Şurası, Ərəb Dövlətləri Liqası və s.) əməkdaşlıq platformalarında iştirakı əhəmiyyətlidir.

İkitərəfli əlaqələrin inkişaf etdirilməsi məqsədilə diplomatik təmsilçiliyimizin coğrafiyasının genişlənməsi əhəmiyyətli addımlardandır. Hazırda Azərbaycan Respublikasının xaricdə diplomatik missiyalarının ümumi sayının 92-yə çatması ölkəmizin ikitərəfli əlaqələrə verdiyi önəmin göstəricisidir. 13 illik fasilədən sonra cari ilin fevral ayında Suriyada səfirliyimizin işinin bərpası mühüm əhəmiyyət kəsb edir.

Çoxtərəfli diplomatiyamızın tərkib hissəsi kimi Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatı (D-8) və digər bu kimi universal və regional beynəlxalq təşkilatların üzvü olaraq fəal iş aparır. Bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır. Çevik çoxtərəfli diplomatik fəaliyyətimizin, eləcə də Azərbaycanın təşəbbüskarlığı və ev sahibliyi ilə keçirilən çoxsaylı mötəbər beynəlxalq tədbirlərin nəticəsidir ki, Bakı artıq regionun "diplomatik paytaxtı"na çevrilib.

Sülh və təhlükəsizlik iqtisadi inkişafla sıx bağlıdır. Bu, regional məsələlərin həllində sülh və tərəq-




qinin təşviqi baxımından strateji əhəmiyyət kəsb edir. İkitərəfli və çoxtərəfli əsasda xarici siyasətimizin coğrafiyasının genişləndirilməsini şərtləndirən vacib amillərdən biri də ölkəmizin iqtisadi imkanlarının artmasıdır. Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. O, artıq investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmişdir. Respublikamızın ilbəil artan iqtisadi qüdrəti bizə imkan verəcəkdir ki, regionlararası inkişaf üçün gələcəkdə də fəaliyyətimizi daha intensiv şəkildə quraq. Ölkəmizdə aparılan köklü iqtisadi islahatlar və qeyri-neft sektorunun inkişafı fonunda iqtisadi diplomatiya konsepsiyamız daha böyük aktuallıq kəsb etməkdədir. Azərbaycanın ixrac coğrafiyasının genişləndirilməsi, ölkəmizin qeyri-neft sektorunun şaxələndirilməsi, müasir texnologiyaların iqtisadiyyatda tətbiqi, sərmayə əməkdaşlığının təşviqi, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinə xarici şirkətlərin cəlb olunması, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində xarici tərəfdaşlarla münasibətlərin gücləndirilməsi məqsədilə ikitərəfli formatda tədbirlər iqtisadi diplomatiyamızın əsas tərkib hissələridir və bu istiqamətdə işlərin daha da genişləndirilməsi nəzərdə tutulur.

Bakı şəhərində uğurla təşkil olunmuş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın beynəlxalq səviyyədə liderliyinin nümayişi baxımından önəmli idi. Ölkəmiz üçün ətraf mühitin mühafizəsi sahəsində uğuru sayılan COP29-da 196 ölkə və 200-ə yaxın beynəlxalq, regional və digər təşkilatların nümayəndələri təmsil olundu. COP29 çərçivəsində 12-13 noyabr tarixlərində təşkil edilmiş Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində 80-dən çox dövlət və hökumət başçısı iştirak etdi. Gərgin geosiyasi mühitə, iqlim dəyişmələrinə skeptik yanaşan siyasi qüvvələrin bir çox ölkələrdə artan təsir imkanlarına, inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı kəskin ziddiyyətlərə baxmayaraq, COP29 zamanı əldə olunmuş konkret nəticələrin və qəbul edilmiş qərarların əhəmiyyəti baxımından o, ən uğurlu konfranslardan biri kimi qiymətləndirilir.

Yürütdüyü çoxşaxəli siyasət nəticəsində Azərbaycan bu gün kəsişmə nöqtəsində yerləşdiyi Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi hövzələri, Mərkəzi Asiya, Yaxın Şərq və Avropa regionlarının siyasi-iqtisadi proseslərində, onları birləşdirən enerji və nəqliyyat layihələrində yaxından iştirak edir, eyni zamanda, bir çox hallarda bu kimi layihələrin təşəbbüskarı olur. Regional və beynəlxalq tərəfdaşlar

ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın təşəbbüskar kimi həyata keçirdiyi enerji və nəqliyyat layihələri regional əməkdaşlığı daha da genişləndirib. Respublikamız Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat Dəhlizinin həyata keçirilməsində strateji mövqeyə və rola malikdir. Ölkəmizin yaxından iştirakı ilə müvəffəqiyyətlə tamamlanan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz infrastruktur layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi və reallaşacaq "Yaşıl enerji" dəhlizləri, şübhəsiz ki, regionda iqtisadi-sosial inkişafa, ən əsası isə qarşılıqlı inam və səmərəlilik üzərində qurulan uzunmüddətli əməkdaşlığa töhfə verir. Ümumilikdə, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması əhəmiyyətli layihələr sırasındadır. 2022-ci ilin dekabrında "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması Azərbaycanın nəhəng bərpaolunan enerji resurslarını Gürcüstan və Rumıniya vasitəsilə Avropa enerji şəbəkəsi ilə birləşdirəcək Qara dəniz enerji sualtı kabeli layihəsinin gerçəkləşməsi üçün əhəmiyyətli addımlardan biridir. 2024-cü il noyabrın 13-də Bakı şəhərində Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası prezidentləri arasında "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması isə "yaşıl enerji" ixracı istiqamətinə əhəmiyyətli marağın göstəricisidir.

Azərbaycanın artan siyasi-iqtisadi qüdrəti və nüfuzu ilə yanaşı, malik olduğu başqa bir önəmli strateji resursu da "yumşaq güc" adı ilə qəbul olunan zəngin mədəni irsi, əsrlərdən bəri özünə kök salmış və Azərbaycan xalqının həyat tərzinə çevrilmiş milli, dini dəyərləridir. Başqa sözlə desək, multikulturalizm və tolerantlığın nəinki mümkünlüyünü, hətta inkişafını sübut etmiş ölkəmiz bu xüsusda dünya üçün bir örnəkdir. Ona görə də Bakı bu gün sivilizasiyalararası dialoq və multikulturalizm mövzusunda aparılan qlobal müzakirələrin mərkəzinə çevrilib. Ksenofobiya, ifrat millətçilik, irqi ayrı-seçkilik, islamofobiya, antisemitizm meyillərinin gücləndiyi müasir dünyada bu tendensiyalarla mübarizə və ölkəmizin model rolunun gücləndirilməsi daha böyük əhəmiyyət kəsb edir. 13-15 mart tarixlərində ölkəmizdə keçiriləcək XII Qlobal Bakı Forumunun dəyişən dünya düzənində mövcud çətinliklərin imkanlara çevrilməsi istiqamətində əhəmiyyətli tədbirlərdən biri olacağını gözləyirik.

> "Tərəfdaşlar bilirlər ki, bizim sözümüzün imzamız qədər qüvvəsi, dəyəri var. Ona görə hesab edirəm ki, xarici siyasətlə bağlı aparılan işlər təqdirəlayiqdir. Xarici siyasət daxili siyasətin məntiqi davamıdır. Ümid edirəm ki, bundan sonra da biz bu istiqamətdə uğurlar yolu ilə gedəcəyik".
>
> **İlham Əliyev**

Xalqımızın ehtiyacı olanlara yardım etmək kimi nəcib bir xüsusiyyətindən və ənənəsindən çıxış edərək dünyanın bir sıra regionlarında Azərbaycan tərəfindən həyata keçirilən humanitar layihələr və göstərilən yardımlar beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən böyük rəğbətlə qarşılanır. Humanitar diplomatiya siyasətimizin sistemli şəkildə idarə edilməsi, qlobal səviyyədə aclıq və yoxsulluğa qarşı mübarizə aparılması, münaqişələrdən, təbii və texnogen fəlakətlərdən əziyyət çəkən dövlətlərə yardım göstərilməsi əsas istiqamətlərdəndir.

Dövlətimizin uğurlu xarici siyasət kursunun həyata keçirilməsinin vacib istiqamətlərindən biri də xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının müdafiəsi və onlara göstərilən konsul xidmətinin səmərəliliyinin və intensivliyinin artırılması, ümumilikdə isə bu istiqamətdə xarici dövlətlərlə diplomatik və konsulluq əlaqələrinin inkişafına təkan verilməsinə yönələn fəaliyyətdir. Məhz bu səbəbdən xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi, qarşılaşdıqları çətinliklərin həlli və bu məqsədlə xarici dövlətlərlə konsulluq sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində əsaslı tədbirlər görülmüşdür.

Azərbaycan regionda sülh və təhlükəsizliyin dayanıqlı olması üçün ciddi addımlar atır. Görülən işlər regionun inkişafına və dünya birliyinə inteqrasiyasına öz töhfəsini verir. 30 illik işğal dövründə olduğu kimi, 44 günlük Vətən müharibəsində və antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra da Azərbaycana qarşı Ermənistan və onun havadarları tərəfindən aparılan qarayaxma kampaniyasının qarşısının alınması, suverenliyimizə və ərazi bütövlüyümüzə qarşı təhdidlərin neytrallaşdırılması istiqamətində addımların beynəlxalq ictimaiyyətə izah edilməsi və bu addımları sual altına almaq, məhdudlaşdırmaq cəhdlərinin qarşısının alınmasına yönəlmiş ardıcıl, sistemli və qətiyyətli xarici siyasət fəaliyyəti davam etməlidir.

Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə ikitərəfli danışıqlar çərçivəsində əldə edilmiş irəliləyişə baxmayaraq, Ermənistanın Konstitusiyasında və digər



normativ hüquqi aktlarda ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən müddəaların dəyişdirilməsi istiqamətində Ermənistan tərəfinin siyasi iradə nümayiş etdirməməsi fonunda bu ölkədə davam edən revanşizm tendensiyası, xarici qüvvələrin birbaşa dəstəyi ilə Ermənistanın sürətlə silahlanması normallaşma prosesinin yekunlaşdırılması üçün ən ciddi maneə olaraq qalmaqda davam edir. Qeyd olunan təhdidlərin daim diqqət mərkəzində saxlanılması diplomatiyamızın əsas hədəflərindən biridir.

Bunlarla yanaşı, Ermənistanın 30 ilə yaxın davam edən təcavüzü nəticəsində yaranmış itkin düşmüş şəxslər probleminin həlli istiqamətində beynəlxalq səylərin genişləndirilməsi, genişmiqyaslı humanitar minatəmizləmə əməliyyatları üçün dəstəyin cəlb edilməsi, habelə Ermənistandan qovulmuş 300 minə yaxın azərbaycanlının hüquqlarının bərpa olunması məsələsinin diqqət mərkəzində saxlanılması səyləri olduqca əhəmiyyətli istiqamətlərdəndir.

Dövlət başçısı tərəfindən xarici siyasətimiz qarşısında milli maraqlara uyğun olaraq qoyulan strateji tapşırıqlar müstəqilliyimizin və suverenliyimizin möhkəmləndirilməsi, təhlükəsizliyimizin təminatı, Azərbaycan xalqının rifahının daha da yaxşılaşdırılması, regionda sülhün və təhlükəsizliyin təmin olunması, iqtisadi inkişaf, ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun və çəkisinin daha da artırılmasına xidmət edən vahid dövlət siyasətinin tərkib hissələridir. Qazanılmış nailiyyətlər və gələcək planlar vahid strategiya çərçivəsində ölkə rəhbərliyi tərəfindən müəyyən edilən prioritet vəzifələrə uyğun şəkildə Azərbaycan Respublikası tərəfindən həyata keçirilən müstəqil xarici siyasətin səmərəliliyini, təsir qüvvəsinin genişliyini və tarazlılığını bir daha təsdiq edir.

Bu gün dövlət başçısı İlham Əliyevin yürütdüyü mahir xarici siyasət nəticəsində beynəlxalq münasibətlərin tamhüquqlu subyekti kimi ölkəmizin beynəlxalq səviyyədə mövqeyi möhkəmlənir, nüfuzu artır, qlobal və regional proseslərə müsbət təsir imkanları güclənir, milli maraqlarımız qorunur və həyata keçirilir. Azərbaycan bu gün, sözün əsl mənasında, öz milli maraqları əsasında müstəqil xarici siyasət yürüdən ölkədir.

Əminliklə deyə bilərik ki, qarşıdan gələn illərdə də dövlət başçısının rəhbərliyi altında gündəlikdə duran prioritetlərimizin həyata keçirilməsi üçün prinsipial, fəal və proaktiv xarici siyasət kursu davam edəcəkdir. Çünki Azərbaycanın müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və gələcək nəsillərə ərməğan edilməsi qarşımızda duran əsas vəzifədir.



# Azərbaycan və Gürcüstan bütün sahələrdə əməkdaşlığı uğurla davam etdirir



**Arzu Nağıyev**
Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri

Artıq 30 ildən çoxdur ki, Azərbaycan ilə Gürcüstan arasında sağlam diplomatik əlaqələr mövcuddur. 1992-ci il noyabrın 18-də rəsmiləşərək təməli Ulu Öndər Heydər Əliyev zamanında atılan, qarşılıqlı hörmət və etimada əsaslanan bu münasibətlər ötən illər ərzində dinamik inkişaf edib, siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb. Hər iki xalq öz müstəqilliklərini əldə etdikdən sonra mövcud əlaqələr Heydər Əliyev və Eduard Şevardnadze dostluğu timsalında daha da möhkəmləndi.

Ümummilli Lider Heydər Əliyev münasibətlərimizi belə xarakterizə etmişdi: "Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək". Ali və yüksək səviyyədə həyata keçirilən çoxsaylı qarşılıqlı səfərlərin bu münasibətlərin möhkəmlənməsində xüsusi rolu var.

Ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyan sənəd 1996-cı il martın 8-də imzalanan "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə"dir. 1995-ci ildə Gürcüstanın Azərbaycanda, bir il sonra isə Azərbaycanın qonşu ölkədə səfirliyi fəaliyyətə başladı. 2009-cu



ildə Gürcüstanın Batumi şəhərində Azərbaycanın baş konsulluğu, 2013-cü ildən etibarən isə Gəncə şəhərində Gürcüstanın baş konsulluğu açıldı.

Qonşu və dost ölkə ilə strateji tərəfdaşlığımız bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.  Əlbəttə, eyni regionda yerləşən iki dövlət olaraq bizi birləşdirən çoxsaylı dəyərlər var. Azərbaycan ilə Gürcüstan arasında iqtisadi, siyasi, hərbi, mədəni əlaqələr, təhlükəsizlik məsələləri, qonşuluq münasibətləri  kimi bir çox sahələrdə, parlamentlərarası və hökumətlərarası səviyyədə uğurlu əməkdaşlıq davam edir. Təbii ki, hər iki dövlətdə yaşayan icmalarımız da münasibətlərin qurulmasıda mühüm rol oynayırlar.

Bizi birləşdirən mühüm amillərdən biri isə Gürcüstanda yaşayan soydaşlarımızdır. Onların kompakt yaşadığı bölgələrin problemləri hər zaman qarşılıqlı müzakirə mövzusu olub. Problemlərin həlli üçün mühüm addımlar atılır və əminəm ki, bu, belə də davam edəcək. Aparılan son siyahıyaalmaya əsasən bu ölkədə tarixən yığcam halda yaşayan azərbaycanlı əhalinin sayı 233 min nəfər təşkil edir. Soydaşlarımız əsasən Kvemo-Kartli bölgəsinin Marneuli, Qardabani, Bolnisi, Dmanisi, Tsalka və Tetristkaro rayonlarında, Rustavi şəhərində, Kaxeti, Şida-Kartli, Mtsxeta-Mitianeti bölgələrində, Acarıstan Muxtar Respublikasında, eləcə də paytaxt Tbilisi şəhərində məskunlaşıblar.

> “Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər”.
>
> **İlham Əliyev**

İki ölkə arasında humanitar sahədə əməkdaşlığı xüsusi vurğulamaq lazımdır. Bu cəhətdən Heydər Əliyev Fondu tərəfindən Gürcüstanda həyata keçirilən çoxsaylı layihələri qeyd etmək yerinə düşər.

Gürcüstanda ard-arda baş tutan parlament və prezident seçkilərində Azərbaycan daim öz dostunun yanında oldu, lazımi dəstəyini əsirgəmədi. Cənab Prezident seçkilərlə bağlı bildirdi ki, gürcü xalqı keçirilən seçkidə öz gələcəyini, milli dəyərlərinə hörməti, irsini, təhlükəsizliyini seçdi. Seçkilərdən dərhal sonra rəsmi Tbilisinin yüksək rütbəli şəxslərinin ölkəmizə ardıcıl səfərləri baş tutdu ki, bu da dövlətlərarası münasibətlərin mühüm göstəricisidir.





üzərindən 10-dan çox ölkəyə təbii qaz ixrac edilib. Bütün bunlar eyni regionda yerləşən iki dövlət arasında əlaqələrin nə qədər önəmli olduğunu, bölgədə sülhə və sabitliyə xidmət etdiyini göstərir.

Ölkələrimiz arasında parlamentlər səviyyəsində də fəal əməkdaşlıq əlaqələri mövcuddur. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq və işçi qrupları var. İki ölkənin parlament nümayəndələri arasında tez-tez qarşılıqlı görüşlər baş tutur. 2024-cü ildə Gürcüstanda ilk dəfə proporsional seçki sistemi üzrə parlamentə seçkilər keçirildi və Azərbaycan nümayəndə heyətinin üzvləri beynəlxalq müşahidəçi qismində bu səsvermənin gedişini izlədilər. Yeni seçilən Gürcüstan parlamenti ilə Azərbaycan parlamentinin dostluq qrupları səviyyəsində əməkdaşlıq bundan sonra da layiqincə davam etdiriləcəkdir.

Azərbaycan və Gürcüstan beynəlxalq qurumlarda daim bir-birini dəstəkləyir. Buna misal olaraq demək istəyirəm ki, Avropa Şurası Parlament Assambleyasının Azərbaycana dair verdiyi ədalətsiz qərarın qəbulu zamanı Gürcüstan par-

Məlum olduğu kimi, Azərbaycan Gürcüstan üçün çox mühüm strateji əhəmiyyətli qonşu dövlətdir. Biz birlikdə güclüyük və öz milli maraqlarımızı müdafiə etməyə qadirik. Gürcüstanın Baş naziri İrakli Kobaxidze rəsmi səfərində Azərbaycan Prezidentinin Cənubi Qafqazda, o cümlədən beynəlxalq arenada lider kimi qəbul olunduğunu vurğulayıb.

Azərbaycanın qonşu ölkələrlə bağlı siyasətində, öz enerji resurslarının Avropa bazarlarına çatdırılmasında, eyni zamanda, Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstan mühüm tranzit rol oynayır. Ölkəmizə məxsus böyük şirkətlər Gürcüstanda çox ciddi layihələr həyata keçirirlər. Gürcüstan Azərbaycan üçün hər zaman doğru iqtisadi tərəfdaş olub. Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi kimi enerji layihələri, Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu məhz Gürcüstan ərazisindən keçir. Eyni zamanda, 2023-cü ildə Azərbaycan vasitəsilə Gürcüstan

lamentinin üzvlərinin bizə böyük dəstək göstərməsinin şahidi olduq.

Milli Məclisin sədri Sahibə Qafarova ötən il dekabrın 24-də ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin Gənclər, elm və təhsil məsələləri komitəsinin sədri Givi Mikanadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə ölkələrimizin həmişə dostluq şəraitində yaşadıqlarından, bizi birləşdirən ortaq dəyərlərin olmasından və bu dəyərləri qoruyub saxlamağın əhəmiyyətindən söhbət açdı.



Bu günlərdə Milli Məclisin Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri komitə sədrləri səviyyəsində Gürcüstanın Tbilisi şəhərində səfərdə oldular. Səfər çərçivəsində Gürcüstan parlamentinin spikeri, parlament komitələrinin sədrləri, dostluq qrupunun üzvləri və bu ölkənin xarici işlər nazirinin birinci müavini ilə görüşlər keçirildi. Gələcəkdə parlamentlərarası münasibətlərin perspektivləri, komitələr səviyyəsində münasibətlərin inkişafı, görüləcək işlər geniş müzakirə olundu.

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüş zamanı o, Azərbaycanın bütün dövrlərdə Gürcüstanın yanında olduğunu, ərazi bütövlüyü və dövlətin suverenliyinin qorunması məsələsində dost ölkənin göstərdiyi dəstəyi daha yaxşı hiss etdiklərini və bəzi dövlətlərin Gürcüstana bunu sözdə ifadə etdiyi halda, Azərbaycanın əməldə göstərdiyini söylədi və buna görə dost Azərbaycan xalqına, Prezidentinə və parlamentinə minnətdarlığını ifadə etdi.

Gürcüstanda keçirilən bütün görüşlərdə qeyd olundu ki, parlamentlərarası münasibətlərin inkişafı, millət vəkillərinin intensiv qarşılıqlı səfərləri və beynəlxalq qurumlar çərçivəsində əlaqələrin genişləndirilməsi çox önəmlidir. Bu əlaqələrimizin yüksək səviyyədə saxlanılması məsələsində hər iki ölkədə fəaliyyət göstərən səfirliklərin danılmaz xidməti vurğulandı. Mövcud əməkdaşlığın inkişaf dinamikasının Azərbaycan-Gürcüstan münasibətlərinin gələcəkdə daha da güclənəcəyinə əsas verdiyi diqqətə çatdırıldı.





# Böyük Britaniya və Azərbaycan arasında inkişaf edən strateji əməkdaşlıq



**Fariz İsmayılzadə**
Milli Məclisin deputatı,
Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri

Böyük Britaniya Azərbaycanın müstəqilliyini tanıyan ilk Qərb ölkələrindən biri olmuş və bununla da iki ölkə arasında strateji tərəfdaşlığın təməli qoyulmuşdur. Bu illər ərzində enerji sektoru başda olmaqla, siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq sürətlə inkişaf etmişdir. Xüsusilə bu ölkənin BP kimi bir neçə nüfuzlu şirkəti "Əsrin müqaviləsi" və "Şahdəniz" layihələrində önəmli rol oynamış, bu əlaqələrə güclü iqtisadi təkan vermişdir.

Prezident İlham Əliyevin Böyük Britaniyaya etdiyi rəsmi və işgüzar səfərlər ikitərəfli münasibətlərin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə 2018-ci ildə SOCAR və BP arasında imzalanan yeni hasilatın pay bölgüsü haqqında saziş və digər yüksək səviyyəli görüşlər iki ölkə arasında enerji sahəsində strateji əməkdaşlığın perspektivlərini təmin etmişdir. Cənab Prezident İlham Əliyevin iştirakı ilə baş tutan bu görüşlər Azərbaycanın beynəlxalq enerji bazarındakı mövqeyini gücləndirmişdir.

Prezident İlham Əliyevin 2024-cü ilin iyul ayında Böyük Britaniyaya digər bir işgüzar səfəri çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər də Azərbaycan və Böyük Britaniya arasında siyasi, iqtisadi, enerji sahələrində yeni əməkdaşlıq imkanlarını gündəmə gətirmişdir.

Parlamentlərarası münasibətlər də iki ölkə arasında əlaqələrin dərinləşməsində mühüm rol oynayır. Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə



işçi qrupu və Böyük Britaniya parlamentindəki Azərbaycan üzrə Bütün Partiyaların Parlament Qrupu (APPG) bu əməkdaşlığı uğurla davam etdirir. Milli Məclisin sədri Sahibə xanım Qafarovanın 2022-2023-cü illərdə Böyük Britaniyaya rəsmi səfərləri çərçivəsində Lordlar və İcmalar Palatasının spikerləri, APPG üzvləri və digər yüksək səviyyəli rəsmilər ilə görüşləri bu əlaqələri daha da gücləndirmişdir.

2024-cü ilin noyabrında Böyük Britaniyanın Baş naziri Keir Starmerin COP29 çərçivəsində Azərbaycana səfəri iki ölkə arasında strateji əməkdaşlıq üçün xüsusi önəm daşıyırdı. Bu səfər təkcə qlobal iqlim təşəbbüsləri baxımından deyil, həm də Azərbaycanın Böyük Britaniya üçün mühüm tərəfdaş olduğunu göstərdi. Baş nazirin iştirakı ilə keçirilən görüşlər enerji, ticarət və təhlükəsizlik sahələrində əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirdi və ikitərəfli əlaqələri daha da möhkəmləndirdi.

Bu il yanvarın 17-21-də Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olaraq bir qrup həmkarımla birlikdə Londona işgüzar səfər etdik. Səfər zamanı iki ölkə arasında siyasi, iqtisadi, mədəni və akademik əlaqələrin gücləndirilməsi məqsədilə bir sıra mühüm görüş və tədbirlər keçirildi. Bu ölkənin parlament üzvləri ilə olan görüşlərdə parlamentlərarası əlaqələrin inkişafı, iqtisadi əməkdaşlıq və ikitərəfli layihələrin perspektivləri müzakirə edildi.

> "Azərbaycan ilə Birləşmiş Krallıq arasında ənənəvi dostluq və çoxşaxəli əməkdaşlıq münasibətləri bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Enerji sektorunda uzunmüddətli və səmərəli birgə fəaliyyətimiz qlobal enerji təhlükəsizliyinin təminatına mühüm töhfə verir. Eyni zamanda, bərpaolunan enerji mənbələri, yaşıl enerjiyə keçid və dekarbonizasiya məsələləri bu gün Azərbaycan-Birləşmiş Krallıq ikitərəfli tərəfdaşlıq gündəliyində aparıcı yer tutur".
>
> **İlham Əliyev**

Lordlar Palatasının üzvləri Baroness Helene Harmon, Baroness Alison Suitti və Lord David Evans ilə aparılan söhbət zamanı siyasi əməkdaşlığın genişləndirilməsi və beynəlxalq platformalarda qarşılıqlı dəstək məsələləri ətrafında fikir mübadiləsi aparıldı. İcmalar Palatasının üzvləri Bob Blackman, Martin Vickers, Nesil Calıskan, Afzal Khan və Barry Gardıner ilə keçirilən görüşlərdə isə ticarət əlaqələrinin möhkəmləndirilməsi, enerji təhlükəsizliyində əməkdaşlıq və mədəni əlaqələrin inkişafı kimi məsələlər müzakirə olundu, döv-





lətlərarası münasibətlərin strateji əhəmiyyəti və əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulandı.

Böyük Britaniya parlamentində təşkil edilən "COP29 və İqlim Dəyişikliklərinə dair Təşəbbüslər: Qeyri-müəyyənlik ilində fikirlər" mövzusunda panel müzakirələrdə mən də çıxış edərək Azərbaycanın COP29 çərçivəsində əldə etdiyi uğurlar və iqlim dəyişikliyi ilə mübarizə sahəsində beynəlxalq səylərə verdiyi töhfələr haqqında söhbət açdım. Ölkəmizin qlobal iqlim təşəbbüslərindəki fəal rolu və milli səviyyədə həyata keçirilən dayanıqlı inkişaf tədbirləri müzakirələrin əsas mövzularından oldu.

Həmçinin səfər çərçivəsində Londonda yerləşən bir sıra nüfuzlu beyin mərkəzlərinin nümayəndələri ilə də görüşlər keçirdik. Chatham House, Royal United Services Institute (RUSI), Foreign Policy Centre və International Institute for



Strategic Studies (IISS) ilə keçirilən müzakirələrdə əsasən qlobal təhlükəsizlik, regional əməkdaşlıq və Azərbaycanın beynəlxalq çağırışlara verdiyi töhfələr qeyd olundu. Görüşlərdə regional sabitliyin təmin edilməsində ölkəmizin rolu və gələcəkdə mümkün əməkdaşlıq sahələri nəzərdən keçirildi. Bildirildi ki, Azərbaycanın beynəlxalq arenada artan rolu və Böyük Britaniya ilə əlaqələrin inkişafı gələcəkdə daha sıx əməkdaşlıq perspektivləri vəd edir.

Səfər zamanı Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım tədbirində də iştirak etdik. Mən faciənin tarixi və xalqımızın azadlıq uğrunda mübarizəsi ilə bağlı çıxış etdim, tədbir zamanı şəhidlərin xatirəsi ehtiramla yad olundu.

Təhsil sahəsində əməkdaşlıq imkanlarını dəyərləndirmək istiqamətində Warwick Universitetinin nümayəndələri ilə keçirilən görüşümüzdə Azərbaycan universitetləri ilə akademik və tədqiqat sahəsində əməkdaşlıq perspektivlərini müzakirə etdik. Bu görüş zamanı qarşılıqlı elmi tədqiqat və tələbə mübadiləsi imkanlarının artırılması ilə bağlı təkliflər səsləndirildi. Bundan əlavə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində Londonda təhsil alan azərbaycanlı tələbələrlə keçirilən görüşdə onların akademik təcrübələri dinlənildi, tələbələrin ölkəmizin xaricdə təmsilçiliyindəki rolunun vacibliyi vurğulandı.



Səfər çərçivəsində Böyük Britaniyanın Azərbaycandakı keçmiş səfiri Ceyms Şarp ilə də görüşərək iki ölkə arasında diplomatik münasibətlərin inkişafı və mədəni mübadilə sahələrində əməkdaşlıq perspektivlərindən söhbət açdıq. Londondakı Azərbaycan Mədəniyyət Evinin rəhbəri, tanınmış skripkaçı Səbinə Rəhçəyeva ilə olan görüş zamanı milli mədəniyyətimizin bu ölkədəki təbliği, mədəni əlaqələrin inkişafı, diaspor fəaliyyətlərinin gücləndirilməsi məsələlərindən danışıldı.



# Qərbi Azərbaycana mənəvi qayıdış



**Günay Əfəndiyeva**
Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini

Tarixi Azərbaycan xanlıqlarından biri olan İrəvan xanlığı Türkmənçay müqaviləsi nəticəsində Rusiya imperiyasının tərkibinə daxil edilmiş və ermənilərin oraya köçürülməsi prosesinə başlanılmışdır. Bununla da Cənubi Qafqazda tarixi hadisələrin gedişində yeni bir mərhələyə start verilmişdir.

XIX əsrin sonlarında milli ideologiyaya çevrilmiş qatı erməni irqçiliyi bütün ətraf coğrafiyada yaşayan xalqlara, o cümlədən erməni xalqının özünə də ciddi problemlər yaratmışdı. Osmanlı imperiyasının ərazilərində yaradılmış "Qınçaq", "Daşnaksütyun" tipli irqçi partiya və hərəkatlar böyük imperiyaların maddi-mənəvi dəstəyini alaraq sadə erməni əhalisinin beynini zəhərləmiş və bir çox hallarda buna nail olmuşdur. Yüz illərlə Osmanlı imperiyasında sülh və rifah içərisində yaşamış, yüksək rütbələr, mənsəblər qazanmış erməni əhalisi az qala kütləvi şəkildə dövlətə xəyanət etmişdir. Biz indi də yüz ildən artıq zaman keçməsinə baxmayaraq, milli-mənəvi məhdudiyyətdən doğan bu irqçiliyin nə dərəcədə yayıldığının canlı şahidiyik. Təsadüfi deyil ki, erməni irqçiliyini faşizmə gətirib çıxaran siyasi liderlər və yaxud xaricdəki erməni lobbisi bu ideologiyadan ilk növbədə öz şəxsi mənafeləri və siyasi maraqları üçün istifadə edirlər.

XX əsrdə Qərbi Azərbaycanda yaşayan soydaşlarımız etnik mənsubiyyətlərinə görə erməni vəhşilikləri nəticəsində mərhələli şəkildə depor-

tasiyaya məruz qalaraq düz dörd dəfə öz yurd-yuvalarından, dədə-baba ocaqlarından didərgin salınmışdır. Bu torpaqlardakı mədəni irsimizin əksər tarixi nümunələri də ermənilər tərəfindən qarət edilmiş, dağıdılmış, mənimsənilmiş, qədim toponimlərimiz yad və əcaib erməni adları ilə əvəz olunmuşdur. Azərbaycanlıların bu torpaqların əzəli sakinləri olduğunu sübut edən izləri yox etmək, xalqımıza aid etnik nişanələri təmizləmək üçün məqsədyönlü şəkildə kütləvi vandallıq aktları törədilmişdir. Ermənistanda dövlət rəhbərliyi səviyyəsində 30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, son bir əsrdə Qərbi Azərbaycanda da mədəni irsimizin məhv edilməsi gerçəkləşdirilmişdir. Hətta Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan bir çox mətbuat orqanlarında və xəbər agentliklərində yayımlanmış müsahibəsində Qərbi azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini açıq şəkildə etiraf etmişdir. Bu, artıq Ermənistanın öz-özünü ifşa etməsinin, təcavüzkar siyasətinin təsdiqlənməsidir. Bu, yalnız Ermənistanın dövlət idarəetməsindəki keçmiş bir liderinin deyil, ümumilikdə erməni siyasətinin, onun ideologiyasının təzahürüdür. Həmin açıqlama erməni millətçiliyinin, onların qeyri-insani münasibətinin nə qədər dərinləşdiyini göstərir və həm regional, həm də qlobal miqyasda çox ciddi nəticələrə gətirib çıxarır.

Ermənistanın Azərbaycan ilə münasibətlərini normallaşdırmaq və qarşı tərəfin hansısa qlobal layihələrdə iştirak etmək istəyi erməni rəsmilərinin öz keçmişlərinə qarşı səmimi olmasından, həyata keçirdikləri etnik təmizləmə və cinayətləri rəsmən tanımasından asılıdır.

Bir daha tarixi faktlara söykənərək keçmişə nəzər salaq. Coğrafi mövqe, tarixi miqrasiya reallıqları, toponimika, qədim milli, dini abidələr və bir çox başqa göstəricilər Azərbaycanın bu yerlərə, onun tarixi və mədəni irsinə haqqını aşkar şəkildə təsdiq edir. Tarixi sübutlar göstərir ki, azərbaycanlılar o torpaqlardan dəfələrlə deportasiya olunmuş, amansızcasına, qəddarcasına etnik təmizləmə siyasətinə məruz qalmışdır. Qərbi Azərbaycan həqiqətlərinin yalnız daxili səviyyədə deyil, həm də dünya miqyasında işıqlandırılması zəruridir. Tarixi materialların bir çox dünya dillərinə tərcümə olunması, kitabların hazırlanıb nəşr edilməsi, nüfuzlu elmi institutlarla, universitetlərlə, beynəlxalq beyin mərkəzləri ilə birgə müxtəlif tədbir, konfrans və simpoziumların təşkili mövzuya beynəlxalq ictimaiyyətin diqqətinin cəlb olunmasında mühüm rol oynayır. Eyni zamanda, bu proses siyasətçilərlə, siyasi ekspertlərlə və beynəlxalq hüquqşünaslarla geniş şəkildə müzakirələrin aparılmasını tələb edir.

Ötən il dekabrın 5-də Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransı keçirildi. Konfransa 51 ölkədən 100-dən çox nümayəndə qatıldı. Dünyanın müxtəlif ölkələrindən gələn mütəxəssislər, siyasət və elm adamları Qərbi Azərbaycanın tarixindən, maddi və mənəvi irsindən danışdılar. Tədbirdə babalarımızın yadigarları - İrəvan xanı Sərdar xanın nəslinin nümayəndələri də iştirak etdilər. Bu, bir daha tarixi gerçəkliyi beynəlxalq səviyyədə ortaya qoydu.

Digər tərəfdən, insanların yaşadığı zülm, qaçqınlıq və didərginlik həyatının real şəraitdə təqdim edilməsi mə-



İrəvan qalası

sələnin insan hüquqları baxımından önəmli tərəflərini vurğulamaq üçün vacibdir. Buna görə də hər birimiz Qərbi Azərbaycanın tarixi reallıqlarının geniş təbliği istiqamətində daha fəal və sistemli iş aparmalıyıq.

Cənab Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışındakı çıxışında qeyd etdiyi kimi, adətən, qədim şəhərlərin tarixi abidələri və mərkəzləri olur. Məsələn, Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, Qəbələdə və digər qədim şəhərlərdə bu cür abidələr mövcuddur. İrəvanda belə bir tarixi mərkəzin olmaması bu ərazilərin Azərbaycan xalqının tarixi mirası olmasını göstərir. Ermənilər bu mirası sistematik şəkildə məhv etmişlər. Şəhərsalma adı altında İrəvan qalası və Sərdar Xan sarayı kimi mühüm və unikal tarixi abidələrimiz dağıdılmış və məhv edilmişdir.

İrəvanda salamat qalan yeganə Azərbaycan abidəsi olan Göy məscid Ermənistanın rəsmiləri tərəfindən xaricdən gələn qonaqlara "İranın məscidi" kimi təqdim edilməkdədir. Hətta Ermənistan bu məscidin İranın tarixi abidəsi kimi UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinə çalışmışdır. 1799-cu ildə İrəvan xanı Hüseynəli xan Qacar tərəfindən tikdirilən və Azərbaycan memarlığının incilərindən olan Göy məscidlə bağlı tarixi saxtalaşdırmağa çalışırlar. Ancaq qoca tarix bu cür saxtakarlıqları az görməyib və həmişə də həqiqəti üzə çıxarıb.

Artıq Qərbi Azərbaycan torpaqlarına mənəvi qayıdışın təməli qoyulmuşdur. Prezidentin 30 noyabr 2021-ci il tarixli Sərəncamı əsasında Bakıda Azərbaycan aşıq sənətinin böyük nümayəndəsi Aşıq Ələsgərin abidəsi ucaldılmışdır. Dövlət başçısı 2024-cü il sentyabrın 30-da abidənin açılışındakı çıxışında əmin olduğunu bildirdi ki, gün gələcək biz Aşıq Ələsgərin erməni irqçiləri tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində belə bir mərasim keçirəcəyik.

2021-ci ildə Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunması ilə bağlı dövlət başçısının qərarı onun zəngin irsinin yaşadılmasına öz mühüm töhfəsini vermişdir. Eyni zamanda, bu, Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını şərəfli bir amal uğrunda birləşməyə dəvət edən hadisə idi.

Yeri düşmüşkən qeyd edim ki, həmin il biz Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda türk dünyasının görkəmli şəxsiyyətlərinin - Yunus Əmrənin, Jambul Jabayevin və Aşıq Ələsgərin yer aldığı "Üç ozan bir arada" poçt markasını çap etdirdik və o, dövriyyəyə buraxılaraq bütün türk dövlətlərinə göndərildi. Beləliklə, türk dünyasının böyük el sənətkarları bir araya gətirildi, Qərbi Azərbaycanın gözəl Göyçə mahalı Aşıq Ələsgərin timsalında daha geniş coğrafiyada tanıdıldı.

2022-ci il iyulun 14-də İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır. 1882-ci ildə İrəvanda yaradılan bu qocaman teatr keşməkeşli yol keçmiş və dəfələrlə erməni təcavüzkarlığına məruz qalaraq 1989-cu ildən Bakı şəhərində məskunlaşmış, repertuarını yeni-yeni əsərlərlə daha da zənginləşdirmişdir. Tarixdə bəlkə də misli görünməyən hadisələrdəndir ki, erməni irqçiliyi və vandalizmi nəticəsində İrəvan Dövlət Azərbaycan Dram Teatrı "qaçqın teatrı" oldu. Ancaq biz zəngin milli mədəniyyət tarixinə malik olan bu teatrı yaşatdıq. Teatr bu gün də yaşayır, həm Azərbaycanın, həm də dünya dramaturgiyasının nümunələrini uğurla tamaşaya qoyur. Bu tamaşalara yalnız irəvanlı həmvətənlərimiz deyil, bütün xalqımız baxır.

Cari il fevralın 14-də dövlət başçısı Azərbaycan dəzgah boyakarlığının banisi, görkəmli rəssam Mirzə Qədim İrəvaninin anadan olmasının 200 illiyinin qeyd edilməsi haqqında xüsusi sərəncam imzalamışdır. Böyük bədii-estetik irsə malik Mirzə Qədim İrəvaninin XIX əsrin ikinci yarısında İrəvan Xan sarayında aparılan restavrasiya işlərində önəmli rolu olmuşdur. O, sarayın Güzgülü zalındakı divar rəsmlərini, ornamental kompozisiyaları bərpa etmiş, orijinal "Fətəli şah", "İrəvan sərdarı", "Həsən xan", "Rüstəm Zal" portretlərini yaratmışdır. İrəvaninin əsərləri hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində, Ermitajda, Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır.

Böyük sənətkarın yubileyinin keçirilməsi ilə bağlı Prezidentin Sərəncamı Mirzə Qədim İrəvaninin, həmçinin Qərbi Azərbaycanın bədii, mənəvi irsinin yaşadılması baxımından mü-



Göy məscid

hüm əhəmiyyət kəsb edir. Dövlət səviyyəsində və səfirliklərimiz vasitəsilə M.Q.İrəvaniyə həsr olunmuş tədbirlərin təşkil edilməsi tariximizin və dəyərlərimizin təbliği, həmçinin beynəlxalq səviyyədə tanıdılması üçün ciddi imkan və şərait yaradacaqdır.

Qərbi Azərbaycanın mədəni irsi bizim milli kimliyimizin, çoxəsrlik yaddaşımızın, adət-ənənələrimizin, gələcək nəsillərə miras qoyacağımız dəyərlərimizin ayrılmaz parçasıdır. Biz bu torpaqlara qayıdışın qədim yurdumuzun milli-mədəni əsaslarının formalaşdırılmasına da çalışmalıyıq.

edir. Digər tərəfdən də, biz bu sahədə çalışan beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməliyik. Çünki burada söhbət maddi-mənəvi irsin dağıdılmasından, eləcə də kollektiv yaddaşın məhv olunmasından gedir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda fəaliyyət göstərdiyim zaman - 2022-2023-cü illərdə "Yıldız Sarayı Foto Kolleksiyasında XIX Əsr Türk Dünyasının Mədəni İrsi" adlı genişmiqyaslı layihə gerçəkləşdirdik. Osmanlı dövlətinin Yıldız kolleksiyası dünyanın ən zəngin foto arxivlərindən biridir. Layihə çərçivəsində Yıldız Sarayından türk dünyasının

tarixi faktların beynəlxalq aləmdə tanıdılması ilə bağlı Mirzə Qədim İrəvaninin yubileyi haqqında Prezident Sərəncamı bu tipli digər təcrübələrdən istifadə edərək mühüm layihələrin hazırlanması və həyata keçirilməsi üçün olduqca əlverişli şərait yaradır.

Ədalət, gec də olsa, daim öz yerini tapır. Yalan, böhtan bir müddət gizli qala bilər, amma sonradan həmişə üzə çıxır. Cənab Prezidentin dediyi kimi, ədalətə inanmaq və ona nail olmaq üçün çalışmaq lazımdır. Şübhə yoxdur ki, milli birlik və həmrəylik ruhu ilə Qərbi Azərbaycana mənəvi



Zərrab xan karvansarası



Sərdar sarayı (Xan sarayı)

İrəvanda Azərbaycanın tarixi-mədəni irs nümunələri, dini abidələri, o cümlədən Sərdar (Abbas Mirzə), Dəmirbulaq, Təpəbaşı, Rəcəb Paşa, Hacı Novruzəli bəy, Hacı Cəfər bəy, Xudabəndə və digər məscidlərimiz, İrəvan qalası, Sərdar Xan sarayı, Aşıq Ələsgərin Göyçə mahalının Ağkilsə kəndindəki qəbirüstü abidəsi ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Bu abidələrlə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması bizim üçün prioritet məsələyə çevrilməlidir. Məsələn, müasir texnologiyaların imkanlarından istifadə edərək virtual muzeylərin yaradılması, sənədli filmlərin çəkilməsi, müxtəlif dillərdə albomların nəşr olunması vacib əhəmiyyət kəsb

qədim şəhərlərinə - Səmərqənd, Buxara, Kokand, Xivə, Türküstan, İstanbul, Konya, Aşqabad, Bakı və o cümlədən İrəvana aid fotoşəkilləri bir kitabda toplayaraq beynəlxalq ictimaiyyətə təqdim etdik. 2023-cü ilin əvvəlində İstanbulda TBMM-in Milli Saraylar Müdirliyinin təşkilatçılığı ilə Dolmabaxça İncəsənət Qalereyasında həmin kitabda yer alan fotoşəkillərdən ibarət sərgi təşkil etdik. Daha sonra bu sərgini 2023-cü ilin noyabrında Türk Dövlətləri Təşkilatının 10-cu yubiley zirvəsi çərçivəsində Astanada türk dövlətlərinin xarici işlər nazirlərinin, beynəlxalq təşkilatların rəhbərlərinin və digər rəsmilərin iştirakı ilə keçirdik. İrsimizin üzə çıxarılması və təbliği, eyni zamanda,

qayıdış tarixi haqsızlıqların aradan qaldırılması, ədalətin bərqərar olması ilə nəticələnəcəkdir.

Şübhə yoxdur ki, bu gün yeni-yeni mövzularla repertuarını zənginləşdirən İrəvan Dövlət Azərbaycan Dram Teatrının tamaşaları İrəvanda nümayiş etdiriləcək. Biz Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş heykəllərini bərpa edib Qarabağa yenidən qaytardığımız kimi, Ağkilsədə böyük sənətkarımızın heykəlini də ucaldacağıq. Yenə də Qərbi azərbaycanlılar Novruz bayramında doğma yurdda - Göyçədə məclis quracaq, Aşıq Ələsgərin sehrli poeziyasını qürurla səsləndirəcək və o zaman həmin sazın səsi bütün Zəngəzura yayılacaq.



# Biz Xocalıya qalib Azərbaycan vətəndaşları kimi qayıtdıq



**Tənzilə Rüstəmxanlı**
Milli Məclisin deputatı

33 il öncə Azərbaycanda tarixin ən böyük insanlıq faciələrindən biri yaşandı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə göydən Xocalıya qar əvəzinə qan yağmışdı. Ərşə dirənən insan fəryadı küçələrdə ac qurd kimi ulayan çovğunun səsini batırmışdı. O müsibətli gecədə gözləri önündə balası süngüyə keçirilən analar havalanmışdı, ata-anasının vəhşicəsinə öldürüldüyünə şahidlik edən balaların bağrı çatlamışdı. Canlarını götürüb bu zülmdən qaçmaq istəyən xocalılılar şaxtanın qılınc kimi doğradığı qarlı havada ayaqyalın, başaçıq çöllərə, düzlərə, meşələrə üz tutmuşdular. Bu günahsız insanlara təbiət rəhm etsə belə, faşist xislətli erməni cəlladları aman verməmişdi. Dörd bir tərəfdən Xocalını mühasirəyə alıb bütün bəndi-bərəni kəsmişdilər ki, bir nəfər belə canını qurtara bilməsin - ya vəhşicəsinə öldürülsün, ya da əsir götürülərək olmazın işgəncələrə məruz qalsın...

Bu vəhşi məxluqlar Xocalı soyqırımını törətməklə insanların ürəyinə qorxu salmaq və bununla da Azərbaycan ərazilərinin sonrakı işğalını və etnik təmizlənməsini özləri üçün daha asan hala gətirmək niyyəti güdmüşdülər.

Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş Ulu Öndər

Heydər Əliyev hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymət verilməsinin zəruriliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" - deyən Prezident İlham Əliyevin birbaşa səyi nəticəsində bu gün dünyanın bir sıra dövlətləri Xocalı qətliamını əsl soyqırımı kimi tanıyır və qəbul edir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu faciənin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü işləri də xüsusi qeyd etmək lazımdır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası dünya ölkələrinin erməni qəsbkarlarının törətdiyi insanlığa sığmayan Xocalı soyqırımı haqqında daha dolğun məlumatlandırılmasında müstəsna rol oynayır.

Amma Xocalıya əsl ədalət bu torpaqların azad olunması, qatillərin cəzalanması idi. Azərbaycan xalqı tarix boyu qarşılaşdığı çətinliklərə, məruz qaldığı ədalətsizliklərə baxmayaraq, hər zaman öz böyüklüyünü qoruyub saxlamış, zəngin mənəvi dəyərlərə malik olduğunu göstərdiyi cəsarət və dəyanətlə sübuta yetirmişdir. Erməni vandalları xarici havadarlarına arxalanaraq xalqımıza qarşı törətdikləri bir sıra qanlı cinayətlərin, o cümlədən Xocalı qətliamının cəzasız qalacağını düşünürdülər. Lakin onlar ciddi şəkildə yanılmışdılar və unutmuşdular ki, haqq-ədalət gec-tez öz yerini tapır.

Xocalılılar və digər işğal olunmuş bölgələrimizdən olan insanlar 30 ilə yaxın müddətdə daim doğma torpaq həsrəti ilə yaşadılar. 44 günlük Vətən savaşında qəhrəman oğullarımız Xocalı qatillərini, insan











cəlladlarını məhv etməklə günahsız soydaşlarımızın qanını yerdə qoymadılar. Bununla da həmin şəhidlərin yaxınlarının, eləcə də bütün Azərbaycan xalqının ürəyinə su çilədilər. Gücləri yalnız əliyalın insanlara çatan mənfur ermənilər Xocalı soyqırımını törətməklə Azərbaycan xalqının gözünü qorxutmaq istəsələr də, buna nail ola bilmədilər. Bu faciə hər birimizi dərindən yaraladı, amma milli iradəmizi, azadlıq eşqimizi, işğala qarşı barışmaz mövqeyimizi sarsıda bilmədi.

Vətənimizin mərd oğulları döyüş meydanında Xocalı cəlladlarını məhv etdilər, faşist xislətli ermənilərə heç zaman yadlarından çıxarmayacaqları dərs verdilər. 2020-ci il sentyabrın 27-də müzəffər Ali Baş Komandan İlham Əliyevin bir əmri ilə silaha sarılan qüdrətli ordumuzun şücaəti sayəsində erməni işğalına son qoyuldu. Müqəddəs Vətən torpağımız yağı düşmənin işğalından azad edildi. 8 noyabr Zəfəri tariximizə əbədi yazıldı. Azərbaycanın mərd oğulları Xocalı şəhidlərinin qanını döyüş meydanında düşməndən aldı.

Hərbi əməliyyatların davam etdiyi günlərdə də Azərbaycan humanizm prinsiplərinə sadiq qaldı. Erməni silahlı birləşmələrinin bütün müharibə qanunlarını pozmalarına, döyüş bölgələrindən kənarda yerləşən şəhərlərimizi raket hücumlarına məruz qoymalarına baxmayaraq, ordumuz yüksək insanpərvərlik nümayiş etdirərək dinc əhaliyə və mülki obyektlərə heç vaxt atəş açmadı. Buna bütün dünya şahidlik etdi. Azərbaycan Ordusu həm İkinci Qarabağ müharibəsi zamanı, həm də 2023-cü ilin 19-20 sentyabr günlərində - reallaşdırılan lokal antiterror əməliyyatı zamanı Xocalı qətliamı qurbanlarının qisasını erməni cəlladlarından aldı. Qəhrəman oğullar döyüş meydanında Xocalı qatillərini məhv etdilər. Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, şanlı Azərbaycan Ordusunun rəşadəti sayəsində işğal altında olan torpaqlarımız azadlığa qovuşdu, Xocalıda soyqırıma məruz qalanların qisası döyüş meydanında alındı.








Ötən il fevralın 26-da müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Xocalı şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bir sıra məqamlarla bağlı öz səmimi duyğularını soydaşlarımızla bölüşdü. Dövlət başçımız bildirdi: “Soyqırım qurbanlarının xatirəsini bu gün biz ilk dəfə məhz Xocalıda andıq. O qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizim hər birimizi qəzəb boğur. 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu, təbiidir, biz insanıq, ancaq eyni zamanda, biz böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı, o düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır. O böyük dövlətlər dayanmasaydı, heç vaxt 1990-cı illərin əvvəllərində bizim torpağımız işğal altına düşməzdi. Biz o vaxt gücsüz idik, onların arxasında isə böyük qüvvələr dayanmışdı. Bu gün biz güclüyük və bəziləri bizə deyirlər ki, biz rəhm edək. Amma onlar bizə rəhm etdilərmi?”

Azərbaycan liderinin həm müzəffər Ali Baş Komandan, həm də Prezident kimi qətiyyəti sayəsində bu gün Qarabağda əli qana batmış qatillər ədalət qarşısında cavab verir. Bu qanlı terror aktını törədənlərin bəziləri hələ də azadlıqdadır. Onların kimliyi də hər kəsə bəllidir. Ermənistanın keçmiş rəhbərləri Robert Köçəryan, Serj Sarkisyan, keçmiş müdafiə naziri Seyran Ohanyan bilavasitə bu qanlı terror aktında iştirak ediblər. Erməni ideoloqu Zori Balayan bu barədə öz “xatirələrində” də yazıb.

Ədalətdən qaçmaq mümkün deyil. Bu mənada, Xocalı qatillərinin də müəyyən zaman müddətində ədalət mühakiməsi qarşısında cavab verəcəyinə inamımız böyükdür. Çünki bu gün xalqımızın, millətimizin, dövlətimizin üzərindən məğlub sözü silinib, əvəzində qalib sözü yazılıb. 32 il bundan öncə xocalılılar 4 il ermənilərlə üzbəüz döyüşlərdən sonra soyqırıma məruz qalaraq, evlərini məğlub kimi tərk etmişdilər. Amma indi onlar Xocalıya qalib xocalılılar, qalib Azərbaycan vətəndaşları kimi qayıtdı. Bundan böyük qürur, bundan artıq sevinc nə ola bilər?

Bir Azərbaycan qadını kimi ordumuza, bu torpaqların azad olunmasında iştirak edən hər bir hərbçimizə minnətdaram. Onları tərbiyə edən Azərbaycan analarına, dövlətimizə, ordumuza rəhbərlik edən Ali Baş Komandanımıza təşəkkür edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu gün onların ruhları şaddır. Çünki uğrunda canlarını verdikləri torpaqlar -Vətən azaddır. Heç vaxt bundan gözəl hiss keçirə bilmərik.






# Azərbaycan-Afrika münasibətləri:

## Neokolonializmlə mübarizədə qitənin azadlıq səsinə dəstək



**Zaur Şükürov**
Milli Məclisin deputatı

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən uzaqgörən və praqmatik xarici siyasət strategiyasının nəticəsində bu gün Azərbaycan bölgənin lider dövləti olaraq təkcə regional məsələlərdə deyil, beynəlxalq ictimaiyyəti düşündürən qlobal çağırışların həlli prosesində də vacib oyunçulardan biri kimi çıxış edir. Prezident İlham Əliyevin liderliyi ilə ölkəmizin yürütdüyü müstəqil və prinsipial xarici siyasət kursu sayəsində dövlətimizin qlobal miqyasda nüfuzu davamlı olaraq artmaqdadır və Afrika qitəsi ölkələri ilə də münasibətlərin dərinləşdirilməsi gündəlikdə duran məsələlərdəndir.

Ölkəmiz istər Afrika qitəsi dövlətləri ilə ikitərəfli əsasda, istərsə də beynəlxalq təşkilatlar, o cümlədən Afrika İttifaqı çərçivəsində səmərəli əməkdaşlığı davam etdirir.

Məlum olduğu kimi, 1999-cu il sentyabrın 9-da Afrika Birliyi Təşkilatının rəhbərləri Afrika İttifaqının yaradılması ilə bağlı bəyannamə qəbul etmiş və 2002-ci ildə Cənubi Afrika Respublikasının Durban şəhərində üzv ölkələrin dövlət başçılarının iştirakı ilə keçirilmiş sammit zamanı rəsmən qurumun fəaliyyətə başlamasına qərar verilmişdir. Bu təşəbbüs qitədə baş vermiş təkamülə böyük miqyasda təsir edən, xüsusilə iqtisadi və siyasi inteqrasiyanın sürətləndirilməsinə zəmin yaradan mühüm hadisələrdən biri hesab edilə bilər.

Azərbaycan Respublikası 2011-ci ildən Afrika İttifaqı yanında müşahidəçi statusu almış, Prezidentin müvafiq sərəncamı ilə ölkəmizin Efiopiya Federativ Demokratik Respublikasındakı səfiri, eyni zamanda, Afrika İttifaqı yanında daimi nümayəndəsi təyin edilmişdir.

Hazırda Afrika qitəsi zəngin təbii ehtiyatları, rəngarəng flora və faunası, geniş inkişaf potensialı, habelə gənc əhalisi və insan resursları ilə əksər dövlətlər üçün cəlbedici bir məkana çevrilmişdir. Lakin əsrlər boyu müstəmləkəçilik zülmü ilə üzləşmiş, hətta qitənin bəzi dövlətlərinin Fransa maraqlıdır. Bununla yanaşı, Sovetlər Birliyinin süqutundan sonra böyük bir inkişaf yolu keçmiş ölkəmizin uğur hekayəsi qitə dövlətləri üçün son dərəcə faydalı təcrübə mənbəyi hesab edilə bilər. Azərbaycan Afrika dövlətlərinin siyasi və iqtisadi müstəqillik yolunda apardığı mübarizəyə həm diplomatik, həm də humanitar dəstək göstərir.

Keçən dövr ərzində Azərbaycanı həm Afrika İttifaqı, həm də qitənin digər parlamentləri ilə bir araya gətirən Pan Afrika Parlamenti ilə qarşılıqlı səfərlər həyata keçirilmişdir. Hazırda ölkəmizin Misirdə, Əlcəzairdə, Mərakeşdə, Konqo Prezidentinin 2024-cü ildə və Somali Prezidentinin cari ilin fevral ayında ölkəmizə səfərlərinin və səfər zamanı qarşılıqlı maraq kəsb edən məsələlərin müzakirəsinin, imzalanmış sənədlərin xüsusi əhəmiyyəti qeyd edilməlidir.

Ümumiyyətlə, Afrika dövlətləri ilə energetika, o cümlədən yaşıl enerji, kənd təsərrüfatı, turizm, təhsil, müdafiə sənayesi sahəsində, habelə dövlət xidmətlərinin vahid pəncərə modeli kimi layihələr üzrə əməkdaşlıqda qarşılıqlı maraq mövcuddur və ikitərəfli təmaslar zamanı bu məsələlər daim diqqət mərkəzində saxlanılır. Həmçinin Azərbaycanın Beynəlxalq İnkişafa




kimi ölkələrin imperialist və yeni müstəmləkəçilik siyasətindən hələ də əziyyət çəkdiyi bir dönəmdə bu regionun xalqları bərabərhüquqlu əməkdaşlığa, qarşılıqlı hörmətə, etimad və etibara söykənən, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə əsaslanan yeni qarşılıqlı münasibətlər axtarışındadırlar.

Bu baxımdan qitə dövlətləri beynəlxalq münasibətlər sistemində məhz qeyd olunan siyasi-diplomatik davranışı əsas prioritetlərdən hesab edən Azərbaycanla əməkdaşlığın genişləndirilməsində Efiopiyada, Keniyada, Cənubu Afrika Respublikasında səfirlikləri fəaliyyət göstərir. Həm diplomatik təmsilçilik, həm də intensiv qarşılıqlı səfərlər bir sıra sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə imkan verir.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində Fəxri qonaq qismində iştirak etmək məqsədilə 2022-ci ilin noyabr ayında Əlcəzair Xalq Demokratik Respublikasına səfəri çərçivəsində baş tutan səmərəli ikitərəfli görüşlərinin, Yardım Agentliyi tərəfindən sosial-iqtisadi və humanitar böhrandan əziyyət çəkən Afrika dövlətlərinə maddi yardım göstərilmişdir. Dövlətimiz Afrika ölkələrinin iqtisadi inkişafına töhfə vermək üçün investisiya və texniki yardım layihələrində iştirak edir. Bununla yanaşı, təhsil sahəsində inkişafı dəstəkləmək məqsədilə ölkəmiz Afrika dövlətlərinin tələbələrinə təqaüd proqramları ayırır, akademik mübadilə proqramları həyata keçirir. İqtisadi əməkdaşlığı dərinləşdirmək üçün biznes forumlar, sərgilər təşkil edərək qitə dövlətlə-




rinin qlobal bazarlara inteqrasiyasını dəstəkləyir.

Etiraf edilməlidir ki, hazırda Azərbaycanla Afrika qitəsi dövlətləri arasında ticarət dövriyyəsinin həcmi mövcud potensiala cavab vermir. Belə ki, qitə ilə dövriyyənin həcmi 150 milyon ABŞ dolları civarındadır. Əsasən Cənubi Afrika Respublikası, Keniya, Əlcəzair, Anqola ilə ticarət dövriyyəsi nisbətən yüksəkdir. Heç şübhəsiz, logistika məsələləri müəyyən mənada dövriyyənin həcminə mənfi təsir göstərir. Bununla belə, ümidvarıq ki, mövcud siyasi iradə bu istiqamətdə nəzərəçarpacaq uğurlar əldə edilməsinə imkan verəcək.

Vurğulanmalıdır ki, ölkəmizin Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyi dövrdə Hərəkata üzv olan qitə dövlətləri ilə münasibətlər daha da inkişaf etmiş, Azərbaycan Qlobal Şimal ilə Qlobal Cənub arasında körpü rolunu oynamışdır. Habelə Hərəkatın sədri qismində respublikamız Afrika qitəsinin az inkişaf etmiş ölkələrinə və kiçik ada dövlətlərinə də mütəmadi dəstəyini nümayiş etdirmiş və bu istiqamətdə davamlı olaraq müvafiq addımlar atmaqdadır.

Digər diqqətçəkən məqam isə ondan ibarətdir ki, Qoşulmama Hərəkatı dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe nümayiş etdirir və beynəlxalq hüququn təməl prinsiplərindən çıxış edir ki, bu da ölkəmizin xarici siyasət prioritetləri ilə tam uyğundur. Azərbaycanın Qoşulmama Hərəkatında üzvlüyünün ilk günlərindən etibarən, Afrika qitəsi dövlətlərinin də yer aldığı bu təşkilat ölkəmizin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını davamlı şəkildə dəstəkləyib və torpaqlarımız erməni işğalında olduğu dönəmdə qəbul edilmiş bütün sənədlərdə Ermənistan-Azərbaycan münaqişəsini məhz həmin prinsiplər əsasında nizamlamağa çağırıb. 2012-ci ildə ölkəmiz 155 dövlətin səsini əldə edərək BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsində Qoşulmama Hərəkatına üzv dövlətlərin, o cümlədən Afrika ölkələrinin dəstəyi də mühüm rol oynamışdır. Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan Afrika dövlətlərinin Azərbaycanın haqlı mövqeyinə dəstək göstərməsi də xüsusi qeyd edilməlidir.

Prezident İlham Əliyev 2024-cü ilin noyabr ayında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxış edərkən bu məsələyə dair dəyərli fikirlərini səsləndirmişdir. Xüsusi əhəmiyyət kəsb edən bu çıxış həmin dövlətlərin üzləşdiyi çətinliklərə diqqət çəkmək və qlobal səviyyədə onların inkişafına dəstək vermək məqsədi daşıyırdı. Prezident həmçinin bu dövlətlərin iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məsələlərində daha çox beynəlxalq həmrəyliyə və əməkdaşlığa ehtiyac duyduqlarını vurğulamışdır.

Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində neokolonializmlə mübarizə çərçivəsində Afrikanın az inkişaf etmiş və kiçik ada dövlətlərinin səsinin dünya miqyasında eşidilməsinə mühüm töhfə verdi.

2021-ci il noyabrın 28-də Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis edildi. İspaniyanın paytaxtı Madrid şəhərində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis konfransında Milli Məclisin sədri Sahibə Qafarova Parlament Şəbəkəsinin sülh,

təhlükəsizlik, insan hüquqları və inkişafla bağlı parlament təcrübəsinin mübadiləsinə də imkan yaradacağını, qurumun böyük tədbirlərində bəyannamə sənədlərinə uyğun olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin vəzifə və öhdəliklərinin gerçəkləşdirilməsinə parlament dəstəyi verəcəyini vurğuladı. Hazırda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi neokolonializmlə mübarizədə öz töhfəsini verməkdədir.

Ölkəmiz müxtəlif beynəlxalq platformalar üzərindən bu problemə diqqət çəkməklə yeni müstəmləkəçilik siyasətindən əziyyət çəkən Afrika ölkələrinə dəstək nümayiş etdirir, ədalətsizliyə son qoyulmasına çağırış edir. Azərbaycan Fransa kimi dövlətlərə Qoşulmama Hərəkatının üzvü olan ölkələrdə, o cümlədən Afrika dövlətlərində müstəmləkə keçmişinə, törətdiyi cinayətlərə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə, məsuliyyətini etiraf etməyə davamlı olaraq çağırış edir.

Məlum olduğu kimi, Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Lakin Fransa həmin ölkələrə heç bir inkişaf gətirməyib, əvəzində müstəmləkələrdə utancverici izlər buraxıb, hərbi cinayətlər törədib, yüz minlərlə insanın həyatına son qoyub. Fransa xüsusilə Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir sıra Afrika ölkələrində, o cümlədən Əlcəzair və Ruandada daxili qarşıdurma, soyqırımı və nüvə sınaqlarının törətdiyi ekoloji fəlakətlərə görə məsuliyyət daşıyır.

Azərbaycanın beynəlxalq fəaliyyətinin mühüm komponentlərindən biri kimi Bakı Təşəbbüs Qrupunun da fəaliyyəti Afrika xalqlarının üzləşdiyi problemlərə dünya ictimaiyyəti tərəfindən diqqət ayrılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu gün Prezident İlham Əliyevin uzaqgörən və praqmatik liderliyi sayəsində Azərbaycanda mövcud olan dayanıqlı iqtisadi inkişaf nəticəsində rəqabətədavamlı iqtisadiyyat və güclü ordu, ölkə vətəndaşlarının maddi rifah halının daim yüksəldilməsinə xidmət edən siyasət ölkəmizə beynəlxalq aləmdə layiq olduğu mövqedə qərarlaşmağa imkan vermişdir. Azərbaycanın yalnız Mərkəzi Asiyada, Xəzəryanı dövlətlərdə və Cənubi Qafqazda deyil, eləcə də daha geniş coğrafiyada regional sabitlik və regional sülhə verdiyi töhfə qlobal və beynəlxalq aktorlar tərəfindən yüksək qiymətləndirilir.

İnanırıq ki, məhz bu kimi amillər və strateji yanaşma, habelə Azərbaycanla bağlı dünyada formalaşmış etibarlı tərəfdaş imici qarşılıqlı faydalı və bərabərhüquqlu əlaqələrin inkişafında maraqlı olan Afrika dövlətləri ilə münasibətlərimizin dərinləşməsinə mühüm töhfə verəcək, gələcəkdə də istər ikitərəfli, istərsə də çoxtərəfli formatda əməkdaşlığın inkişafı istiqamətində məqsədyönlü addımlar atılacaqdır.





# ABŞ-ın yeni siyasi administrasiyası nələr vəd edir



**Elçin Mirzəbəyli**
Milli Məclisin deputatı

ABŞ Prezidenti Donald Tramp Qərb siyasətçiləri arasında liberal qlobalizmin iflasa uğradığını, milli suverenliyin və ənənəvi dəyərlərin bəşəriyyətin gələcəyi üçün tək çıxış yolu olduğunu dilə gətirən yeganə siyasi liderdir. Onun BMT Baş Assambleyasının tribunasından hələ 2019-cu ilin sentyabrında səsləndirdiyi fikirlərdən kiçik bir iqtibas gətirməklə mövqeyimi əsaslandırmaq istəyirəm: "Gələcək qlobalistlərin deyil, vətənpərvərlərindir. Gələcək öz vətəndaşlarını müdafiə edən, qonşularına hörmətlə yanaşan, hər bir ölkəni unikal və xüsusi edən fərqlərə hörmət göstərən suveren, müstəqil dövlətlərindir".

Göründüyü kimi, Trampın bəşəriyyətin gələcəyi üçün həyati əhəmiyyət kəsb edən yanaşmaları ilə Prezident İlham Əliyevin qlobal siyasətə baxış bucağı arasında ziddiyyət yoxdur. Hələ 2000-ci illərin əvvəllərində siyasi hakimiyyətdə təmsil olunmadığı vaxtlar İlham Əliyev Azərbaycan jurnalistlərinin mühafizəkar və liberal baxış bucaqları ilə bağlı suallarının cavabında "mühafizəkarlar öz xalqlarına daha çox fayda verirlər" demişdi. Həmin dövrdə telekanallardan birində çalışdığım üçün hə-

min materialdan həftəlik icmalda istifadə etmişdim və bu səbəbdən də çox yaxşı xatırlayıram.

Prezident İlham Əliyev beynəlxalq münasibətlər sistemini mükəmməl bilən bir diplomat, siyasət adamı kimi hələ kimsənin liberal qlobalizmin çöküşündən söz açmadığı, klassik dövlətçilik ənənələrinin və bəşəri dəyərlərin saxta reformizmin girovuna çevrildiyi bir zamanda milli suverenliyi özünün keçilməz sərhədi hesab edən mühafizəkar baxış bucağının, dəyərlər üzərindən inkişafın əhəmiyyətini çox yaxşı başa düşür

Qeyd edim ki, liberal qloballaşmanın iflasa uğrayacağı ilə bağlı ehtimallar Qərb filosof və tədqiqatçılarının hələ 1990-cı illərin əvvəllərindən etibarən müzakirə predmetinə çevrilib. Məşhur Amerika sosioloqu, politoloqu və filosofu, dünya sistem nəzəriyyələrindən birinin banisi İmmanuel Vallerstayn hələ 1990-cı illərin əvvəllərində qloballaşmanı Qərbin hegemoniyasının davamı kimi görür və bu sistemin daxili ziddiyyətlər nəticəsində dağılacağını proqnozlaşdırırdı.

Böyük Britaniyanın siyasi fəlsəfə cərəyanlarının önəmli simala-

Vallerstaynın və Qreyin baxış bucağını Nobel mükafatı laureatı Cozef Stiqliç kimi iqtisadçılar da bölüşürlər. Stiqliçin qənaətinə görə, qloballaşma düzgün idarə olunmadığından əsasən zəngin ölkələrin və transmilli korporasiyaların xeyrinə işləyir. O, iqtisadi qeyri-bərabərliyin artmasının liberal qloballaşmanın zəifləməsinə səbəb olduğunu düşünür.

Eyni yanaşma türkəsilli ABŞ iqtisadçısı Dani Rodrikin baxışlarında da özünü büruzə verir. O hesab edir ki, qloballaşmanın dərinləşməsi milli iqtisadi siyasət-




və ifadə edirdi. Azərbaycan Prezidentinin ABŞ-da keçirilən son seçkilərdən xeyli öncə Donald Trampa münasibətdə birmənalı və açıq dəstəyini ifadə etməsi də qənaətimə görə, məhz bu baxış bucağından qaynaqlanırdı. Şübhəsiz ki, bütün bunlar Azərbaycan-ABŞ münasibətlərinin yeni dövrü üçün əlverişli əsas yaradan nəzəri aspektlərdir.

rından olan Con Qreyin isə 1996-cı ildə işıq üzü görən monoqrafiyasında qloballaşmanın, sadəcə, Qərbin ideoloji utopiyası olduğunu və gerçək dünya siyasətində davamlı olmayacağını bildirir. Onun fikrincə, liberal qloballaşma özünü məhv edir, çünki milli dövlətlərin maraqları və mədəni fərqliliklər nəzərə alınmadan universal model kimi tətbiq olunur.

ləri məhdudlaşdırır və dövlətləri öz vətəndaşlarının maraqlarını qorumaq üçün daha proteksionist siyasətlərə keçmək məcburiyyətində qoyur.

Şübhəsiz ki, liberal qloballaşmanın süqutunu bir və ya bir neçə amillə izah etmək mümkün deyil. Qloballaşma zəngin və kasıb ölkələr arasında, eləcə də cəmiyyət daxilində böyük sosial-iqtisadi



uçurum yaradıb. İstehsal prosesləri daha ucuz işçi qüvvəsi olan ölkələrə köçdüyü üçün inkişaf etmiş ölkələrdə sənayeləşmə zəifləyib, işsizlik artıb. Məhz bu kimi səbəblərdən hazırda dünya yeni qlobal bir nizama doğru gedir. Burada regional əməkdaşlıq və milli maraqlar qlobal liberal sistemdən üstün tutulur.

Donald Trampın liberal qloballaşma əleyhinə çıxış etməsi, şübhəsiz ki, ilk növbədə ABŞ-ın milli maraqları ilə bağlıdır. ABŞ Prezidenti hesab edir ki, liberal qloballaşma ilk növbədə milli suverenliyin bütün komponentlər üzrə həyata keçirilməsinə maneə yaradır və iqtisadi proteksionizmin dərinləşməsinə məcburi əsas verir. Trampın qənaətinə görə, qloballaşma nəticəsində ABŞ-ın ticarət balansı mənfiyə doğru gedib. Xüsusilə Çin və Meksika ilə ticarət sazişləri ABŞ-a ziyan vurub, deindustrializasiyaya zəmin yaradıb. Qloballaşma səbəbindən ABŞ-dakı fabriklər bağlanıb, istehsal Çinə, həmçinin digər ölkələrə köçürülüb. Bu da amerikalıların işsiz qalmasına səbəb olub.

Donald Trampın beynəlxalq fond və təşkilatlara, eləcə də digər xarici maliyyələşdirmə şəbəkələrinə münasibəti də ilk növbədə ABŞ-ın milli maraqlarından qaynaqlanır. ABŞ Prezidenti "Amerika maraqlarına xidmət etməyən" beynəlxalq təşkilatlara və fondlara qarşı çıxır. O, USAID, NED və digər institutların ABŞ-ın maliyyəsini israf etdiyini düşünür. Trampın baxışına görə, ABŞ-ın daxili problemləri həll olunmadan xaricə milyardlarla dollar xərcləmək mənasızdır. Bu təşkilatlar "Dərin Dövlət" ("Deep State") strukturlarının bir hissəsidir və əsas məqsədləri ABŞ-ın qlobalist siyasətini



qorumaqla öz maraqlarını təmin etməkdir. Bu isə o deməkdir ki, Trampın liberal qlobalizmə qarşı çıxış etməsi birbaşa Birləşmiş Ştatların maraqları ilə bağlıdır. Bu isə daha praqmatik yanaşmadır və bu aspektdən davamlı olacağı daha inandırıcı görünür.

Trampın hələ ötən prezidentliyi dönəmində elan etdiyi, lakin həyata keçirə bilmədiyi ideyalarını qarşıdakı 4 il ərzində necə yerinə yetirə biləcəyi, şübhəsiz ki, zamanla bağlı olan məsələdir. Amma hazırda qlobalçıların ənənəvi təsir alətlərinin sıradan çıxarılması istiqamətində atılan addımlar ABŞ-ın yeni Prezidentinin öz mövqeyində israrlı olduğunu və maneə-hədəfləri düzgün müəyyənləşdirdiyini sübuta yetirir.

Bayden-Blinken cütlüyünün hakimiyyəti dövrünü ABŞ-Azərbaycan münasibətlərində, o cümlədən Birləşmiş Ştatların xarici siyasətində ən uğursuz dövr hesab etmək olar. Hətta Obama-Bayden cütlüyünün hakimiyyəti dövrü belə demokratların siyasi olimpin zirvəsində olduqları 4 illik zaman kəsiyindəkindən xeyli yaxşı idi.

Trampın qəbul edəcəyi qərarların və atacağı addımların tamamilə bizim strateji hədəflərimizlə uyğunluq təşkil edəcəyini proqnozlaşdırmaq, zənnimcə, sadəlövhlük olardı. Şübhəsiz ki, bəzi gözlənilməz məqamlar da olacaq. Lakin qlobal proseslərin inkişafına ortaq baxışın olduğunu nəzərə alsaq, qarşıdakı 4 ildə ABŞ-Azərbaycan münasibətlərində önəmli dəyişikliklərin baş verəcəyini düşünürəm.

Prezident İlham Əliyevin Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində səsləndirdiyi fikirlər də bunu sübuta yetirir. Sitat: "Biz Trampın ABŞ-a rəhbərlik etdiyi zamanı xatırlayırıq və son 4 ildə Bayden administrasiyasının Azərbaycana ədalətsiz yanaşması səbəbindən əlaqələrimizin tamamilə korlanmasından fərqli olaraq, o zaman bizim əlaqələrimiz çox uğurla inkişaf edirdi. Beləliklə, Prezident Trampla birgə işləməklə bağlı əvvəlki təcrübəmiz çox müsbət idi. Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq".

Donald Trampın bu günədək atdığı addımlar və həmçinin yeni dünya nizamına ümumi baxış bucağı nəzərə alınarsa, qarşıdakı 4 ildə ABŞ-ın Cənubi Qafqaz siyasətinin daha praqmatik olacağını proqnozlaşdırmaq mümkündür.

Bununla yanaşı, ABŞ-ın Azərbaycanın Türkiyə və Mərkəzi Asiya ilə artan əlaqələrini dəstəkləyə biləcəyi ehtimalı da az deyil. Ən önəmli gözləntilərdən biri ABŞ-ın Azərbaycanın suverenliyinə və müstəqil siyasi kursuna verə biləcəyi dəstəkdir və bu prosesin siyasi manevrlə deyil, iqtisadi və təhlükəsizlik əməkdaşlığı vasitəsilə ediləcəyi daha inandırıcı görünür. Tramp administrasiyası Azərbaycanı Cənubi Qafqazda mühüm strateji oyunçu kimi qəbul edəcək. Ancaq bu, ABŞ-ın birbaşa müdaxiləsi ilə müşahidə olunmayacaq.





# Zəngəzur dəhlizinin açılması Ermənistanın beynəlxalq hüquqa əsaslanan öhdəliyidir



**Vasif Qafarov**
Milli Məclisin deputatı

Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında birbaşa maneəsiz keçidin təmin edilməsi Ermənistanın öz üzərinə götürdüyü öhdəlikdir və bu, yerinə yetirilməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən beynəlxalq gündəliyə daxil edilən Zəngəzur dəhlizi layihəsi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana maneəsiz keçidin təmin edilməsini özündə ehtiva edir.

Prezident İlham Əliyev 2025-ci il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə bu məsələyə toxunaraq onun İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra Azərbaycan tərəfindən irəli sürülərək beynəlxalq gündəliyə salındığını, bu gün "Zəngəzur dəhlizi"nin artıq dünyada qəbul edilmiş ifadə və termin olduğunu bəyan etdi və Azərbaycan iqtidarının bu dəhlizin açılması üçün praktiki addımlar atmaqda olduğunu söylədi: "Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələrlə qeyri-real və cəfəng layihələr ortaya atır, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur".

Buradan aydın görünür ki, Ermənistan hökuməti vaxt uzatmaq, Azərbaycana qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılma-

sına rəvac vermək məqsədilə "Sülh kəsişməsi" layihəsini ortaya atıb və bu layihəni imitasiya edərək dünya dövlətlərinə tədqim etməklə özünün simasında "sülh göyərçini" düzəltməklə məşğuldur. Halbuki bu "layihə"nin Azərbaycansız iki qəpiklik qiyməti yoxdur. Azərbaycan Prezidenti haqlı olaraq qeyd etdi: "Əgər siz bu layihəni, doğrudan da, həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz. Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır. Bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və Ermənistanın özünün götürdüyü öhdəliklərinə əsaslanır. Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada xüsusilə dediyim o bəndə diqqət yetirsin".

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası Prezidentinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatın 9-cu maddəsinə görə, Ermənistan Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Eyni zamanda, bəyanatda Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası da nəzərdə tutulub. Yəni burada Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında hər iki istiqamətdə maneəsiz hərəkətin təşkili məqsədilə nəqliyyat əlaqəsinin yaradılmasından söhbət gedir.

Bəyanatda bildirilir ki, Azərbaycandan Azərbaycana keçid heç bir sərhəd, gömrük yoxlaması olmadan, heç bir maneə ilə üzləşmədən, rahat və azad şəkildə olmalıdır. Zəngəzur dəhlizi layihəsinin mahiyyəti də elə budur və beynəlxalq hüquq qarşısında Ermənistanın öhdəliklərinə əsaslanır. Rəsmi İrəvanın istəyib-istəməməsindən asılı olmayaraq, bu öhdəlik yerinə yetirilməlidir və yerinə yetiriləcəkdir.

Ermənistan rəhbərliyinin və eləcə də bütün erməni daşnaklarının yaddaşını təzələmək üçün tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycan ərazisində hazırkı Ermənistanın yaradılması, keçən əsrin əvvəllərində sovet hökuməti tərəfindən Dərələyəz, Qərbi Zəngəzur, Dilican, Göyçə və digər Azərbaycan torpaqlarının ermənilərə verilməsi hesabına işğalçı ölkə ərazisinin 9000 kvadrat kilometrdən 29743 kvadrat kilometrə çatdırılması prosesinə bir qədər geniş şəkildə nəzər salmağa ehtiyac vardır.

Ermənistan əvvəlcə xatırlamalıdır ki, bu ölkə 1918-ci ildə Batum konfransında əldə edilən razılığa görə 9000 kvadrat kilometri əhatə edən Azərbaycan torpağında yaradılıb. Hətta Ermənistan bu razılıq qarşılığında Azərbaycan və Türkiyə qarşısında üzərinə götürdüyü öhdəlikləri belə yerinə yetirməyib. Batum konfransındakı Azərbaycan nümayəndələrinin tövsiyəsi ilə Azərbaycan Milli Şurası 1918-ci il mayın 29-da İrəvan şəhərini ermənilərə güzəştə getməklə bağlı qərar qəbul edib. Bu qərarın əslində heç bir hüquqi əsası yox idi. Çünki, əvvəla, müsəlmanların böyük çoxluq təşkil etdiyi İrəvanın yerli əhalisinin rəyi belə öyrənilmədən məsələ müzakirəyə çıxarılaraq qərar qəbul olunmuşdu.



İkincisi də, 1918-ci il mayın 29-da keçirilən həmin iclasda Milli Şuranın 44 üzvündən cəmi 20-si iştirak etmişdi. Yəni məlum qərarı qəbul etməyə heç yetərsay belə olmamışdı. Ərazi güzəşti kimi mühüm bir məsələnin həlli ilə bağlı qərar Şura üzvlərinin ən azı üçdə ikisinin səs çoxluğu ilə qəbul edilə bilərdi ki, həmin iclasda Şura üzvlərinin heç 50 faizi belə iştirak etmirdi. Bu mənada Milli Şuranın iclasının qərarı legitim deyildi.

Qərbi Zəngəzur da 1920-ci ildə sovet hakimiyyəti tərəfindən qanunsuz şəkildə və Azərbaycan xalqının iradəsinə zidd olaraq Ermənistana verilmişdi. Belə ki, həmin il aprelin 27-də Bakını işğal edərək Azərbaycan Cümhuriyyətini süquta uğradan Rusiya ölkəmizin ərazi bütövlüyünə qəsd etdi və Ermənistanla münasibətləri tənzimləmək üçün Azərbaycan torpaqlarını siyasi alver predmetinə çevirdi. İlkin mərhələdə tarixi Azərbaycan ərazilərini məqsədli şəkildə “Azərbaycanla Ermənistan arasında mübahisəli ərazi” elan etdi və orada özünün hərbi rejimini yaratdı. Sonradan bu ərazilərin taleyi ilə bağlı arbitr rolunu öz üzərinə götürən rəsmi Moskva bölgədə əsas söz sahibi olduğunu diktə etməyə, bununla da özünün regional maraqlarını həyata keçirməyə başladı. Azərbaycanın taleyinin artıq öz əlində deyil, Moskvanın əlində olmasını diqqətə alan Ermənistan hakimiyyəti də bundan məharətlə istifadə edərək müqəddəs yurd yerlərimizə, tarixi torpaqlarımıza göz dikdi, saxta ərazi iddialarını irəli sürdü.

1920-ci ilin aprel işğalından sonra Azərbaycan ərazilərinin Ermənistana verilməsi prosesində əsas rol oynayan fiqur Rusiya Kommunist (bolşeviklər) Partiyasının (RK(b)P) Qafqaz Bürosunun katibi Qriqori Orconikidze idi. 1920-ci ilin iyununda Sovet Rusiyası Xalq Komissarları Sovetinin (XKS) sədri Vladimir İliç Lenin Sovet Azərbaycanının daxili və xarici siyasətinə rəhbərlik etməyi ona tapşırmışdı. Nəriman Nərimanovun rəhbərlik etdiyi Azərbaycan SSR-in hökuməti isə faktiki olaraq ərazi-sərhəd məsələləri ilə bağlı Ermənistanla aparılan danışıqlardan kənarda saxlanılırdı. Rusiya Azərbaycan ilə daşnak Ermənistan arasındakı ərazi-sərhəd məsələləri ilə bağlı söhbətləri Azərbaycan tərəfinin iştirakı olmadan aparırdı.

Rusiya Sovet Federativ Sosialist Respublikasının (RSFSR) xarici işlər komissarı Georgi Çiçerin 1920-ci il iyulun 8-də RK(b)P-nin Qafqaz Bürosunun katibi Qriqori Orconikidzeyə göndərdiyi teleqramda yazırdı: “Biz əla bilirik ki, Ermənistanın da sovetləşdirilməsi üçün zaman yetişəcəkdir, lakin indi ona getmək tezdir. Ən başlıcası, indi nəyə nail olmaq olar? Ancaq Qarabağ və Zəngəzuru mübahisəli yerlər elan etmək olar. Bunun üçün də Azərbaycan hökumətinin razılıq verməsi gərəkdir. Bu bizim üçün zəruridir, biz mütləq Ermənistan ilə müqavilə bağlamalıyıq. Bunu beynəlxalq vəziyyət qəti şəkildə tələb edir. Bunun üçün isə ən azı Qarabağ və Zəngəzuru mübahisəli ərazi elan etmək lazımdır”.

RSFSR-in əzəli Azərbaycan torpaqları olan Qarabağı və Zəngəzuru mübahisəli ərazilər elan etmək, sonrakı mərhələdə isə bu əraziləri Ermənistana vermək planlarını N.Nərimanov başda olmaqla bütün Azərbaycan bolşevikləri, hətta bir çox qeyri millətlərdən olan bolşeviklər də hiddətlə qarşıladılar. Lakin bütün etirazlara baxmayaraq, G.Çiçerin ilə Q.Orconikidze arasında 1920-ci ilin iyun-iyul aylarında aparılan məsləhətləşmələrin yekununda tarixi Azərbaycan əraziləri olan Şərur-Dərələyəz qəzasının Azərbaycan ilə Ermənistan arasında mübahisəli ərazi kimi deyil, Ermənistan ərazisi kimi qəbul edilməsi, Qarabağ, Zəngəzur və Naxçıvanın isə Azərbaycan ilə Ermənistan arasında mübahisəli ərazi olaraq elan edilməsi qərarlaşdırıldı.

Sovet Rusiyasının Qafqazdakı səlahiyyətli nümayəndəsi Boris Leqran 1920-ci il iyulun 31-də daşnak Ermənistan nümayəndələri Arşak Camalyan və Artaşes Babalyanla Tiflisdə danışıqlara başladı və nəticədə avqustun 10-da Rusiya-Ermənistan müqaviləsi imzalandı. Müqaviləyə görə, Qarabağ, Zəngəzur və Naxçıvan Azərbaycanla Ermənistan arasında mübahisəli ərazilər elan edildi və bu ərazilərin Rusiya qoşunları tərəfindən tutulması qərarlaşdırıldı. Azərbaycan isə öz ərazilərinin mübahisəli elan edilməsi ilə bağlı bu qərardan yalnız mətbuatda dərc olunandan sonra xəbər tutdu. Azərbaycanın Moskvadakı fövqəladə və səlahiyyətli nümayəndəsi Behbud Şahtaxtinski 1920-ci il avqustun 10-da Rusiya-Ermənistan müqaviləsinə etiraz səsini ucaltsa da, bunun elə bir əhəmiyyəti olmadı.

Beləliklə, Azərbaycan hökumətinin nəinki iştirakı, heç xəbəri belə olmadan onun əraziləri rəsmi Moskva tərəfindən Rusiya-Ermənistan müqaviləsinə əsasən mübahisə predmeti elan edildi. Rusiya Ermənistanla apardığı danışıqlarda Azərbaycanın adından çıxış etdi. Əzəli Azərbaycan torpaqları olan Qarabağ, Zəngəzur və Naxçıvanın taleyi ilə bağlı qəbul edilən bu qərar növbəti mərhələdə həmin yerlərin Ermənistana verilməsi məqsədi daşıyırdı.

Bu müqavilənin imzalanmasından sonra N.Nərimanov V.Leninə göndərdiyi məktubunda yazırdı: “...Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımışdır. Lakin eyni zamanda, həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini də Ermənistana verir...”

AK(b)P MK Siyasi Bürosu və RK(b)P MK Qafqaz Bürosunun 1920-ci il noyabrın 4-də keçirilən iclasında (iştirak edirdilər: Stalin, Orconikidze, Leqran, Qabrielyan, Ə.Qarayev və b.) yenidən Rusiya ilə Ermənistan arasında imzalanmış müqavilədəki “mübahisəli ərazilər” məsələsi müzakirə olundu və belə bir qərar qəbul edildi ki, “Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi hazırda siyasi və strateji cəhətdən uyğun olmadığından

yalnız son halda reallaşdırıla bilər".

Bu qərarın qəbul edilməsindən cəmi beş gün sonra - noyabrın 9-da keçirilən AK(b)P MK və Bakı Komitəsinin birgə plenumunda, eləcə də RK(b)P MK-nın Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi və Bakı Sovetinin birgə iclasında İosif Stalin qəti şəkildə bəyan etdi: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz. Yalnız Ermənistanda sovet hökuməti yaranandan sonra bunu etmək olar". Artıq bu o demək idi ki, Rusiya Naxçıvan və Zəngəzurun Ermənistana verilməsini bu ölkənin sovetləşdirilməsinə qədər təxirə salacaqdı. Proses elə bu şəkildə də həyata keçirildi.

Əslində, Moskva tarixi Azərbaycan əraziləri olan Zəngəzur və Naxçıvanı Ermənistana verməklə Azərbaycanla Türkiyə arasındakı birbaşa sərhədin bağlanması məqsədi güdürdü. İ.Stalin və Q.Orconikidze V.Leninlə apardıqları müzakirələrdə də hər zaman bu mövqedən çıxış edirdilər ki, Türkiyə Azərbaycanla ümumi sərhədlər yaratmağa cəhd edir və türklərin Bakını tuta biləcəyi qorxusu var. Buna görə də Naxçıvan və Zəngəzuru Ermənistana verməklə türklərin planlarını pozmaq lazımdır. Ermənistan İnqilab Komitəsinin ölkədə sovet hakimiyyətinin qurulması haqqında (29 noyabr 1920-ci il) teleqramı Bakıya çatan kimi, 1920-ci il noyabrın 30-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclası (iştirak edirdilər: Q.Orconikidze, N.Nərimanov, Q.Kaminski, Y.Stasova, M.B.Qasımov, Ə.Qarayev, Sarkis (S.A.Danielyan), M.D.Hüseynov, A.Serebrovski və b.) keçirildi və belə bir qərar qəbul edildi:

a) ...Sovet və İnqilab Komitəsi adından Ermənistan hökumətinə bəyannamə ilə müraciət edilsin;
b) Təbrik göndərilsin və bildirilsin ki, Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir;
c) Zəngəzur və Naxçıvan Ermənistana keçirilir;
d) Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir;
e) Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlamağa hazırdır.




Sonrakı bəndlərdə isə Nəriman Nərimanova bunlar barədə rəsmi bəyanat hazırlamaq və onu Bakı Sovetinin iclasında elan etmək tapşırılırdı. Bu qərar üzrə hərəkət edən N.Nərimanov 1920-ci il dekabrın 1-də Bakı Sovetinin Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən təntənəli iclasında bəyanatla çıxış etdi. Tarixə "Nərimanovun bəyanatı" kimi daxil olan bu sənəddə deyilirdi: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın - kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım edərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir; Zəngəzur hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılır". Q.Orconikidzenin "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" kimi qiymətləndirdiyi bu bəyanatı İ.Stalin belə şərh etmişdi: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir".

Göründüyü kimi, Nərimanovun bəyanatında "Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək hüququnun verilməsi"ndən bəhs edilsə də, İ.Stalin öz şərhində bəyanatın məzmununu təhrif edir və bunu Zəngəzur və Naxçıvanla yanaşı, Dağlıq Qarabağın da Ermənistana verilməsi kimi təqdim edirdi...

"Nərimanovun bəyanatı" elan ediləndən bir gün sonra - 1920-ci il dekabrın 2-də RSFSR-lə Sovet Ermənistanı arasında Gümrü müqaviləsi imzalandı. Bu müqavilənin 3-cü

maddəsində Rusiya Naxçıvan da daxil olmaqla İrəvan quberniyasının bütün ərazisini və Zəngəzur qəzasını Ermənistan SSR-in ərazisi kimi tanıdı.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının 1920-ci il 30 noyabr tarixli qərarı və N.Nərimanovun 1 dekabr tarixli bəyanatı ilə Zəngəzur qəzası ilə yanaşı Naxçıvan qəzasının da Sovet Ermənistanına verilməsi elan edilsə də, 1920-ci il dekabrın 2-də Gümrüdə imzalanan müqavilə ilə Rusiya adı çəkilən ərazilərin Ermənistana keçdiyini tanısa da, 16 mart 1921-ci ildə Moskva konfransında Türkiyənin Rusiya qarşısında göstərdiyi dirəniş və əzmkarlıq sayəsində Rusiyanın Naxçıvanı Ermənistana vermək planı iflasa uğradı.

gəzur qəzasının ərazisi iki hissəyə bölündü. Qəzanın 405000 desyatindən ibarət Gorus, Qafan, Qarakilsə (Sisian) və ətraf əraziləri əhatə edən qərb hissəsi Moskvanın güclü təzyiqi və Azərbaycan rəhbərliyində olan qeyri-milli qüvvələrin anti-Azərbaycan fəaliyyəti nəticəsində Ermənistana verildi, qəzanın yalnız şərq hissəsi (indiki Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazisi) Azərbaycanın tərkibində qaldı.

Həmçinin Azərbaycanın Qazax qəzasının 379984 desyatin ərazisi də Ermənistana verildi və orada sonralar Ermənistanın Karvansaray və Dilican qəzaları təşkil edildi. Azərbaycan ərazilərinin Ermənistana verilməsi prosesi sonrakı illərdə də davam etdirildi.



*RSFSR və Türkiyə arasında imzalanmış Moskva müqaviləsi (16 mart 1921-ci il)*

Türkiyə ilə Rusiya arasında imzalanan Moskva müqaviləsi ilə Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması məsələsinin həllindən sonra rus-erməni ittifaqı Zəngəzur qəzasının və Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi istiqamətində səylərini artırdı. Ermənistan isə Zəngəzur qəzasının bütünlüklə onlara verilməsi üçün ciddi mübarizəyə başladı. Nəticədə, 1921-ci ilin yayında Azərbaycan xalqının iradəsinin əksinə olaraq Zəngəzur qəzasının qərb hissəsi də Ermənistana birləşdirildi. Bununla da, 6742,92 kvadrat verst-dən ibarət olan Zən-

Belə ki, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi (MİK) Rəyasət Heyətinin 1927-ci il yanvarın 11-də Mixa Tsaxakayanın sədrliyi ilə keçirilən iclasında Azərbaycanın Nüvədi, Ernəzir və Tuğut kəndlərinin orada yaşayan əhalinin iradəsinin əksinə olaraq torpaqları ilə birlikdə Ermənistan SSR-in Mehri qəzasına verilməsi ilə bağlı qanunsuz qərar qəbul edildi.

Sonra Zaqafqaziya MİK Rəyasət Heyətinin 7 noyabr 1928-ci il tarixli qərarı ilə Azərbaycan SSR-in Kürdüstan qəzasının və Ermənistan SSR-in Zəngəzur qəzasının sərhədi boyunca Dığ rayonunun “mübahisəli” hesab edilən 9 sahəsindən 361,3 desyatin ərazi Ermənistana verildi.

Azərbaycan ərazilərinin Ermənistana peşkəş edilməsi prosesi bununla da yekunlaşmadı. M.Tsaxakayanın sədrliyi ilə Zaqafqaziya MİK Rəyasət Heyətinin 1929-cu il fevralın 18-də keçirilən iclasında qəbul edilən qərara görə, Qazax və Dilican qəzaları arasında yerləşən Şınıx-Ayrım rayonunun 4000 desyatin “mübahisəli” meşə ərazisi Başkənd kəndi ilə birlikdə Ermənistana verildi.

Qurumun 1927-ci il yanvarın 11-də keçirilən digər bir iclasında Ermənistan SSR-ə verilmiş Nüvədi, Ernəzir və Tuğut kəndlərinin Azərbaycan SSR-in Cəbrayıl qəzasına, yoxsa Ermənistan SSR-in Mehri qəzasına verilməsi məsələsi yenidən müzakirə edildi. Qəbul olunan yekun qərara görə bu kəndlər torpaq sahələri ilə birlikdə Ermənistan SSR-in tabeliyinə keçirildi. Əhalisi azərbaycanlılardan ibarət olan daha 9 kənd də beləcə düşmən ölkəyə pay verildi.

1929-cu il fevralın 18-də qəbul edilən qərarla Naxçıvan mahalının Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubadın Qərçivan sovetliyinə aid olan Mehri, Buğakər yaşayış məntəqələri, habelə Kilit kəndinin bir hissəsi, ümumilikdə 657 kvadrat kilometr Azərbaycan ərazisi, 5 mart 1938-ci il tarixli qərarla isə Şərur mahalının Sədərək və Kərki kəndləri ətrafındakı ərazilər də Ermənistana verildi. Beləliklə, Kərki kəndinin ətrafındakı ərazilərin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan SSR-də Azərbaycan SSR-in eksklavına çevrildi.

Naxçıvanın kəndlərinin Ermənistana verilməsi ilə bağlı bu qərarlar qəbul edilərkən yenə də yerli əhalinin mövqeyi nəzərə alınmadı. Eyni zamanda, Naxçıvanın ərazi bütövlüyünə edilən bu qəsdlər 1921-ci il 16 mart tarixli Moskva və 1921-ci il 13 oktyabr tarixli Qars müqavilələrinin

müddəalarının kobud surətdə pozulması idi.

Beləliklə, Zəngəzurun cənub-qərb hissəsinin də ermənilərə verilməsi və burada Mehri rayonunun təşkili ilə Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı və bütövlükdə türk dünyası ilə birbaşa əlaqəsi kəsildi. Bununla da, Rusiya hələ 1920-ci ildə İ.Stalin və Q.Orconikidzenin irəli sürdüyü ideyanı - Azərbaycanla Türkiyə arasında birbaşa sərhədin olmasına imkan verməmək planını həyata keçirmiş oldu.

1920-ci ildə Azərbaycanın Qazax qəzasının 379984 desyatin ərazisinin Ermənistan SSR-ə verilməsi və bu ərazilərdə Ermənistanın Karvansaray və Dilican qəzalarının təşkil edilməsi nəticəsində əhalisi 577 nəfər, ərazisi 3104 desyatin olan Sofulu, Bərxudarlı və Yuxarı Əskipara kəndlərinə erməni ərazisinin zolaqları çəkildi və bu kəndlər Azərbaycanın əsas ərazisindən ayrı salındı.

1929-cu il iyulun 19-20-də Zaqafqaziya MİK-in yerli komissiyasının iclasında qərar qəbul edildi ki, bu 3 kəndin məsələsinin həlli hər üçünün Ermənistan SSR-in Dilican qəzasına verilməsidir. Lakin Sofulu, Bərxudarlı və Yuxarı Əskipara kəndlərinin əhalisinin ciddi müqaviməti nəticəsində bu planı icra etməyin qeyri-mümkünlüyünü görən Zaqafqaziya MİK kəndlərin Qazax rayonunun tərkibində saxlanılması barədə qərar qəbul etməli oldu. Azərbaycan SSR Torpaq Komissarlığının qəbul etdiyi 21 aprel 1938-ci il tarixli qərarına əsasən Sofulu, Bərxudarlı və Yuxarı Əskipara kəndləri Ermənistan SSR-in ərazisində Azərbaycan SSR-in eksklavı kimi təsdiqləndi.

Sonrakı illərdə də rəsmi Moskva tərəfindən qanunsuz olaraq Ermənistana verilən Azərbaycan torpaqları hesabına Ermənistanın ərazisinin genişləndirilməsi siyasəti davam etdirildi və xalqımızın iradəsinə zidd olaraq torpaqlarının əlindən zorla alınaraq Ermənistan və Gürcüstana verilməsi nəticəsində Azərbaycan ərazilərinin 27300 kvadrat kilometri itirildi. Məhz bu torpaqlar hesabına Ermənistanın ərazisi 29743 kvadrat kilometrə çatdırıldı, Azərbaycanın ərazisi isə 114000 kvadrat kilometrdən 86600 kvadrat kilometrə endirildi.

Göründüyü kimi, bütün bunlar Rusiyanın Azərbaycan xalqına qarşı böyük cinayəti nəticəsində gerçəkləşib. Bu tarixi həqiqətləri sadalamaqda məqsədimiz bugünkü Ermənistanın, demək olar ki, bütünlüklə tarixi Azərbaycan torpaqlarında yerləşdiyini, Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu və Azərbaycanın bu ərazi üzərində Ermənistanın suverenlik hüququnu tanımadığını xatırlatmaqdır.

1920-ci il aprelin 27-də Azərbaycan Rusiya tərəfindən hərbi güc tətbiq etmək yolu ilə işğal olunaraq sovetləşdirildiyindən 1907-ci il Haaqa Konvensiyasının "işğal zamanı suverenliyin işğalçı dövlətə keçməməsi" prinsipinə görə, 1920-ci ilin 27 aprel işğalından sonrakı dövrdə Moskva hökuməti tərəfindən Azərbaycan ərazilərinin xalqın iradəsinə zidd olaraq Ermənistana verilməsi ilə bağlı qəbul edilən bütün qərarlar qanunsuzdur. Sovet hakimiyyəti dövründə Ermənistana verilən Azərbaycan torpaqları üzərində suverenlik hüququ Rusiyaya deyil, Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqı Qərbi Zəngəzur və digər torpaqlarının Ermənistana verilməsinə heç vaxt razılıq verməyib. Əksinə, bu məsələdə xalqımıza qarşı zor tətbiq edilib və onun müqaviməti qırılıb.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan SSR-in 1921-ci ilin mayında qəbul olunmuş ilk Konstitusiyasının 32-ci maddəsinin "v" bəndinə əsasən Azərbaycan SSR-in sərhədlərinin dəyişdirilməsi respublikanın Sovetlər qurultayının və onun qarşısında məsul olan Azərbaycan MİK-in səlahiyyətində idi. Bu müddəa Azərbaycan SSR-in 1937-ci ildə qəbul olunmuş Konstitusiyasında da öz əksini tapıb. Lakin reallıqda 1920-1930-cu illərdə Cənubi Qafqaz respublikalarının konstitusiyalarının bu müddəaları kobudcasına pozulub, onlar arasında sərhəd mübahisələri ali partiya orqanları tərəfindən yuxarıdan qəbul edilmiş qərarlar əsasında həll olunub. Bu qərarların icrası isə Zaqafqaziya MİK tərəfindən həyata keçirilib.

Bütün bu tarixi həqiqətlərə sağlam məntiqlə nəzər salınanda görürük ki, indi Ermənistanın qarşısında dayanan bir nömrəli vəzifə Azərbaycanla sülhə nail olmaq və bununla da xalqımıza qarşı törədilmiş sistemli cinayətlər hesabına Qərbi Azərbaycan ərazisində təşəkkül tapan bugünkü Ermənistana "çıxarış" və legitimlik almaqdan ibarət olmalıdır. Bu sülhə nail olmaq üçün də Zəngəzur dəhlizinin açılması şərtdir.

Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi sovet hakimiyyəti illərində Azərbaycan xalqına qarşı edilən böyük ədalətsizliyin və cinayətin ağır nəticələrinin aradan qaldırılması yönündə mühüm bir addım olacaq və bu, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına, Azərbaycan torpaqlarında yaradılan Ermənistana "çıxarış" ("kupça") verilməsinə və onun legitimliyinin qəbul edilməsinə, həmçinin Ermənistanın dalandan çıxarılmasına və kommunikasiyaların açılmasına gətirib çıxaracaq. Bu baş vermədiyi təqdirdə isə Ermənistan qeyri-legitim ərazi kimi bütün kommunikasiya xətlərindən kənarda dalan olaraq qalacaq.

Ermənistan Türkiyə və Azərbaycanla münasibətlərini normallaşdırmadan öz gələcəyini təmin edə bilməz. Buna görə də bu ölkə Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışan dövlətlərin əlində bir alətə çevrilmək siyasətindən əl çəkməli, öz gələcəyini düşünməli, reallığı qəbul etməli və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan Azərbaycana maneəsiz keçidi təmin etməlidir.




# POLAD BÜLBÜLOĞLU - 80

***Hörmətli Polad müəllim!***

*Sizi - Milli Məclisin Mədəniyyət komitəsinin sədrini, incəsənətimizin və diplomatiyamızın tanınmış simasını, dəyərli ictimai-siyasi xadimi, Azərbaycan mədəniyyətinin yorulmaz fədaisini 80 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edirəm.*

*Siz Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Musiqi Məktəbini bitirdikdən sonra Konservatoriyanın Bəstəkarlıq fakültəsində korifey sənətkarımız Qara Qarayevin sinfində təhsil alaraq bu təhsil ocağını müvəffəqiyyətlə bitirmisiniz.*

*Sonrakı illərdə Siz Azərbaycan Dövlət Estrada Ansamblının, "Aşıqlar" Vokal-İnstrumental Ansamblının bədii rəhbəri olmuş, 1987-1988-ci illərdə isə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru vəzifəsində çalışmısınız. 1988-ci ildən 2006-cı ilədək Sizə Azərbaycan SSR-in, daha sonra isə Azərbaycan Respublikasının mədəniyyət naziri kimi mühüm bir vəzifə həvalə olunmuşdur. Siz 1995-1998-ci illərdə həm də I çağırış Milli Məclisin deputatı olmuş, 1994-2008-ci illərdə isə TÜRKSOY Beynəlxalq Mədəniyyət Təşkilatına rəhbərlik etmisiniz.*

*Görkəmli bəstəkar, unudulmaz mahnıların müəllifi, istedadlı müğənni kimi Sizin Azərbaycan musiqisinə və mədəniyyətinə verdiyiniz töhfələr misilsizdir. Yaratdığınız mahnılar artıq onilliklərdir ki, nəsillərin könlündə yaşayır, dillər əzbərinə çevrilib. Sizin musiqiləriniz bütöv bir döv-*

*rün ruhunu, xalqımızın hiss və duyğularını ifadə edən bənzərsiz incilərdir. Gənc yaşlarınızdan etibarən estrada musiqisinə gətirdiyiniz yeniliklər, müasir musiqi elementlərini ənənəvi Azərbaycan melodiyası ilə ustalıqla sintez etməyiniz, eyni zamanda, peşəkar bəstəkar kimi yaratdığınız əsərlər musiqi tariximizdə öz layiqli yerini tutub.*

*Mədəniyyət naziri kimi fəaliyyət göstərdiyiniz dövrdə milli mədəniyyətimizin yeni mərhələyə qədəm qoymasına, sənət adamlarının dəstək qazanmasına, Azərbaycan musiqisinin dünyaya çıxışına töhfələr vermisiniz.*

*Fəaliyyətiniz təkcə mədəniyyət sahəsi ilə məhdudlaşmır. 2006-2024-cü illərdə ölkəmizin Rusiyadakı səfiri olduğunuz dövrdə Azərbaycan-Rusiya əlaqələrinin möhkəmlənməsi istiqamətində böyük işlər görmüş, ölkəmizi ləyaqətlə təmsil etmisiniz. Siz həm də 2009-cu ildən bugünədək MDB-yə üzv dövlətlərin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun İdarə Heyətinin sədrisiniz.*

*Bu gün Siz Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra ilk dəfə müstəqil Azərbaycanın bütün ərazisində keçirilmiş parlament seçkilərində ata yurdunuz olan Şuşa şəhərindən deputat seçilərək doğma şəhərinizin azadlığa qovuşmasının qürurunu yaşayırsınız.*

*Hazırda Siz VII çağırış Milli Məclisin Mədəniyyət komitəsinin sədri kimi mədəniyyət sahəsində qanun yaradıcılığı prosesinə öz töhfənizi verirsiniz. Siz həm də parlamentin MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasındakı nümayəndə heyətinin, həmçinin Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi parlamentlərarası əməkdaşlıq komissiyasının üzvü, Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak edirsiniz.*

*Sizin xidmətləriniz diqqətdən kənarda qalmamış, Azərbaycanın ən yüksək mükafatı olan "Heydər Əliyev" ordeni, o cümlədən "İstiqlal", "Şərəf", "Azərbaycanın qüruru", I və II dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Azərbaycan SSR əməkdar incəsənət xadimi", "Azərbaycan SSR xalq artisti", Azərbaycanın, həmçinin bir sıra ölkələrin fəxri adları, orden və medalları ilə təltif olunmusunuz.*

*Sizin zəngin həyat yolunuz, dövlətə, xalqa, sənətə olan bağlılığınız böyük ehtirama layiqdir. Çoxşaxəli fəaliyyətiniz gənc nəsillər üçün bir örnəkdir.*

*Hörmətli Polad müəllim!*

*Sizi bir daha yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, firavanlıq və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**

***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

Bakı şəhəri, 04 fevral 2025-ci il



# TAHİR RZAYEV - 75

***Hörmətli Tahir müəllim!***

*Sizi - Milli Məclisin deputatını, istedadlı qələm sahibini, tanınmış ictimai xadimi anadan olmağınızın 75 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz Azərbaycanın dilbər guşələrindən olan Ağcabədi rayonunun Xəlfərəddin kəndində anadan olmusunuz. Orta məktəbi bitirəndən sonra orduda xidməti başa vuraraq gənc yaşlarınızdan Ağcabədi rayonunda sadə zəhmət adamı kimi əmək fəaliyyətinə başlamısınız.*

*Təhsilə böyük həvəsiniz sayəsində Siz sonralar Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini və Bakı Ali Partiya Məktəbini bitirmisiniz. Ədəbiyyata olan marağınız Sizin 1971-ci ildən Ağcabədi rayonunda çıxan "Sürət" qəzeti ilə yollarınızı birləşdirmiş, 1977-ci ilə qədər burada ədəbi işçi kimi çalışmısınız. Sonrakı illərdə Siz Ağcabədi rayonunda Komsomol Komitəsinin ikinci katibi, birinci katibi, Rayon Partiya Komitəsinin təlimatçısı, Rayon İcraiyyə Komitəsi sədrinin birinci müavini, Rayon Partiya Komitəsinin ikinci katibi kimi bir çox məsul vəzifələrdə işləmisiniz.*

*1990-cı illərin əvvəllərində Siz o dövrün hadisələrinə etiraz əlaməti olaraq vəzifənizi tərk etmiş, "Ülfət" qəzetində ədəbi işçi və "Aran" qəzetində şöbə müdiri işləmisiniz. 1994-1999-cu illərdə isə Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının köməkçisi, İcra Hakimiyyətinin şöbə müdiri, 1999-2001-ci illərdə isə Ağcabədi şəhər bələdiyyəsinin sədri vəzifələrində çalışmısınız.*

*Keçdiyiniz şərəfli ömür yolu və gərgin zəhmətiniz Sizə cəmiyyətdə böyük nüfuz qazandırıb və xalqın etimadı sayəsində ikinci, üçüncü, dördüncü, beşinci və altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmusunuz.*

*Elmə olan həvəsiniz sayəsində Siz 2014-cü ildə dissertasiya işi müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almısınız. Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz. Ölkə ictimaiyyəti Sizi bir çox elmi məqalələrin və kitabların müəllifi kimi tanıyır.*

*Dövlət və xalq qarşısında göstərdiyiniz xidmətlər diqqətdən kənarda qalmamış, 2020-ci ildə cənab Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakınıza görə "Şöhrət" ordeni ilə təltif edilmisiniz.*

*Bu gün VII çağırış Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Regional məsələlər komitəsinin üzvü kimi ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsi işində yaxından iştirak edir, seçicilərin qayğıları ilə maraqlanır, problemlərinin həllində səylərinizi əsirgəmirsiniz.*

*Siz həm də Azərbaycan-Qətər parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Bosniya və Herseqovina, Əfqanıstan, Özbəkistan, Pakistan, Serbiya və Ukrayna ilə əlaqələr üzrə işçi qruplarının üzvü kimi Milli Məclisin beynəlxalq əlaqələrinin daha da möhkəmləndirilməsinə öz töhfənizi verirsiniz.*

*Hörmətli Tahir müəllim!*

*Sizi ömrünüzün bu müdriklik çağında yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***
Bakı şəhəri, 24 fevral 2025-ci il



# SABİR HACIYEV - 70

***Hörmətli Sabir müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış ictimai-siyasi xadimi və əməkdar hüquqşünası anadan olmağınızın 70 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz hələ məktəb illərindən əmək fəaliyyətinə başlayaraq Ağdam rayonunun Natəvan adına sovxozunda fəhlə işləmiş, orta təhsili bitirəndən sonra Bakı şəhərində Məhkəmə Tibbi Ekspertiza Bürosunda laborant kimi çalışmısınız.*

*1972-ci ildə Siz Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunmuş, ali təhsili başa vurduqdan sonra 1977-ci ildən etibarən Ədliyyə Nazirliyinin VVAQ İda-*

*rəsində məsləhətçi, baş məsləhətçi, Qanunların Sistemləşdirilməsi və Qanun Layihələrinin Hazırlanması İdarəsində baş məsləhətçi, rəis müavini işləmisiniz.*

*1988-ci ildən respublika prokurorunun köməkçisi, Nazirlər Soveti Hüquq şöbəsinin müdiri vəzifələrində çalışmısınız. 1990-1992-ci illərdə Azərbaycan Respublikası Prezidenti Aparatının Dövlət-hüquq şöbəsinin müdiri, Azərbaycan Respublikasının hüquq siyasəti üzrə Dövlət müşaviri olmusunuz.*

*Siz ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmiş, 2000-ci ildən Vətəndaş Birliyi Partiyasının baş katibi, 2003-cü ildən partiyanın sədri, 2023-cü ildən isə bitərəf siyasətçi kimi Azərbaycanda hüquqi dövlət quruculuğu proseslərinə öz töhfələrinizi vermisiniz.*

*Siz on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, III, IV, V, VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmusunuz. Əminik ki, yeni seçilən VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü kimi bundan sonra da ölkəmizdə həyata keçirilən islahatların hüquqi əsaslarının təmin olunmasına və qanunvericilik bazasının təkmilləşdirilməsinə, parlamentimizin beynəlxalq əlaqələrinin daha da gücləndirilməsinə öz töhfələrinizi verəcəksiniz.*

*Hörmətli Sabir müəllim!*

*Sizi 70 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***
Bakı şəhəri, 05 oktyabr 2024-cü il



# QÜDRƏT HƏSƏNQULİYEV - 60

***Hörmətli Qüdrət müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış hüquqşünası anadan olmağınızın 60 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz Culfa rayonunda orta təhsilinizi başa vurduqdan sonra hərbi xidmətdə olmuş, sonra isə sadə zəhmət adamı kimi əmək fəaliyyətinə başlamısınız. Siz hüquqşünas olmaq arzunuzun arxasınca tezliklə Bakıya gələrək 1987-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olmuş, bu qocaman təhsil ocağını fərqlənmə diplomu ilə bitirmisiniz. 1992-1993-cü illərdə Bakının Nəsimi Rayon Prokurorluğunda müstəntiq, sonra isə Dövlət katibinin köməkçisi olmusunuz.*

*Siz Azərbaycanın siyasi həyatında fəal iştirak etmiş, 1993-1996-cı illərdə AXCP sədrinin hüquq məsələləri üzrə müşaviri kimi fəaliyyət göstərmiş, 2000-2003-cü illərdə Mər-*

*kəzi Seçki Komissiyasının katibi vəzifəsində çalışmış, 1996-2000-ci illərdə isə Bakı Asiya Universitetinin Hüquq fakültəsinin baş müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olmusunuz. Bu gün Siz Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri kimi ölkənin siyasi həyatında fəal iştirak edirsiniz.*

*Seçicilərinizin etimadı nəticəsində 2003-cü ildən etibarən müstəqil Azərbaycanın II, III, IV, V,VI və VII çağırış Milli Məclisinə deputat seçilmisiniz. Seçicilərinizlə mütəmadi olaraq görüşür, onların qayğı və problemlərinin həllində əlinizdən gələn köməkliyi əsirgəmirsiniz.*

*Bu gün parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini kimi qanun yaradıcılığı prosesində, ölkədə həyata keçirilən islahatların hüquqi bazasının yaradılmasında da yaxından iştirak edirsiniz.*

*Milli Məclisin Malta ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Çin, Xorvatiya, İtaliya, Qazaxıstan, Özbəkistan, Rusiya və Venesuela kimi dövlətlərlə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, Milli Məclisin GUAM Parlament Assambleyasında nümayəndə heyətinin üzvü kimi parlamentin beynəlxalq əlaqələrinin genişlənməsində səylərinizi əsirgəmirsiniz.*

*Hörmətli Qüdrət müəllim!*

*Sizi ömrünüzün bu müdriklik çağında yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, çoxşaxəli fəaliyyətinizdə və həyatınızda yeni-yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***
Bakı şəhəri, 29 yanvar 2025-ci il



# CEYHUN MƏMMƏDOV - 50

***Hörmətli Ceyhun müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış ilahiyyatçı alimi və ictimai xadimi anadan olmağınızın 50 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz Azərbaycanın dilbər guşələrindən olan Cəbrayıl rayonunun Şükürbəyli kəndində anadan olmusunuz. 1994-1998-ci illərdə Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin Beynəlxalq İslama Dəvət Kollecini bitirərək ərəb dili və dinşünaslıq ixtisasına yiyələnmisiniz. Sonra 2000-2002-ci illərdə Xəzər Universitetinin Humanitar fənlər fakültəsini bitirmisiniz.*

*Siz 1998-2001-ci illərdə "İrşad" İslam Araşdırmaları Mərkəzində tərcüməçi-referent, 2001-2013-cü illərdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində baş mütəxəssis, bölmə müdiri, şöbə müdiri, həmçinin 2006-2011-ci illərdə "Dövlət və Din" jurnalının baş redaktoru işləmisiniz. 2012-2015-ci illərdə "Avrasiya"*

*MMC-də tərcüməçi, AMEA-nın Şərqşünaslıq İnstitutunda böyük elmi işçi, 2015-2018-ci illərdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında aparıcı məsləhətçi, böyük məsləhətçi vəzifələrində çalışmısınız. 2018-2020-ci illərdə isə Azərbaycan İlahiyyat İnstitutunun rektoru olmusunuz.*

*Elmə olan həvəsiniz sayəsində Siz AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda elmi araşdırmalarınızı davam etdirmiş və 2011-ci ildə dissertasiyanızı müdafiə edərək ilahiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almısınız.*

*Ölkə ictimaiyyəti Sizi bir çox elmi məqalələrin və kitabların müəllifi kimi tanıyır.*

*Səmərəli fəaliyyətiniz, əməksevərliyiniz sayəsində Siz 2020-ci ildə 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsində seçicilərin etimadını qazanaraq VI çağırış Milli Məclisə deputat seçilmisiniz.*

*Bu gün VII çağırış Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin, Elm və təhsil komitəsinin üzvü kimi ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsi işində yaxından iştirak edir, seçicilərin qayğıları ilə maraqlanır, problemlərinin həllində səylərinizi əsirgəmirsiniz.*

*Siz həm də Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, İordaniya, İraq, İran, Pakistan, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini kimi Milli Məclisin beynəlxalq əlaqələrinin daha da möhkəmləndirilməsinə öz töhfənizi verirsiniz.*

*Hörmətli Ceyhun müəllim!*

*Sizi ömrünüzün bu kamillik çağında yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***
Bakı şəhəri, 28 yanvar 2025-ci il

# Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan dostluğu hər iki xalqın rifahına mühüm töhfədir

Rubrikamızın qonağı Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab **Məhəmməd Əl Bluşidir.**




**- Cənab səfir, bu gün BƏƏ sənaye, iqtisadiyyat, turizm, kənd təsərrüfatı sahələrində böyük uğurlar qazanır. Təmsil etdiyiniz ölkənin sürətli inkişaf perspektivləri hamımızı sevindirir. Bu barədə nə deyə bilərsiniz?**

- Birləşmiş Ərəb Əmirliklərinin gələcəyə iddialı baxışının və çoxsaylı nailiyyətlərinin əsasını təşkil edən dərin köklü dəyərləri var. Bu uğurlar ölkəmizin inkişaf, innovasiya və davamlılıq sahəsində qlobal liderliyinin sarsılmaz nəticəsidir. Prezident Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın siyasi baxışları müasir BƏƏ-nin formalaşmasında və ideal məkan kimi mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynayır. Bu gün ölkəmizi təhlükəsizlik, sabitlik, firavanlıq, davamlı inkişaf və sosial rifahın simvolu kimi görmək olar. BƏƏ hökumətləri, xeyriyyəçiləri və vətəndaş cəmiyyətlərini bir araya gətirməklə çoxtərəfli yanaşmanın və qlobal problemlərin həllində irəlidə olduğunu nümayiş etdirməkdədir.

COP28 tarixi BƏƏ Konsensusu ilə yekunlaşan möhtəşəm bir uğur idi. 198 tərəfin əldə etdiyi təməlqoyma sazişi iqlim fəaliyyətində yeni eranın başlanğıcı oldu. Konfrans qərarların qəbulu prosesində bütün səslərin eşidilməsini və qiymətləndirilməsini təmin edərək bu günə qədər olan ən inklüziv konfrans idi.

BƏƏ texnoloji tərəqqidə liderdir və infrastruktura, rəqəmsal transformasiyaya, qabaqcıl innovasiyalara əhəmiyyətli investisiyalar yatırmışdır. Ölkəmizə gələn ziyarətçiləri turizm sahəsində dünya səviyyəli inkişaf, qonaqpərvərlik, sürətli tərəqqinin görünən simvolu olan tikinti və daşınmaz əmlak sektorları heyran edir. Həm də burada çox yüksək tibbi infrastruktur yaradılıb. BƏƏ səhiyyə texnologiyası və tədqiqatında ön sıralardadır. Ölkəmizin istehsal, maliyyə, logistika və rəqəmsal xidmətlər kimi sektorlarda inkişafı sürətlə gedir. BƏƏ-nin innovasiyalara sadiqliyi beynəlxalq investorları cəlb edir və ixtisaslaşmış azad zonaların yaradılmasına, sahibkarlığın təşviqinə yol açır. Biz təkcə ərzaq təhlükəsizliyini gücləndirmirik, həm də onu yenidən yaradırıq.

COP29-da biz kənd təsərrüfatında ağıllı həlləri dəstəkləmək məqsədi daşıyan, ChatGPT ilə işləyən dünyanın ilk alətini istifadəyə verdik. BƏƏ həmçinin qida sistemi innovasiyalarını sürətləndirmək üçün Bill Qeyts Fondu ilə 200 milyon ABŞ



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü. Əbu-Dabi şəhəri. 13 yanvar 2025-ci il*

dolları dəyərində tərəfdaşlığa imza atdı. Öhdəliyimizin sübutu olaraq 2024-cü ilin noyabrında Birinci Qlobal Qida Təhlükəsizliyi Sammitinə ev sahibliyi etdik və ərzaq təhlükəsizliyinin gələcəyinin formalaşmasında qlobal çağırışçı kimi mövqeyimizi  möhkəmləndirdik. Ölkəmiz digər xalqları öz nailiyyətlərini və təcrübələrini unikal şəkildə bölüşməyə təşviq edir.

**- Azərbaycan-BƏƏ münasibətləri qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanır. İqtisadi, ticarət, texniki əməkdaşlıq sahəsində əlaqələr gündən-günə genişlənir. Bu tərəfdaşlığın inkişaf istiqamətləri ilə bağlı fikirləriniz də maraqlıdır.**

- Son illərdə BƏƏ daim öz iqtisadiyyatının rəqabət qabiliyyətini və dayanıqlılığını artırmağa diqqət yetirərək beynəlxalq tərəfdaşlıqlarını gücləndirmək üçün səylə çalışır. Ölkəmizin xarici siyasəti uzunmüddətli iqtisadi rifahı dəstəkləmək öhdəliyinə əsaslanır və buna nail olmaq üçün neft asılılığını azaldaraq elmi-texniki tərəqqi ilə idarə olunan iqtisadiyyatı inkişaf etdirir, bunun üçün innovativ strategiyalar qəbul edir.

Biz Azərbaycan ilə müxtəlif sektorlar üzrə yüksək və məhsuldar ikitərəfli əməkdaşlıq qurmuşuq. Həm BƏƏ, həm də Azərbaycan gələcək artım və inkişaf üçün əhəmiyyətli potensiala malikdir. Möhtərəm liderlərimizin şəxsi dostluğunu rəhbər tutaraq bu potensial xalqlarımız üçün nəzərəçarpacaq faydalara çevrilməkdədir. BƏƏ Azərbaycan hökuməti ilə sıx əməkdaşlığın və ikitərəfli əlaqələrin genişləndirilməsinə sadiq qalır. Biz birlikdə hökumətlər və özəl sektorlar arasında uğurlu nəticələrə əsaslanan münasibətləri inkişaf etdiririk. Tərəfdaşlığımız bərpa olunan enerji, ərzaq təhlükəsizliyi, səhiyyə və ekologiya sahələrində yeni imkanların açılmasına xidmət edir. Ölkələrimiz arasında vizasız rejim turizmin inkişafı üçün perspektivləri gücləndirir. Bundan əlavə, logistika, informasiya texnologiyaları, innovasiyalar və süni intellekt sahələrində əlaqələr üçün əhəmiyyətli potensial mövcuddur ki, bunların hamısı hər iki ölkənin iqtisadi gələcəyinin əsas hərəkətverici qüvvəsidir. Tikinti sektoru və daşınmaz əmlak kimi sahələrdə də ölkələrimiz arasında tərəfdaşlıq üçün geniş imkanlar var.

Əminəm ki, BƏƏ-Azərbaycan əlaqələrinin möhkəmlənməsi bundan sonra da xalqlarımızın rifahına töhfə verəcək, qlobal miqyasda tərəfdaşlığımızı daha da artıracaqdır.

**- Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi etdi. BƏƏ bu mötəbər tədbirdə Bakının iqlim və sülh təşəbbüslərinə ən çox dəstək verən ölkələrdən biri kimi diqqət çəkdi.**




- Azərbaycan BƏƏ-nin COP28-dəki sədrlik məşəlini inamla daşıyaraq qlobal iqlim gündəliyinin irəliləyişində və tarixi BƏƏ Konsensusunda təsbit olunmuş kollektiv səylərin və sazişlərin davam etdirilməsində mühüm məqam olan COP29-a uğurla ev sahibliyi etdi. Konfransda bizim ölkə ən yüksək səviyyədə - Prezident Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyan və 40-dan artıq hökumət nümayəndəsi ilə təmsil olundu. Bu da BƏƏ-nin qlobal iqlim fəaliyyətində etibarlı tərəfdaş kimi Azərbaycanı dəstəkləməkdə qətiyyətli sədaqətinin sübutudur.

Azərbaycan COP28-də qəbul edilmiş iddialı qərarlara nail olmaq üçün zəruri olan əsas mexanizmləri inkişaf etdirmək və həyata keçirmək məqsədilə əvəzsiz platforma təmin etdi. COP28-də qəbul olunan İqlim Relyefinin Bərpasına və Sülh Bəyannaməsinə əsaslanan Bakı Çağırışına və Bakı Qovşağının açılışında göstərdiyi liderliyə görə Azərbaycanı təqdir edirik.

Konfransdan əvvəl BƏƏ və Azərbaycan iqlim dəyişikliyi ilə bağlı aktual problemlərin həlli üçün birgə çalışaraq COP sədrlikləri - TROİKA çərçivəsində güclü əməkdaşlıq nümayiş etdirdilər. COP29 nəinki COP28-in sürətini qoruyub saxladı, həm də qlobal iqlim fəaliyyətinin növbəti mərhələsinin əsasını qoydu. Braziliyada keçiriləcək COP30-da da diqqət BƏƏ Konsensusu üzərində qurulacaq.

BƏƏ iqlim dəyişikliyi ilə bağlı düşüncələri konkret fəaliyyətə çevirmək, gələcək nəsillər üçün davamlı tərəqqi təmin etmək məqsədilə Azərbaycan və dünya ictimaiyyəti ilə birgə işləmək prinsipinə sadiq qalır.

**- BƏƏ-nin MASDAR və ADNOC kimi şirkətləri tərəfindən Azərbaycanda mühüm layihələr reallaşdırılır, qarşılıqlı investisiyalar artır, ikitərəfli əlaqələr genişlənir. BƏƏ-nin Azərbaycanda, o cümlədən Qarabağda həyata keçirdiyi daha hansı layihələr var?**

- Prezident Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın 2024-cü ilin yanvarında Azərbaycana tarixi ilk rəsmi səfəri ikitərəfli münasibətlərdə mühüm mərhələ oldu və müxtəlif sektorlar, xüsusilə enerji sahəsində daha dərin əməkdaşlığa zəmin yaratdı. Səfər zamanı hər iki ölkənin prezidentləri MASDAR şirkətinin SOCAR-la tərəfdaşlıq çərçivəsində birgə inşa edilən 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının açılışında iştirak etdilər. Bu mərhələ ölkələrimizin bərpa olunan enerjiyə keçidinə sadiqliyini göstərir. MASDAR-ın ümumi gücü 1 QVt olan digər layihələri, həmçinin Neftçala Günəş PV Layihəsi (315 MVt) və Abşeron-Qaradağ Külək Layihəsi (240 MVt) ilə gücləndirilir.

Səfər zamanı həmçinin ticarət, investisiya, təhsil, mədəniyyət, səhiyyə, enerji kimi bir çox strateji sektorları əhatə edən Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu, təmiz enerji ixracı üzrə strateji saziş, ADNOC və SOCAR arasında strateji əməkdaşlıq sazişi, ətraf mühit sahəsində əməkdaşlıq protokolu və elektrik enerjisinin nəqli layihələrində investisiya əməkdaşlığı haqqında Anlaşma Memorandumu imzalanıb.






*BƏƏ və Azərbaycan arasında minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyi göstərmək məqsədilə 5 milyon ABŞ dolları dəyərində Anlaşma Memorandumunun imzalanması*

Azərbaycan Prezidenti İlham Əliyevin Əbu-Dabi Davamlılıq Həftəsində ("ADSW") iştirak etmək üçün 2025-ci ilin yanvarında BƏƏ-yə səfəri iki ölkə arasında innovasiya və davamlılıq sahəsində dərinləşən əlaqələri daha da gücləndirdi. Hər iki hökumət müxtəlif sektorlar üzrə ikitərəfli əlaqələri dərinləşdirməyi hədəfləyir və əhəmiyyətli dərəcədə qarşılıqlı ticarət və investisiya əlaqələrini daha da genişləndirəcək "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalamağa hazırlaşır. Əməkdaşlığımız inkişaf etdikcə investisiyalar və birgə layihələr iqtisadi artım, texnoloji tərəqqi və davamlı inkişaf üçün yeni imkanlar yaradır. Bu səylər təkcə ikitərəfli əlaqələrimizi gücləndirmir, həm də iqtisadi dayanıqlılığa və davamlı inkişafa töhfə verir.

**- Həm Azərbaycan, həm də BƏƏ parlamentində parlamentlərarası əlaqələr üzrə işçi qruplar fəaliyyət göstərir. Ölkələr arasında əlaqələrin inkişafında parlamentlərin rolu barədə nə deyə bilərsiniz?**

- İkitərəfli münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələr mühüm rol oynayır. Qarşılıqlı səfərlər, parlamentlərarası müzakirələr səmərəli şəkildə davam etdirilir. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Asiya Parlament Assambleyasının Bakıda keçirilən 14-cü Plenar Sessiyasında iştirak etdi və tədbir çərçivəsində Milli Məclisin sədri hörmətli Sahibə xanım Qafarova ilə görüşdü. Mən özüm BƏƏ-nin ölkənizdəki təmsilçisi olaraq Azərbaycan tərəfdən işçi qrupunun rəhbəri, hörmətli Cavanşir Paşazadə ilə sıx əlaqə saxlayıram. Hesab edirəm ki, qanunvericilik orqanlarımız arasında əməkdaşlıq təqdirəlayiqdir və möhkəm təməllər üzərində qurulub.

# Sözün zərgəri



*Zəlimxan qaynadı, daşdı, çağladı,*
*Onu nəzərində Allah saxladı.*
*Torpaqdan qaldırdı, elə bağladı,*
*Get eldən xəbər al, torpaqdan soruş.*
**N. Həsənzadə**

## Zəlimxan Yaqub: "Məndə zərrə qədər şübhə yoxdur ki, Allah mənim alnıma "Sözlə nəfəs al!" cümləsini yazıb. Yoxsa mən şeirin və sözün belə dəlisi, belə Məcnunu olmazdım"

Bu il anadan olmasının 75 illik yubileyi olan Zəlimxan Yaqubla bağlı söhbətimizə şairin yaradıcılığını çox sevən Ulu Öndər Heydər Əliyevin bu kəlamı ilə başlamaq istəyirəm: "Zəlimxan Yaqub müasir ədəbiyyatımızda Azərbaycanın zəngin şeir ənənələrini yaşadan şairlər nəslinə mənsub olan sənətkarlardandır. Xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən şifahi xalq yaradıcılığından ustalıqla bəhrələnməklə o, Azərbaycan poeziyasının inciləri səviyyəsinə qalxa bilən nəzm əsərləri yaratmışdır".

Ölməz şairimizin Azərbaycan milli poeziyasında xüsusi çəkisi, aşıq yaradıcılığının inkişafında, unudulmuş söz-sənət nümunələrinin yaşadılmasında danılmaz xidmətləri var. Onu "iliyinə qədər şair" adlandıranlar çox haqlıdırlar. Gənc yaşlarından başlayaraq Azərbaycanın zəngin şeir ənənələrini böyük coşqunluqla yaradan və yaşadan şairin bircə dəfə söhbətini dinləyəndə adama elə gəlirdi ki, sinəsində bütün dəyərli klassik və çağdaş şairlərin yaradıcılığı külliyyat halında dijitallaşdırılıb. Özü isə, eyni zamanda, müasir ədəbiyyatımızın ən məhsuldar şairlərindən idi.

30 ilə yaxındır Milli Məclis Aparatında çalışıram və hesab edirəm ki, bu illər ərzində ən böyük qazancım məhz bir çox tanınmış şəxsiyyətlərlə yaxın tanışlıq və dostluq imkanlarımın olmasıdır. Zəlimxan Yaqubu da şəxsən tanıyırdım. Vurğunu olduğum, şeriyyətinə, insanlığına, şəxsiyyətinə, fəaliyyətinə yaxından bələdçiliyim olan biri haqqında yazmağın heç çətin olmayacağını düşündüyüm halda, fərqli oldu. Bu yazını sözə qarşı son dərəcə məsuliyyətli davranan şairin qarşısında imtahan kimi düşündüm.

Zəlimxan Yaqub poeziya aləminə gəldiyi ilk gündən ədəbi ictimaiyyətin diqqət mərkəzində oldu. Sözdən möhtəşəm abidələr yarada bilən şairə olan hüdudsuz məhəbbət bir an belə səngimədi. Onun özünün və şeiriyyətinin ümumxalq məhəbbəti qazanmasının başlıca sirri qələmə aldığı mövzuların aktuallığı, müasirliyi, xalqın mənəvi dünyasının düzgün işıqlandırılmasıdır. Çünki şair zamana öz sözünü deyə bildi, sözün qədir-qiymətini bildi və heç vaxt onu dəyərdən salmadı. Ən önəmlisi isə odur ki, onun poeziyası daim milli oyanışa, milli ruhun təbliğinə, milli özünüdərkə xidmət etdi.

Sadəcə, Zəlimxan Yaqubun adını çəkmək kifayət edir ki, şairin ona ümumxalq məhəbbəti qazandıran möhtəşəm poeziyası ilə yanaşı, axıcı nitq qabiliyyəti, fenomenal yaddaşı, qeyri-adi hafizəsi söhbət mövzusuna çevrilsin. Onun qədər milli poeziyamızı təbliğ edən, həmişə xalqın içində olan, onun ruhu ilə qaynayıb-qarışan, hər kəs

tərəfindən sevilən, həm öz poeziyası ilə, həm də digər ölməz klassiklərdən gətirdiyi bənzərsiz nümunələrlə insanların qəlbini riqqətə gətirməyi bacaran ikinci bir insan tapmaq çətindir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şairin yaradıcılığı barədə deyir: "Zəlimxan Yaqubun rəngarəng mövzulu və dolğun məzmunlu şeirləri poeziyamızın inciləri səviyyəsinə qalxaraq Azərbaycan ədəbiyyatında yeni söz kimi qəbul edilir. Onun qəhrəmanlıq ruhu, vətənpərvərlik hissi, azərbaycançılıq məfkurəsi ilə aşılanmış əsərləri əsl vətəndaşlıq mövqeyi nümayiş etdirir və gənc nəslin tərbiyəsində xüsusi əhəmiyyət kəsb edir".

Elə buna görə də Azərbaycan ədəbiyyatı qarşısında böyük xidmətləri və geniş ictimai fəaliyyəti dövlət tərəfindən hər zaman yüksək qiymətləndirilib. Azərbaycanın ən yüksək fəxri titullarına - "Xalq şairi" adına layiq görülüb, "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilib.



Özü də söz sərrafı və bənzərsiz alim kimi tanınan Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov şair haqqında deyir: "Zəlimxan Yaqub Tanrının fitri şairlik istedadı bəxş etdiyi nadir söz ustalarından biri olmaqla bərabər vətənini, xalqını, millətini sevən mətin bir vətənpərvər idi. Dövlətinə çox sadiq idi və bunu öz yaradıcılığında daim əks etdirirdi. Onun yeri ədəbiyyatımızda hər zaman görünəcək. Azərbaycan sevgisindən yaranmış şeirləri hər zaman yaşayacaq".

Tanınmış ədəbiyyatşünas alim, şairlə deputat həmkarı və yaxın dostluq münasibətləri olan Nizami Cəfərov söhbətlərinin birində deyir: "Zəlimxan Yaqub haqda yazılmış elə bir yazı yoxdur ki, şairə bəslənən dərin və hüdudsuz məhəbbət özünü bütün parlaqlığı ilə göstərməsin. Mən cəsarətlə deyə bilərəm ki, bu miqyasda və keyfiyyətdə hörmət və məhəbbət Azərbaycan ədəbiyyatının tarixində sonuncu dəfə Səməd Vurğuna qismət olmuşdur".

Ölməz şairimizin Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi "Əbədiyyət dastanı" əsəri Azərbaycan xalqının gələcək nəsilləri üçün mənəvi güvənc, iftixar və qürur mənbəyi olaraq klassik poeziyamızın unudulmaz nümunələri ilə bir sırada daim yaşayacaqdır. Bir şair kimi ədəbi fəaliyyətinin ciddi elmi-tədqiqat müstəvisinə çıxarılması onun elm aləmində də yüksək dəyərləndirilməsindən xəbər verir. Artıq şairin yaradıcılığı barədə bir neçə gənc alim əsaslı dissertasiya işləri müdafiə etmişlər və yəqin ki, bu tendensiya hələ uzun illər davam edəcək. Zəlimxan Yaqubun əsərləri bir çox dillərə tərcümə olunub və bütün millətlər tərəfindən maraqla qarşılanır.

Təsadüfi deyildir ki, şairi son dərəcə böyük məhəbbətlə sevən insanlar dalbadal iki dəfə etimad göstərərək onu 1995-2005-ci illərdə birinci və ikinci çağırış müstəqil Azərbaycan parlamentinə deputat seçmişlər. Zəlimxan Yaqub insanları mənəvi saflığa, paklığa, daxili gözəlliyə səsləyən şeirlərinin birində deyir:

***Millətin adından danışan kəsin,***
***Dili uzun gərək, üzü ağ gərək!***

Millət vəkili olduğu on il müddətində Zəlimxan Yaqub daim parlament tribunasından seçicilərinin problemlərindən, dərdindən söz açdı, məmur özbaşınalığına, haqlının haqqının tapdanmasına, cəmiyyətdəki bəzi eybəcərliklərə etiraz səsini ucaltdı, işlək qanunların hazırlanmasına səmərəli töhfələr verdi.

Bu günlərdə şairin oğlu Bəhlul Yaqubov redaksiyamızda qonaq oldu. Bir övladdan atası barədə soruşmaq da, ondan aldığın cavabın

***DOSYE:***

*Zəlimxan Yaqub 1950-ci il yanvarın 21-də Gürcüstanın Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Orta məktəbi həmin kənddə bitirdikdən sonra Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində ali təhsil almışdır.*

*Ədəbi fəaliyyətinə 1966-cı ildə Bolnisinin "Qələbə bayrağı" rayon qəzetində "Şota Rustaveli" adlı ilk şeiri ilə başlayıb. Elə o vaxtdan fəal yaradıcılıqla məşğul olub. 1973-cü ildən 1978-ci ilə qədər "Azərkitab" mağazasında satıcı, şöbə müdiri, 1975-ci ildən 1985-ci ilə qədər Azərbaycan Könüllü Kitabsevərlər Cəmiyyətinin Təbliğat şöbəsində redaktor və şöbə müdiri, 1987-ci ildən 1994-cü ilə qədər "Yazıçı" nəşriyyatının Poeziya şöbəsində redaktor və şöbə müdiri vəzifələrində çalışmışdır.*

*1995-2005-ci illərdə birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2008-ci il avqust ayının 29-da Azərbaycan aşıqlarının V qurultayında Azərbaycan Aşıqlar Birliyinin sədri seçilmişdir. Müxtəlif dillərə tərcümə edilmiş 40-a qədər şeir kitabının müəllifidir.*

*Azərbaycan ədəbiyyatı qarşısında böyük xidmətlərinə, geniş ictimai fəaliyyətinə görə 50 yaşında Azərbaycanın "Şöhrət", Gürcüstanın "Şərəf" ordenləri ilə təltif olunub. 55 yaşında Azərbaycanın ən yüksək fəxri adına - "Xalq şairi" adına layiq görülüb. Anadan olmasının 60 illik yubileyi ərəfəsində isə Azərbaycan Prezidentinin sərəncamı ilə "Şərəf" ordeni ilə təltif edilib.*

*Zəlimxan Yaqub uzun sürən xəstəlik səbəbindən 2016-cı il yanvarın 9-da dünyasını dəyişib və Bakıda birinci Fəxri xiyabanda dəfn olunub.*

yaratdığı hisslərə dözmək də çətindir: "Atam təpədən-dırnağa el-oba adamı idi, təbiət adamı idi. Yetişdiyi mühit, müəllim olan atasından öyrəndikləri, aldığı tərbiyə onu heç dəyişməyə qoymadı. İlk gündən gözümüzü açıb necə gördüksə, son günə qədər də daim eləcə öz ideallarına, xarakterinə, böyüyünə-kiçiyinə sadiq qaldı. Qapımıza saysız-hesabsız tanımadığımız insanlar gəlirdi. Hətta deputat olmayanda belə ona millət vəkili kimi müraciətlər edilirdi, insanlar müşkül problemləri ilə bağlı ona yüzlərlə məktub yazırdılar.

Atamın ən unudulmaz xatirələri Ulu Öndər Heydər Əliyevlə olan görüşləri idi. 1998-ci ildə onun 48 yaşı olanda o vaxtkı Respublika Sarayında hesabat xarakterli yaradıcılıq gecəsi keçirildi. Deyirdi, bu ideya ağlıma gələndə Ulu Öndərlə görüşdüm və dedim ki, cənab Prezident, mən xalqa hesabat vermək istəyirəm. Özüm açılış edəcəm, saz çalacam, şeirlər söyləyəcəm və s. Dedi, harada keçirmək istəyirsən? Filarmoniyada - deyə cavab verərkən, Heydər Əliyev atama söyləmişdi ki, sən filarmoniyaya sığışmazsan. Azərbaycan tarixində iki ictimai xadimin sinəsində saz olub. Biri Şah İsmayıl Xətaidir, biri də sən. Azərbaycan ilk dəfə bir millət vəkilinin sinəsində saz görəcək. Sarayda et, özüm də gələcəyəm...

Ulu Öndər tədbirə gəldi, sona qədər iştirak etdi. Ümummilli Liderin o sözləri, məclisdə iştirakı atama qol-qanad vermişdi, heç vaxt unutmurdu.

Bir dəfə də yenə Respublika Sarayında Yeni Azərbaycan Partiyasının yubiley tədbiri keçirilirdi. Aktrisa Məleykə Əsədova ilk dəfə orada atamın Ümummilli Liderə həsr etdiyi "Sən qalib gələcəksən!" adlı şeirini söyləyir, amma şeirin müəllifinin adı çəkilmir. Şeir çox bəyənilir, sürəkli alqışlarla qarşılanır. Ulu Öndər yanında əyləşən Prezidentimiz İlham Əliyevin qulağına pıçıldayır ki: "Bu şeirdə Zəlimxanın nəfəsini duydum". Tədbir bitəndən sonra isə atama yaxınlaşıb bu fikrini təsdiqləyir və şeirə görə təşəkkürünü bildirir.

Atam uşaqların arasında heç vaxt fərq qoymazdı. Amma ömrünün son illərində ən çox mənimlə vaxt keçirdiyinə, müalicə olduğu son 6 ildə aylarla Almaniyada, Türkiyədə yanında qaldığıma görə mənə bir az özəl yanaşırdı. Bunu anam da hiss etmişdi.

Atamın xəstəliyi əslində tam təsadüfən aşkarlandı. Həkimlər təhlükəli bir şiş olduğunu bilən kimi əməliyyat etdilər. Amma prosesi dayandırmaq mümkün olmadı. Ömrünün son vaxtlarında səsi tamamilə qısılmışdı və atama ən pis təsir edən məhz bu məqam idi. Bir dəfə güzgüdə özünə uzun-uzadı baxıb dedi: "Zəlimxanın sarayları titrədən səsinə bax..."

Atamla sonuncu dəfə Almaniyada olanda həkim mənə demişdi ki, daha gəlməyin, 4-6 ay zamanı qalıb.



Artıq o söhbətdən 5 ay ötmüşdü. Sən demə, tibbdə belə bir hal var ki, ölümündən əvvəl bütün hüceyrələr özünü toplayırmış. Atam da ölümündən bir-iki gün qabaq birdənbirə o qədər yaxşılaşdı ki... Hətta yeriyə bilməyən adam pillələri özü enərək yemək otağına gəldi. Deyib-güldük. Atamı belə yaxşı görəndə həkimin o sözünü xatırlayıb qarasınca deyindim ki, o, belə deyirdi, amma atam əksinə indi yaxşılaşıb. Bir az sonra otağına getdi, güclü öskürdüyünü eşidib yanına qaçdıq. Mən tez başını qucaqladım. Barmağını yuxarı qaldırıb dedi: "Mən xalqım üçün, dövlətim üçün şərəfli ömür yaşadım, siz də belə olun!" Vəssəlam...

Atamı itirəndən sonra onun nə qədər sevildiyini bir daha dərk etdik, unudulmadığını gördük. Nə yaxın tanıdıqlarından, nə digər insanlardan heç bir etibarsızlığa şahid olmadıq. Elə hardasa "Zəlimxan Yaqubun övladıyam" demək bəs edir ki, illər boyu bizə mənəvi qida ola biləcək xoş sözlər eşidək. Onun övladı olduğumuz üçün çox şanslıyıq.

Mənim balaca oğluma öz adını qoyub. Yəni evimizdə bir Zəlimxan Yaqub da böyüyür. Onun müəllimi adını eşidən kimi deyib ki, babandan gözəl bir şeir de, bütün ilboyu sənin qiymətini yazacağam. (gülür) Belə hallar olduqca tez-tez baş verir və bu, həm biz övladlarını, həm də nəvələrini çox qürurlandırır".

Zəlimxan Yaqubun çağdaş Azərbaycan poeziyasında özünəməxsus yeri, poetik nəfəsi olan əsərləri xalqımıza məxsus mütləq dəyərlərin, folklor yaradıcılığı qaynaqlarından süzülüb gələn ənənələrin diriliyi ilə səciyyələnir. Sağlığında heykəlləşən, bənzərsiz şeirləri ilə Azərbaycan ədəbiyyatına adını əbədi həkk edən, əbədiyaşarlıq qazanan şair hər zaman böyük sevgi və ehtiramla anılacaq.

**Qərənfil Mansurova**







# Azərbaycanı Kambocada böyük Zəfərimizdən sonra daha çox tanımağa başladılar

Jurnalımızın hər sayında bütün dünyada doğma vətənimizi təmsil edən, mədəniyyətimizi, tariximizi uzaq ölkələrdə təbliğ edən fəal soydaşlarımızı oxucularımızla yaxından tanış edirik. Budəfəki müsahibimiz **Fuad İmamquliyev** Cənub-Şərqi Asiyada yerləşən Kamboca dövlətində yaşayır. Söhbətimizdə Fuad müəllimi bu uzaq diyara aparan tale yolu, həyat və fəaliyyəti barədə danışdıq.

**- Fuad müəllim, oxucularımızın sizi yaxından tanıması üçün özünüz barədə bir qədər məlumat verməyinizi xahiş edirik.**

- Mən 1979-cu ildə Bakıda anadan olmuşam, 80 saylı orta məktəbi bitirmişəm. Elə o vaxtdan əcnəbi dillərə hədsiz marağım var idi. Bu maraq sayəsində Azərbaycan Xarici Dillər Universitetinə daxil olmağı seçdim. Ali təhsilimi başa vurduqdan sonra müxtəlif kurslarda və müəssisələrdə layihə meneceri, şöbə müdiri, direktor kimi fəaliyyət göstərdim. Təxminən on il ərzində ingilis dili üzrə metodbirləşmə rəhbəri kimi çalışma fürsətim oldu. Bu da mənə ingilis dili tədrisinin metodları və kurikulumları haqqında öyrənmək imkanı yaratdı, müəllimlərin peşəkar inkişafının yönləndirilməsinə kömək etdi. Beynəlxalq məktəblərdə işləmək, müxtəlif tədris yanaşmaları ilə tanış olmaq çox dəyərli bir təcrübə idi.

Sonra bir müddət təhsilin keyfiyyətinin artırılması üzrə imtahanlar və təqaüd proqramına rəhbərlik etdim. İstedadlı şagirdlərin akademik nailiyyətlərini artırmağa və onları dəstəkləməyə yönəlmiş bu təşəbbüs təşkilatçılıq, qiymətləndirmə və idarəetmə bacarıqlarını inkişaf etdirmək baxımından çox önəmli idi.

Çalışdığım müddətdə məktəblərdə strateji planlaşdırma, maliyyənin və işçi heyətinin idarə edilməsi, tədrisin keyfiyyətinin təmin olunması prosesi ilə bağlı kifayət qədər təcrübə topladım. Elə bu da mənə xarici ölkədə çalışmaq imkanı yaratmış oldu.



**- Adətən bizim həmvətənlərimiz çalışmaq və ya yaşamaq üçün daha çox Qərb ölkələrinə üstünlük verirlər. Sizin bunun əksinə olaraq Cənub-Şərqi Asiyanı - Kambocanı seçmək səbəbiniz nə oldu?**

- Uşaqlıqdan xaricdə təhsil almaq, çalışmaq və vətənimi uzaq diyarlarda təmsil etmək xəyalım var idi. Bakıda yaşadığım zamanlar müxtəlif ölkə səfirliklərinin kitabxanalarında olur, beynəlxalq sərgilərə qatılır, xarici ölkələrlə bağlı məlumatlar toplayırdım. Xaricdə işləmək üçün mediada dərc olunan xəbərləri təqib edirdim. Uyğun bir təklif gəldiyi zaman da dəyərləndirməyə qərar verdim.

Kambocaya isə Kembric kuri-




kulumu tətbiq edən beynəlxalq məktəbdə direktor olaraq çalışmağa dəvət edilmişəm. Bundan əvvəl uzun müddət Yaxın Şərq ölkələrində, Afrikada çalışmışdım və müxtəlif iqtisadi və sosial şəraitlərdə işləmək immunitetim yaranmışdı. Kambocanın qədim tarixi, zəngin mədəniyyəti və mehriban insanları məni cəlb etdi. Həm də burada müəllim kimi çalışmaq mənim üçün yeni bir təcrübə olacaqdı. Burada çalışmaqla yeni dillər öyrənməyə də nail oldum.

Mən bütün müxtəlif şəraitlərdə daim yanımda olan, mənə dəstək göstərən ailəmə çox minnətdaram. Həyat yoldaşım müəllimədir, burada riyaziyyat fənnini tədris edir. Dörd övladım var. 18 yaşlı böyük oğlum hazırda Rumıniyada kompüter mühəndisliyi ixtisası üzrə təhsil alır. Böyük qızım bu il abituriyent olacaq. 13 yaşlı oğlum və 12 yaşlı qızım məktəblidirlər. Ən kiçik övladım Yəmən Respublikasında, Səna şəhərində dünyaya gəlib. Digər övladlarım isə Bakıda doğulublar. Ona görə tez-tez Azərbaycana getmək, qohum-əqrəbanı görmək istəyirlər. Xüsusilə yay tətili zamanı onları heç cür saxlamaq olmur.

**- Fuad müəllim, Kambocada yaşamağın nə kimi çətinlikləri var ? Neçə ildir oradasınız?**

- Təbii ki, hər zaman  başqa bir ölkədə yaşamaq, fərqli bir mühitə alışmaq müəyyən çətinliklər yaradır. Artıq 3 ildir ki, Kambocadayıq. Burada ciddi bir problem ilə qarşılaşmamışıq. Yerli əhali olduqca qonaqpərvər, gülərüzdür. Yeganə çətinliyimiz yerli mətbəxə öyrəşə bilməməyimizdir. Buranın yeməkləri qətiyyən bizim damaq dadımıza uyğun deyil. Evdə yalnız Azərbaycan milli mətbəxinin yeməkləri hazırlansa da, buranın  ərzaqları ilə yenə o dadı ala bilmirik. Qürbətdə, yaxınlarımızdan uzaqda yaşamaq, onların xeyir-şərində iştirak edə bilməmək də insana bir az pis təsir edir.

**- Nə vaxtsa birdəfəlik vətənə dönməyi düşünürsünüzmü?**

- Əlbəttə. Vətənə qayıtmaq, ailəmizlə, dostlarımızla bir araya gəlmək, doğma yerlərdə yaşamaq arzusu hər zaman ürəyimizdədir. Hər bir azərbaycanlının ruhunda doğma torpağa bağlılıq var. Mən isə bu hissi ağrılı yaşayıram. Azərbaycan üçün çox darıxırıq. Övladlarımız burada oxuyur. Yəqin ki, onların təhsili  bitdikdən sonra geri dönmək barədə ciddi düşünəcəyik.

**- Kambocada nə qədər azərbaycanlı yaşayır və onların təşkilatlanma işi nə yerdədir?**

- Kambocada yaşayan azərbaycanlıların sayı çox deyil. Onlar əsasən paytaxt Pnompendə məskunlaşıblar. Amma burada tez-tez toplaşmaq imkanımız olmasa da, bütün fəaliyyətlərdə bir-birimizi dəstəkləməyə çalışırıq.

Ötən ilin oktyabrında Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Malayziyada Cənub-Şərqi Asiya ölkələri üzrə icmalarla görüş təşkil edildi. Malayziya, Vyetnam, Tailand, İndoneziya, Filippin və digər ölkələrin nümayəndələrinin iştirakı ilə tədbir keçirildi. Hər bir



ölkə üzrə əlaqələndirici koordinatorlar seçildi. Mən də Kamboca üzrə koordinator seçildim və biz öz aramızda müxtəlif sosial şəbəkələr üzrə qruplar yaratdıq. Orada bütün məlumatları paylaşırıq, hamını dəvət edirik. Biz çalışırıq ki, həmin ölkələrdə olan azərbaycanlıların bir-biri ilə bağı qopmasın. Çünki bəzi ölkələrdə diaspor fəaliyyətinin zəif olması məhz bununla bağlıdır ki, o regionda yaşayan soydaşlarımızın bir-biri ilə əlaqələri zəifdir. Müəyyən dostluqlar yarandıqdan sonra diaspor güclənir.

Bu yaxınlarda Kambocada beynəlxalq bir məktəbdə keçirilən mədəniyyət günlərində Azərbaycanı təmsil etdim. Orada milli musiqilərimizi səsləndirdik, mədəniyyətimizi təbliğ edən stend hazırladıq. Qarşıdan gələn Novruz bayramı günlərində yenidən belə bir planımız var.

**- Kambocalılar Azərbaycanı necə tanıyırlar?**

- Burada yerli insanlar çox mehriban və qonaqpərvərdirlər. Hər zaman onlardan dəstək görürük. Sosial çevrəmiz əsasən təhsil işçiləridir və onlarla tez-tez fikir mübadilələrimiz olur. Yerli xalq Azərbaycan haqqında digər Avropa ölkələri qədər məlumatlı deyil, təbii ki. Ancaq ölkəmizi İkinci Qarabağ müharibəsindəki qələbəmizdən sonra daha çox tanımağa başlayıblar. İdmançılarımızın beynəlxalq miqyaslı uğurları da müsbət mənada vətənimizin tanıdılmasına xidmət edir.

Hər görüşümüzdə mütləq Azərbaycanımızın tarixindən, təbiətindən, paytaxtımızın gözəlliyindən danışır, şəkillər və videolar göstərirəm. Keçən əsrin ortalarında Xəzər dənizinin üzərində tikilmiş şəhər - unikal Neft Daşları onları heyran edir.



Yerli əhali arasında sıx dostluq münasibətində olduğum çox insan var. Onların mədəni tədbirlərində, sosial yığıncaqlarında tez-tez iştirak edirəm, onlara mədəniyyətimiz, adət-ənənələrimiz barədə məlumat verirəm.

**- Fuad müəllim, ölkələrimiz arasında əlaqələr barədə fikirlərinizi bizimlə bölüşməyiniz maraqlı olardı.**

- Fikrimcə, Azərbaycan-Kamboca əlaqələri bir qədər zəifdir. Amma bu münasibətlərin xüsusilə turizm, təhsil və mədəniyyət sahələrində inkişafı üçün böyük potensial var. Son vaxtlar ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir, həlledici məsələlərdə bir-birinə dəstək verirlər. Kamboca Azərbaycanın rəhbərlik etdiyi ASEAN PA-da təmsil olunur.

Bu günlərdə Bakıda Azərbaycan parlamentində Milli Məclisin spikeri Sahibə xanım Qafarovanın sədrliyi ilə keçirilən Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında Kamboca nümayəndə heyəti də iştirak edirdi ki, bu da çox uğurlu bir göstəricidir. Düşünürəm ki, əlaqələrimiz bundan sonra daha da inkişaf edəcəkdir.











RAMSEK
2025

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ